RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 96 (8689) CÜMƏ, 7 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycanın özü qədər əbədi



# Azərbaycanı əbədiləşdirən lider

98 il bundan öncə, yazın gözəl çağında, şərqin qapısı olan Qədim Naxçıvanda dünyaya göz açan körpəni gələcəkdə çətin, mürəkkəb, keşməkeşli bir MİSSİYA gözləyirdi. Canı, qanı qədər sevdiyi Azərbaycanın MÜSTƏQİLLİYİNİ və onun ƏBƏDİLİYİNİ təmin etmək.

Heydər Əliyev elə bir düha, elə bir dahi şəxsiyyətdir ki, onun haqqında nə qədər yazılsa da, deyilsə də, yenə azdır. 50 illik əmək fəaliyyətimin 23 ilini bilavasitə onun, 17 ilini isə oğlu cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında çalışmaq, iş prosesində dəfələrlə görüşmək, ünsiyyətdə olmaq, onun qiymətli tövsiyə və məsləhətlərinə qulaq asmaq mənə nəsib olduğu üçün bəzi fikirlərimi oxucularla bölüşmək istəyirəm.

Şəxsiyyət təsadüfən formalaşmır. Şəxsiyyəti formalaşdıran amillər aşağıdakılardır:

Genetik faktlar, ailə tərbiyəsi, düşdüyü mühitin təsiri və Tanrı vergisi.

- **Ulu Öndərin cəsarətliliyi, qətiyyəti, mübarizliyi genetik faktordur.**
- **onun insanlara qayğıkeş və mehriban münasibəti, Vətənə, torpağa sevgisi ailədə formalaşıb.**
- **işlədiyi hər bir yerdə birinci olmaq faktoru düşdüyü mühitdə formalaşıb.**
- **nəhayət, dünyəvi siyasətçi, lider, tarixi nadir şəxsiyyət olması Tanrı vergisi və ona daxili inamı ilə bilavasitə əlaqədardır.**

Onun həyat yoluna nəzər salsaq, bütün bu faktorların hamısı ilə rastlaşacağıq.

Heydər Əliyev həmişə xalqına arxalanıb və ondan güc alıb. Bir çox problemlərin həllində xalqla məsləhətləşərdi və ya dövlətçiliyə təhlükə yarananda xalqa müraciət edərdi. Onun dediyi "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" sözləri həyatda həmişə təsdiqini tapmışdır.

*Ardı 3-cü səh.*



# Ən nəhəng layihə də uğur qazanır - onu İlham Əliyev dəstəkləyirsə!

Son 10 ilin ən mühüm hadisələrindən biri Xəzər dənizinin hüquqi stasusu barədə konvensiyanın imzalanmasıdır. 2018-ci il avqustun 12-də beş sahilyanı dövlətin rəhbərlərinin bu sənədə imza atması çoxtərəfli birgə işin uğurlu nəticəsi idi. Bu gün həmin konvensiya Xəzərdə təhlükəsizliyə və sabitliyə çox kömək edir. Yəni Xəzəryanı ölkələrin sıx qarşılıqlı iqtisadi fəaliyyəti, burada yaşayan xalqların həyat səviyyəsinin getdikcə daha da yüksəlməsi üçün geniş perspektivlər açılır.

## Azərbaycanın və Türkmənistanın birgə işlədikləri "Dostluq" yatağı hər iki ölkəyə xeyir-bərəkət gətirəcək

Azərbaycan öz Prezidentinin rəhbərliyi ilə konvensiyanın hazırlanmasının bütün mərhələlərində konstruktiv işləmiş, digər Xəzəryanı ölkələrlə yanaşı, onun imzalanmasına töhfəsini vermişdir. Yeri gəlmişkən, hələ 2010-cu ildə Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilmiş III Zirvə toplantısı bölgədə əməkdaşlığın möhkəmləndirilməsi işinə mühüm dəstək olmuşdur. Ümumiyyətlə, Azərbaycan Xəzəryanı dövlətlərin hamısı ilə sıx etimada, qarşılıqlı, bərabərhüquqlu maraqların nəzərə alınmasına, ərazi bütövlüyünə hörmətə və bütün ölkələrin suverenliyinə əsaslanan münasibətlərə malikdir. Bu da Prezident İlham Əliyevin apardığı düzgün, uğurlu siyasətin nəticələrindən biridir.

Sözügedən konvensiya Xəzərdə həmçinin enerji sahəsində əməkdaşlığın yeni mərhələsinin başlanğıcını qoydu. 2019-cu ildə Türkmənbaşı şəhərində keçirilmiş birinci Xəzər İqtisadi Forumunun gedişində Azərbaycan və Türkmənistan arasında məzmunlu və faydalı danışıqlar aparıldı, bir sıra mühüm razılaşmalar əldə edildi. Ümumiyyətlə, son illər ərzində bu iki ölkə arasında münasibətlər müsbət dinamika ilə inkişaf edir. Ali səviyyədə qarşılıqlı səfərlərin xronologiyası da bunu təsdiqləyir. Belə ki, son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Müqayisə üçün deyək ki, qarşılıqlı münasibətlərin bütün tarixi ərzində imzalanan sənədlərin sayı 100-dən çoxdur. Yəni onların yarısı son 3 ilin payına düşür. Ən önəmlisi də odur ki, bütün bu sənədlərdə nəzərdə tutulanlar, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə edilən razılaşmalar müvəffəqiyyətlə yerinə yetirilir.

Bu il yanvarın 21-də Azərbaycan və Türkmənistan hökumətləri arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması da bunu təsdiqləyir. Həmin mühüm hadisə ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirildi.

Azərbaycan və Türkmənistan tərəflərinin bu yatağı "Dostluq" adlandırmaq barədə ümumi qərarı dərin rəmzi məna daşıyır. Çünki Anlaşma Memorandumunun imzalanması iki ölkənin energetika sahəsində prinsipcə yeni mərhələnin, möhkəm beynəlxalq hüquqi bazaya əsaslanan birgə işin başlanğıcını qoyur, regiona sistemli və uzunmüddətli əsasda iri xarici investisiyalar axını üçün əlavə ciddi stimullar yaradır.

*Ardı 8-ci səh.*

# Şərəfli tariximizin yaradıcısı

Hər bir dövlətin və xalqın uğurlarında liderlərin böyük rolu olmuşdur. Həyatının mənasını ölkəsinə ləyaqətlə xidmətdə görən, müasir Azərbycan dövlətinin memarı Heydər Əliyev də belə liderlərdəndir.

Anadan olmasının 98-ci ildönümü ərəfəsində bir daha Ulu Öndəri ehtiramla anırıq. Aradan illər, onilliklər keçdikcə Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinin mahiyyətini daha dərindən anlayırıq.

Heydər Əliyevin gəncliyi çətin illərə təsadüf etmişdi. Amma xalqımızın böyük oğlu öz gücü, istedadı sayəsində çalışdığı fəaliyyət sferasında böyük uğurlar əldə etmiş, Azərbaycan DTK-nın sədri vəzifəsinə kimi yüksəlmişdi.

*Ardı 4-cü səh.*

# Azərbaycanın inkişaf strategiyasının müəllifi

Hər bir dövlətin inamlı inkişafını təmin edən strateji amillərdən biri liderlik fenomenidir.

Tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir. Bu mənada, Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu və inkişafı liderlik amili ilə birbaşa bağlıdır.

İnkaredilməz reallıqdır ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, Ulu Öndər Heydər Əliyev olmuşdur. İctimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

*Ardı 4-cü səh.*

## M.B.Eynullayevin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mətin Balasən oğlu Eynullayev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2021-ci il*

## O.F.Nəzərlinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Orxan Faiq oğlu Nəzərli Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2021-ci il*

◆ Jurnalist araşdırması

# Mənəviyyata qarşı teleterror

*"Biz nə istəyiriksə, nə hazırlayırıqsa, tamaşaçı da ona baxmalıdır" iddiası ilə fəaliyyət göstərən telekanallara "Dayan!" deyən yoxdur!*

Bütün dünyada milyardlarla insanı böyük maraq və həvəslə öz başına yığa bilən televiziyaların əsas məramı cəmiyyətin təmiz, ləkəsiz aynasına çevrilmə olmalıdır. Elə ayna ki, oraya baxan hər bir xalq, zümrə mənsub olduğu tarixini, unudulmamış mədəniyyətini, itirilməmiş mənəviyyatını, ümid verən gələcəyini görsün.

Televiziya ekranları xalqımızın ən yaxşı xüsusiyyətlərini, örnəklərini nümayiş etdirməlidir, burada dəyərlər reytinq xatirinə dəyərsizləşdirilməməlidir.

İnsanlar televiziya qarşısında düşüncələrini kütləşdirmək, biganələşmək, özgələşmək üçün deyil, daha da yetkinləşmək, doğmalaşmaq, eyni zamanda, millliləşmək üçün əyləşməlidirlər.

## Millilikdən uzaq telekanallar

Sayı getdikcə artsa da, keyfiyyət göstəricisi, demək olar ki, yüksəlməyən telekanallar öz tamaşaçılarına nələri aşılaya bilirlər? Ailə dəyərlərinin deqradasiyasına yol açan verilişlərlə, insanların sosial qayğılarından təşəkkül tapan problemlərini primitiv şou formatda ortaya çıxarmaqla dəyərlərimizi heçə çevirməyimi, ucuz şou proqramlarla insanları səviyyəsizləşdirməyimi?

Hansısa həkimi və klinikanı reklam edən verilişlərlə, bəsit, bayağı əyləncə şouları ilə fəaliyyətlərini "quran" kanalların gizli və ya açıq formada verdiyi reklamlardan nə qazandığı aydındır. Bəs, tamaşaçı bundan nə qazanır?

*Ardı 9-cu səh.*

# Paşinyan ona qarşı çıxan generalları sıradan çıxarmağa başladı

Növbədənkənar parlament seçkiləri yaxınlaşdıqca Ermənistanda iqtidar və müxalifətin biri-birinə qarşı hücumlarının daha radikal xarakter alması müşahidə edilir. "İravnuk" qəzeti yazır ki, Nikol Paşinyan rəqiblərinin mövqeyini sarsıtmaq üçün yeni taktikadan istifadə etməyə başlayıb. Belə ki, Ermənistanda 44 günlük müharibə zamanı məğlubiyyətin səbəbləri ilə bağlı hər şeyi generalların və hərbçilərin üzərinə ataraq Paşinyanın günahını yumşaltmağa başlayıblar.

Bildirilir ki, bəzi siyasi partiya rəhbərləri də Paşinyanın reytinqini az-çox yaxşılaşdırmaq işinə boyunduruq olublar: "Keçmişdə onlar kəskin danışırdılarsa və kapitulyasiya imzalamış Paşinyanı qınayırdılarsa, bu gün əks mənzərə var. Onlar "Paşinyan o qədər də günahkar deyil, generallar və hərbçilər ölkəni bu vəziyyətə saldılar" deyərək Paşinyanın günahını yumşaltmağa başlayıblar".

Bu ərəfədə Ermənistanın Xüsusi İstintaq Xidməti ölkənin keçmiş müdafiə naziri Mikael Arutyunyana qarşı irəli sürülən ittihamları yenidən təsnif edib. Hazırda Arutyunyan Ermənistan Cinayət Məcəlləsinin 309-cu maddəsinin 3-cü hissəsi (vəzifə səlahiyyətlərindən sui-istifadə, ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olmaq) ilə ittiham olunur. Bundan əvvəl ona Cinayət Məcəlləsinin 300.1-ci maddəsi (konstitusiya quruluşunun devrilməsi) ilə ittiham irəli sürülmüşdü.

Bu günlərdə isə Ermənistan prezidenti Armen Sarkisyan baş qərargah rəisinin müavini general-leytenant Karen Abramyanı vəzifəsindən azad edib. O, Nikol Paşinyanın təqdimatı ilə işdən çıxarılıb. Abramyan 2020-ci ilin fevralına qədər qondarma "Dağlıq Qarabağ Respublikası"nın "müdafiə naziri" olub. Həmin ilin iyununda Ermənistan silahlı qüvvələri baş qərargah rəisinin müavini təyin edilib. Lakin Paşinyan idarəçiliyinə qarşı çıxanlar sırasında yer alıb. Paşinyana qarşı çıxan digər generallara qarşı da müxtəlif ittihamlar irəli sürülür.

Müxalifət bildirir ki, Paşinyan inzibati yollarla ona qarşı çıxanları neytrallaşdırmağa çalışır. Paşinyan keçmiş hərbi xuntanı da sərt tənqid hədəfinə çevirib. O bildirir ki, Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyan öz şəxsi mənafeləri naminə Qarabağı satıblar: "Robert Koçaryan və Serj Sarkisyan, siz vətən xainisiz! Biz sizin satqınlığınızla mübarizə apardıq. Siz hətta müharibə zamanı da satqınlığınızı davam etdirdiniz". Paşinyan Koçaryan və Sarkisyanı həmçinin ordunu müharibəyə hazırlamamaqda ittiham edib.

Belə bir vaxtda məlum olub ki, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan Koçaryan və Sarkisyanı qarşıdan gələn seçkidə "Milli barışıq alyansı" bloku adı altında birgə iştirak etməyə dəvət edib.

*Ardı 8-ci səh.*

# Bir sıra şəhər və rayonlarda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əhalisi 60698 nəfər olan 6 şəhər və rayonun 23 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 26 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,82 milyon (bir milyon səkkiz yüz iyirmi min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2021-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 may tarixli Sərəncamına Əlavə***

## Qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Şəhərin, rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Gəncə | 1 | Şıxzamanlı qəsəbəsi | 6773 |
| 2. | Naftalan | 1 | Qaşaltı Qaraqoyunlu kəndi | 930 |
| 3. | Yevlax | 3 | Hacımahmudlu kəndi | 635 |
| | | | Qaramanlı kəndi | 878 |
| | | | Nurallar kəndi | 247 |
| 4. | Goranboy | 10 | Əlirzalı kəndi | 1248 |
| | | | Hazırəhmədli kəndi | 1183 |
| | | | Xınalı kəndi | 1061 |
| | | | Qaradağlı kəndi | 3723 |
| | | | Qaramusalı kəndi | 1181 |
| | | | Qızılhacılı qəsəbəsi (3 quyu) | 7206 |
| | | | Muzdurlar kəndi | 1596 |
| | | | Səfikürd kəndi | 4990 |
| 5. | Göygöl | 5 | Balçılı kəndi | 2350 |
| | | | Quşqara kəndi (2 quyu) | 1698 |
| | | | Nadil kəndi | 1359 |
| | | | Səmədli kəndi | 470 |
| 6. | Samux | 6 | Aşağı Ağasıbəyli kəndi | 522 |
| | | | Çobanabdallı kəndi | 3030 |
| | | | Hacıalılı kəndi | 1300 |
| | | | Qarayeri qəsəbəsi | 6299 |
| | | | Qovlarsarı kəndi | 1545 |
| | | | Samux şəhəri | 10474 |
| **Cəmi:** | | **26** | **23** | **60 698** |

# K.A.Qurbanovun 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Kazım Avdil oğlu Qurbanov 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2021-ci il*

# O.F.Nəzərlinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Orxan Faiq oğlu Nəzərli Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2021-ci il*

# M.B.Eynullayevin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mətin Balasən oğlu Eynullayev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2021-ci il*

# *Samir Nuriyev:* "İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri dövlət başçısının daim diqqət mərkəzindədir"

İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının videoformatda növbəti 5-ci iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, iclası açan Prezident Administrasiyasının və Qərargahın rəhbəri Samir Nuriyev işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin dövlət başçısının daim diqqət mərkəzində olduğunu, həyata keçiriləcək fəaliyyətlər ilə bağlı mühüm istiqamətlərin müəyyənləşdirildiyini qeyd edib.

Samir Nuriyev bildirib ki, Prezident İlham Əliyev tərəfindən də qeyd edildiyi kimi, işğaldan azad olunmuş torpaqlarımızda işğalçı Ermənistan tərəfindən şəhər və kəndlərimiz viran qoyulub, tarixi və dini abidələrimiz yerlə yeksan edilib ki, bu da böyük miqyasda planlaşdırma və bərpa işlərinin həyata keçirilməsinin tələb edildiyini göstərir.

İclasda işğaldan azad edilmiş ərazilərdə həlledici əhəmiyyət kəsb edən minalardan təmizləmə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı" Dövlət Proqramının hazırlanması istiqamətində görülən işlər, keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıdışı, işğaldan azad olunmuş ərazilərdə enerji təminatı və xüsusilə də "Yaşıl enerji" məsələləri, şəhərsalma və nəqliyyat-rabitə infrastrukturunun qurulması, ADA Universiteti tərəfindən aparılan "Azərbaycanın postkonflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" tədqiqat işi çərçivəsində görülən işlər və keçirilmiş sorğuların nəticələri üzrə məruzələr dinlənilib və müvafiq tapşırıqlar verilib.

İclasda dövlət başçısının tapşırıqlarına uyğun olaraq işlərin sürət və keyfiyyətin vəhdəti nəzərə alınmaqla aparılmasının vacibliyi vurğulanıb.

# Milli Məclisdə Vətən müharibəsinin qəhrəmanları və jurnalistlərlə görüş keçirilib

Mayın 6-da Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Vətən müharibəsində iştirak etmiş bir qrup qəhrəmanla və arxa cəbhədə fəallığı ilə seçilmiş jurnalistlərlə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Adil Əliyev tariximizin şanlı səhifəsi olan Vətən müharibəsindən söhbət açaraq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun torpaqlarımızı düşmən işğalından azad etməsinin hər bir azərbaycanlıda qürur hissi doğurduğunu diqqətə çatdırıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin dövründə başlanmış ordu quruculuğu, yüksəkixtisaslı hərbi qulluqçuların hazırlanması və hərbi sahəyə göstərilən diqqətin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi uğurlu nəticəsini verdi.

Milli Məclis sədrinin müavini ölkəmizdə həyata keçirilən gənclər və idman siyasəti, idmanda kütləviliyin təmin edilməsi istiqamətində həyata keçirilən işlərdən danışıb, müharibədə qazanılan böyük qələbədə hərbçilərimizin fiziki hazırlığının da mühüm rol oynadığını qeyd edib.

Adil Əliyev bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri özü yerinə yetirən Azərbaycan ərazi bütövlüyünü bərpa edib.

Milli Məclis sədrinin müavini Vətən müharibəsi zamanı dövlət başçısının "Biz birlikdə güclüyük!" şüarını rəhbər tutan xalqımızın istər döyüş meydanında, istərsə də arxa cəbhədə fəal iştirakını, xüsusilə gənclərimizin həm cəbhədə, həm də informasiya müharibəsində fəallığını yüksək qiymətləndirib.

Diqqətə çatdırılıb ki, Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizin bərpası, habelə şəhid ailələrinin və qazilərimizin qayğı ilə əhatə olunması qarşımızda dayanan əsas vəzifələrdəndir.

Səmimi görüşə görə təşəkkürlərini bildirən iştirakçılar fəaliyyət göstərdikləri sahələrdə bundan sonra da ciddi səylə çalışacaqlarını, ölkəmizin daha da inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklərini diqqətə çatdırıblar.

Sonda görüş iştirakçılarına Vətən müharibəsində arxa cəbhədə göstərdikləri xidmətlərə görə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

# Milli Məclisdə Azərbaycan-Venesuela əlaqələri müzakirə olunub

Mayın 6-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Venesuela Bolivar Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kristofer Martinez Berroteranla görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonağı səmimi salamlayan komitə sədri Kristofer Martinez Berroteranın Azərbaycanda səfir kimi aktiv fəaliyyətini qeyd edib. Səməd Seyidov dövlət rəhbərləri arasındakı yüksək səviyyəli siyasi əlaqələr sayəsində ölkələrimizin dostluq münasibətlərinin inkişaf etdiyini söyləyib. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Venesueladan təhvil almasını əlamətdar hadisə kimi dəyərləndirib. O vurğulayıb ki, əlaqələrin inkişafı üçün bu əlverişli mühitə baxmayaraq, ölkələrimiz arasındakı iqtisadi-ticari əməkdaşlıq istənilən səviyyədə deyil.

Dostluq münasibətlərinin parlamentlərarası əməkdaşlığın inkişafı üçün də geniş imkanlar açdığını bildirən Səməd Seyidov bu sahədə əlaqələrin təşkili perspektivlərindən söz açıb.

Görüşə görə minnətdarlığını bildirən Kristofer Martinez Berroteran parlament diplomatiyasının rolunu yüksək qiymətləndirdiyini deyib. Səfir ölkələrimizin parlamentləri arasında münasibətlərin inkişafının ümumi mənafelərə cavab verdiyini diqqətə çatdırıb. Qonaq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Prezident İlham Əliyevin fəaliyyətini qeyd edərək, yüksəksəviyyəli əlaqələrin, qarşılıqlı səfərlərin, aparılan danışıqların və ölkələrimiz arasında imzalanmış sənədlərin ikitərəfli əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaratdığını qeyd edib.

Görüşdə digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Sosial xidmətlər sahəsi üzrə mühüm layihə və innovativ təşəbbüslərin təqdimatı olub

Aparılan islahatlar sosial xidmətlər sahəsində də elektron infrastrukturun formalaşmasına, bu sahədə müasir və çevik idarəçilik-monitorinq sisteminin qurulmasına yönəlib.

Sosial Xidmətlər üzrə Vahid İnformasiya Sisteminin yaradılması xidmət göstərilənlərlə bağlı bütün məlumatları real vaxt rejimində əhatə edən sosial xidmətlər xəritəsi modelinin tərtib olunmasına imkan verəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən müvafiq sahələr üzrə mühüm layihə və innovativ təşəbbüslərin təqdimatı ilə əlaqədar onlayn formada keçirilən tədbirdə bildirib.

Nazir Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısının sosial xidmətlərin inkişafı istiqamətində də ciddi irəliləyişlərə imkan verdiyini vurğulayıb. Qeyd edib ki, son iki ildə və cari ilin ilk rübündə müasir tələblərə uyğun 12 reabilitasiya və sosial xidmət müəssisəsi istifadəyə verilib və bu proses davam edir. Eyni zamanda, sosial xidmətlərin operativ, müasir iş prinsipləri əsasında idarə olunması mexanizmi yaradılır. Bu xidmətlərin keyfiyyətinin və operativliyinin, əlçatanlığının artırılması, sosial xidmətlərə ehtiyac duyan insanlarla işin, onlara qayğı göstərilməsi prosedurlarının qabaqcıl dünya təcrübəsi əsasında qurulması əsas hədəflərdəndir.

S.Babayev hazırda 1200-dən çox şəxsin daimi dövlət himayəsində yaşadığı sosial xidmət müəssisələrində sosial modelə keçid prosesini diqqətə çatdırıb. Bildirib ki, əsas məqsəd həmin insanların cəmiyyətə inteqrasiyası, digərlərindən asılı olmadan, sərbəst şəkildə öz həyatlarına səfərbər olmaları üçün sosial reabilitasiya məqsədli işlərin gücləndirilməsidir. Ümumilikdə sosial xidmətlərin əsas məqsədini xidmət göstərilən şəxslərin həyatında müsbət dönüşə, pozitiv dəyişikliyə, fəal həyata dönüşə nail olmaq təşkil etməlidir.

Nazir möhtəşəm Qələbəmizlə başa çatan Vətən müharibəsinin qazilərinin, şəhid ailələrinin sosial dəstəklə təminatı işlərinin davam etdirildiyini diqqətə çatdırıb. Postmüharibə dövründə Sosial Xidmətlər Agentliyinin xətti ilə bu kateqoriyadan olan vətəndaşların sosial-psixoloji dəstəklə təmin olunması işlərinin əhəmiyyətini, bu işlərin minlərlə insanı əhatə etdiyini diqqətə çatdırıb. Bundan sonra da qazi və şəhid ailələrinə sosial dəstək işlərinin fəaliyyətində prioritet istiqamət təşkil edəcəyini vurğulayıb.

Sonra "Psixososial yardım xidməti", "Sağlamlıq imkanları məhdud 0-6 yaşarası uşaqların səyyar sosial reabilitasiyası", "Sosial iş üzrə virtual təlim proqramı", "Azərbaycanda sosial xidmətlərin və əhalinin sosial xidmətlərə ehtiyac səviyyəsinin qiymətləndirilməsi" və başqa mövzularda təqdimatlar olub.

# Qazaxıstan həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib

Mayın 6-da Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın vitse-prezidenti və qurumun İpək Yoluna Dəstək Qrupunun sədri Azay Quliyev Qazaxıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkərimov ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Serjan Abdıkərimov 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər münasibətilə Azərbaycan xalqına təbriklərini çatdırıb. Qeyd edib ki, Qazaxıstan həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib.

Ölkələrimiz arasında tarixən formalaşmış ortaq dəyərlərdən bəhs edən Serjan Abdıkərimov hazırda bölgənin lider ölkəsi olan Azərbaycanla hərtərəfli əməkdaşlığı genişləndirmək istədiklərini bildirib. Parlamentlərarası əlaqələrə çox böyük əhəmiyyət verdiklərini qeyd edib, ATƏT PA çərçivəsində, eləcə də digər beynəlxalq qurumlarda Azərbaycanın mövqeyini həmişə dəstəklədiklərini deyib. Görüşdə Azay Quliyev ATƏT PA çərçivəsində və digər beynəlxalq qurumlarda Azərbaycan və Qazaxıstan parlament nümayəndə heyətlərinin əməkdaşlığından söz açıb. Bölgəmizdə həyata keçirilən qlobal layihələrdən bəhs edib. İşğaldan azad olunmuş torpaqlarda aparılan minalardan təmizləmə işlərinə diqqət yönəldib. Bildirib ki, minalanmış ərazilərin xəritəsini Azərbaycana verməsi üçün beynəlxalq qurumlar Ermənistana təzyiq göstərməlidir.

İşğaldan azad olunmuş ərazilərdə gördüklərindən dəhşətə gəldiyini, o torpaqlarda ermənilərin əsl barbarlıq törətdiyini bildirən Qazaxıstan səfiri deyib ki, Ermənistanın minalanmış ərazilərin xəritəsini verməməsi müharibə cinayətidir.

Söhbət zamanı ikitərəfli müstəvidə və çoxtərəfli platformalarda, o cümlədən TÜRKPA, Türk Şurası, TÜRKSOY, TRASECA, müxtəlif parlamentlərarası təşkilatlar və digər qurumlar çərçivəsində əməkdaşlığın inkişafı barədə fikir mübadiləsi aparılıb.

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

*Əvvəli 1-ci səh.*



# Azərbaycanı əbədiləşdirən lider

Xalqımız ona çox borcludur. Hələ Dövlət Təhlükəsizlik Komitəsində işləyəndə xalqın vətənpərvər, millətini sevən oğullarını müdafiə edər və onları kommunist rejiminin öldürücü caynaqlarından xilas edərdi. Ölkəmizin keçmişinə nəzər salsaq görərik ki, Ulu Öndər ona qədər respublikanı idarə edənlər içərisində bütün varlığı və milliliyi ilə xalqına və onun gələcəyinə xidmət edən, azərbaycançılıq ideyasını ön plana çəkən yeganə rəhbər olub.

Sovet rejimi keçmişdə ölkəmizin idarəçiliyinə qeyri millətlərdən, xüsusən ermənilərdən olan kadrları təyin edib, təyin etdiyi milli kadrlar isə o rejimə xoş gəlmək üçün onların istəklərini yerinə yetiriblər.

Yalnız Ulu Öndər Heydər Əliyev 1969-cu ildə ölkəmizə rəhbərliyə başlayandan sonra milli kadrlara yol açıb. Bir faktı yada salmaq kifayətdir dərk edəsən ki, kommunist rejiminin əvvəllər təyin etdiyi şəxslər ölkəni nə günə qoyublar. 1920-1930-cu illərdə ölkəyə 7 rəhbər təyin olunub: ikisi erməni, ikisi yəhudi, biri rus, biri ukraynalı, yalnız biri azərbaycanlı - Ruhulla Axundov. Onu da bir il işləməmiş azad ediblər. Ermənistana rəhbər isə həmişə erməni millətindən təyin olunub.

Dünyanın hegemon dövlətlərindən olan SSRİ kimi dövlətin mövcudluğu dövründə Azərbaycana rəhbərlik edərkən milli kadrlar formalaşdırmaq, milli siyasət aparmaq, ölkənin gələcəkdə müstəqil yaşaması üçün milli iqtisadiyyat formalaşdırmaq, milli hərbi baza və kadrlar hazırlamaq, azərbaycançılıq siyasəti yeritmək, ana dilini dövlət dili olaraq təsdiqləmək üçün hüquqi əsas yaratmaq, ölkənin əsas milli sərvəti olan neft, qazın dənizdə istehsalı və xaricə ixracı üçün iqtisadi və siyasi imkan yaratmaq, bütün bunları və digərlərini yalnız xalqına əvəzsiz xidmətlərinə görə Ulu Öndər statusunu qazanmış Heydər Əliyev edə bilərdi və etdi. Ona görə biz ona həmişə borcluyuq.

Şəxsən rastlaşdığım bir fakta nəzər salaq. 1969-cu ilə qədər ölkənin 2-ci sənaye, birinci kimya, neft-kimya şəhəri olan Sumqayıtda yerləşən bütün zavodların direktorları, baş mühəndisləri qeyri millətdən olub. Yalnız Ulu Öndər Heydər Əliyev 1969-cu ildə ölkəyə rəhbərlik etməyə başlayandan sonra onları tədricən milli kadrlarla əvəz etdi.

Milli birlik və həmrəylik, ictimai-siyasi sabitlik, müasir dünyanın tələblərinə uyğun iqtisadi inkişaf həmişə Ulu Öndərin idarəçiliyində prioritet olub. 1 oktyabr 2003-cü il tarixdə növbəti prezident seçkiləri ərəfəsində xalqa müraciətindən sitat: "Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətdə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu, məhz belə olacaq".

Bəli, Prezident İlham Əliyev son 17 ildə prezidentlik fəaliyyəti dövründə məhz bu istiqamətlərdə öz fəaliyyətini davam etdirərkən bugünkü Azərbaycan dövlətini yenidən qurdu.

Ulu Öndərin çalışqanlığı, öz üzərində daim işləməsi, dünyəvi proseslərdən bəhrələnməsi, ədalət prinsiplərinə riayət etməsi, xalqına, vətəninə, dövlətinə bağlılığı məqsədlərinə nail olması üçün əsas amillər idi. Ona görə də 1970-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ miqyasında ən geridə qalmış respublikamızı ən qabaqcıl ölkələr sırasına çıxarmağa nail oldu. Həmin dövrdə SSRİ rəhbərliyinə olan isti münasibətdən məharətlə istifadə edərək ölkə üçün çox vacib olan 125 iri yeni sənaye müəssisəsinin tikilib istifadəyə verilməsinə müvəffəq oldu. Pambıq istehsalı ildə 2 milyon tona, üzüm istehsalı 1,9 milyon tona çatdırıldı, sənaye istehsalı 1970-1980-ci illər ərzində 2,7 dəfə, kənd təsərrüfatı isə 2,6 dəfə artdı.

Yüz illər keçəcək, xalqımız və dünya siyasətçiləri Ulu Öndər haqqında yeni-yeni dəyərli fikirlər səsləndirəcəklər. Heydər Əliyevdə olan möcüzəvi qabiliyyət, bacarıq SSRİ dövlətinin prinsiplərinə üstün gəldi və o, həmin dövlətdə ən yüksək vəzifəyə yüksələ bildi.

Lakin çürük rejimin qeyri-insani prinsipləri, 1980-ci illərdə SSRİ-yə rəhbərlik edən Mixail Qorbaçovun Heydər Əliyevə qarşı qısqanclıq zəminində yaratdığı dözülməz şərait onu tutduğu vəzifədən - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməyə vadar etdi. Ulu Öndər sovet rejiminin çürük olduğuna yaxşı bələd idi. 1991-ci ilin mart ayında SSRİ-nin saxlanılması üçün referendum keçirilərkən söyləmişdi ki, SSRİ-nin dağılması qaçılmazdır, tarixi zərurətdir. Dünyada bir meyar var, ədalət həmişə zəfər çalır!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həmişə onun diqqət mərkəzində idi. O, Azərbaycanda hakimiyyətdə olduğu dövrdə - 1969-1982-ci illərdə ermənilərin Qarabağla əlaqədar bütün separatçı cəhdlərinin qarşısını məharətlə alırdı. Ölkəmizin başına gələn müsibətlər onun Azərbaycanda olmadığı dövrdə baş verdi, yəni SSRİ-nin ən yüksək vəzifələrindən birinə təyin olunaraq Moskvaya gedəndən sonra...

Erməni separatçılarının havadarlarının köməyi ilə separatizmin alovlanması, 1988-ci il fevral ayının 26-29-u Sumqayıt hadisələri, 1990-cı il 20 Yanvar, nəhayət, 1992-1993-cü illərdə Qarabağ torpaqlarının, xüsusən 8 may 1992-ci ildə Şuşanın, 18 may 1992-ci ildə Laçının işğalından, 26 fevral 1992-ci ildə Xocalı faciəsindən, 2 aprel 1993-cü ildə Kəlbəcərin zəbt edilməsindən sonra Qarabağ torpaqlarının genişmiqyaslı işğalına yol açıldı.

O vaxtki xəyanətkar, satqın, dağıdıcı, ölkəni xəritədən silmək təhlükəsinə çatdıran iqtidarın - indiki müxalifətin yalvarışından və xalqın tələbindən sonra hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev əslində tam dağılmış dövləti yenidən qurmağa başladı və buna qısa müddətdə nail oldu.

Dağılmış iqtisadiyyat, torpaqların işğalı, ölkədə hərc-mərclik, özbaşınalıq, ağır yaşayış tərzi, qaçqın və məcburi köçkün problemi, beynəlxalq aləmdən təcrid olunma və bərpa olunma şansı heçə endirilmiş bir ölkə. AXC-Müsavat cütlüyü birillik hakimiyyəti dövründə ölkəni belə bir vəziyyətə salmışdı. Heydər Əliyevdən başqa ölkəni belə bir vəziyyətdən çıxarmaq qabiliyyəti olan ikinci bir şəxs ölkədə yox idi!

Alovlanmış erməni separatizminə qarşı mübarizə aparmaq, ictimai-siyasi sabitliyi bərpa etmək, iqtisadi islahatlar aparmaq, bazar iqtisadiyyatı yolu ilə inkişaf etmək, qaçqın və məcburi köçkünlərə qayğı göstərmək, ölkədə yaranmış çoxsaylı silahlı dəstələri ləğv etmək, beynəlxalq aləmdə ölkəni tanıtmaq və onun dünyada layiqli yerini müəyyənləşdirmək, ölkəyə inam yaratmaq - bütün bunlar Ulu Öndərin qarşısında duran çətin vəzifələr idi. Ulu Öndər bu vəziyyətdən çıxış yolunu çox tez müəyyənləşdirdi - enerji resurslarının, xüsusən neft və qazın xarici bazara çıxarılması problemini uğurla həll etdi. Bu məqsədlə beynəlxalq aləmdə ona olan inamdan istifadə edərək 1994-cü ildə "Əsrin kontraktı"nın imzalanmasına nail oldu.

Əgər Ulu Öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı dövlətçiliyin xilası idisə, "Əsrin kontraktı"nın imzalanmasına nail olmaq iqtisadiyyatın xilası və bugünkü nailiyyətlərimizin əsası, bünövrəsi idi.

Heydər Əliyev erməni silahlı qüvvələri tərəfindən havadarlarının köməyi ilə işğal olunmuş 20 faizə qədər torpaqlarımızın, Dağlıq Qarabağ və ətraf 7 rayonun azad edilməsi üçün genişmiqyaslı siyasi, iqtisadi, hərbi və struktur islahatlarına başladı. Onda torpaqların işğaldan azad olunması inamı qəti idi və bütün tədbirlərdə onu dilə gətirirdi. Necə ki cənab Prezident İlham Əliyev 17 ildə hər gün bütün milli və beynəlxalq tədbirlərdə deyirdi: "Torpaqlar istənilən yolla işğaldan azad olunacaq, torpaqlarımızda ikinci erməni dövlətinin yaranmasına heç zaman imkan verməyəcəyik".

Ölkəni idarə edən şəxsdə qətiyyət, dediklərinə əməl etmək, ölçülüb-biçilmiş addımlar atmaq və özünəinam ən vacib şərtdir. Bu faktorlar necə ki Ulu Öndər Heydər Əliyevdə var idi, o cür də, hətta daha güclü cənab Prezident İlham Əliyevə məxsusdur.

Ulu Öndər Heydər Əliyevin 2003-cü il prezident seçkiləri ərəfəsində - 1 oktyabr 2003-cü ildə xalqa müraciətindən sitat: "Üzümü sizə, həmvətənlərimə tutaraq... prezident seçkilərində İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini, iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyətdir. Sizi əmin edirəm ki, ...və inanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri (Qarabağ problemini nəzərdə tutur - Ə.H.), planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev axıra çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu, müraciətin son cümləsidir. Fikir verin, hətta sağlamlığının çətin anında da səhv etməyib. Müraciətdə göstərilən bütün problemləri Prezident İlham Əliyev 17 illik prezidentlik fəaliyyəti dövründə hamısını həll edib, Ulu Öndərin işarə etdiyi Qarabağ problemini də. 17 illik hazırlıqdan sonra, dəfələrlə ölçülüb-biçilmiş, inamla və qətiyyətlə atılmış addımların 27 sentyabr - 10 noyabr 2020-ci il tarixdə - 44 günlük müharibədə nəticəsini gördük və bugünkü nəsil bunların canlı şahidi oldu.

Ulu Öndər çıxışlarında dediklərini həm bugünkü günə, həm də uzaq gələcəyə aid edirdi. Belə ki, Goranboy rayonu, Aşağı Ağcakənddə Xocalı rayonundan olan məcburi köçkünlər və Göyçə mahalından olan qaçqınlar üçün tikilmiş qəsəbənin açılış mərasimində demişdi: "Qarabağ məsələsi bizim əsas problemimizdir, ağrılı problemimizdir, ürək ağrımızdır. Ancaq biz bunlara dözürük. Eyni zamanda biz torpaqlarımızı azad etməyə həmişə hazırıq. Amma sülh imkanlarından sona qədər istifadə edəcəyik və əgər bu imkanlar nəticəsində istədiyimizə nail ola bilməsək, biz bütün vasitələrdən istifadə edib, torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm".

Cənab Prezident İlham Əliyev də həmişə çıxışlarında Qarabağ torpaqlarının işğaldan mütləq azad olunacağı ilə bərabər, Zərgəzur və Göyçə mahalı barədə də dəfələrlə fikir səsləndirib.

Əgər səsləndiribsə, demək, xalqımız bunu da görəcək. Çünki o, heç vaxt təsadüfi fikir söyləmir və dediklərinə də həmişə əməl edib və edəcək.

Ulu Öndər dünyanın gedişatına yaxşı bələd idi, dünyanı, onun liderlərini də yaxşı tanıyırdı. Eləcə də dünya liderləri də Heydər Əliyevi yaxşı tanıyırdılar.

Ulu Öndər gənc və perspektivli kadr kimi ötən əsrin 50-ci illərində formalaşmışdı. 60-cı illərdə işlədiyi sahənin imkanlarından istifadə edərək SSRİ rejiminin müsbət və neqativ tərəfləri ilə yaxından tanış olmuşdu, həmçinin respublikamızdakı vəziyyətlə də. Əhalinin aşağı yaşayış tərzi, sənaye, kənd təsərrüfatındakı qüsurlar, təhsil, səhiyyədəki vəziyyət, iqtisadi, siyasi problemlər, ölkədəki korrupsiya, yeni respublikadakı vəziyyətlə artıq tanış idi. Ona görə 1969-cu ildə ölkəyə rəhbərlik etməyə başlayanda ölkəmizin, millətimizin SSRİ respublikaları və xalqları tərəfindən tanınması üçün kompleks tədbirlər görməyə başladı. Ciddi iqtisadi və siyasi islahatlar apardı. Nəticədə respublikamız onun ölkəyə 14 illik rəhbərliyi dövründə SSRİ məkanında geridə qalmış bir ölkədən öndə gedən bir ölkəyə çevrildi, iqtisadi göstəricilərinə görə 12 il dalbadal Keçici Qırmızı Bayrağa layiq görüldü. Onun rəhbərliyi ilə milli kadrlar formalaşmağa başladı, bütün sahələrdə ciddi iqtisadi, siyasi irəliləyişə nail olundu.

Dağlıq Qarabağda, bütövlükdə ölkədə yaşayan separatçı ermənilər tam susduruldu. Ermənistan Respublikası tarixdə ilk dəfə olaraq ölkəmizlə hesablaşmağa başladı.

1982-ci ildə Ulu Öndər SSRİ-nin ən yüksək vəzifələrindən birinə - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Heydər Əliyev bu təyinatdan sonra SSRİ məkanında ona həvalə olunmuş sahələrdə ciddi islahatlara başladı.

SSRİ nazirləri təlaş içində idilər, çünki Ulu Öndər vərdiş etmişdi hər gün uzadılmış iş rejimində işləməyə, yəni gecə saatlarına - axşam saat 11, 12-yə qədər, həmçinin çox vaxtlar bazar günləri də işləyirdi. Moskvadakı SSRİ nazirləri isə şənbə, bazar günləri işləmirdilər, hətta həftənin 5-ci günləri onları iş yerlərində tapmaq mümkün olmurdu. Çünki günorta saat 14.00-dan sonra hamısı gedirdi Moskva ətrafındakı bağlara istirahətə.

Bax, beləcə SSRİ nazirlərinin "qara" günləri başladı. Bəziləri hətta vəzifələri ilə vidalaşmalı oldular. Bu proses eynilə Ulu Öndərin 70-ci illərdə ölkəmizdə rəhbərliyi dövründə də baş vermişdi. Narazı olan SSRİ nazirləri imkanları çərçivəsində başladılar Ulu Öndərin əleyhinə iş aparmağa. Bu prosesə dərhal Moskvadakı nazirliklərdə yüksək vəzifələrdə işləyən ermənilər, Ermənistandakılar, ümumiyyətlə, bütün dünya erməniləri və ölkəmizdə olan antimilli azərbaycanlılar da qoşuldular.

O vaxt SSRİ-yə rəhbərlik edən Mixail Qorbaçov da yaxın ətrafında vəzifələrdə olan ermənilərin təsiri altında aktiv olaraq Heydər Əliyevə qarşı tədbirlər görməyə başladı. Belə ki, 1986-cı ildə M.Qorbaçovun Fransaya rəsmi səfəri zamanı onu müşayiət edən köməkçisi Şahnazarov və akademik Aqanbekyan Fransada yaşayan erməni diasporunun üzvləri ilə onun görüşünü təşkil etdilər. Görüşdə iştirak edən, əslən erməni olan Fransa vətəndaşı, müğənni Ş.Aznaur M.Qorbaçova belə bir sual verdi: "Siz nə vaxt Dağlıq Qarabağ problemini həll edəcəksiniz?" M.Qorbaçov isə ona belə cavab verdi: "Moskvaya qayıdan kimi dərhal bu problemlə məşğul olacam". O, Moskvaya qayıdan kimi Dağlıq Qarabağ problemini həll etmək əvəzinə başladı Ulu Öndərə qarşı tədbirlər görməyə. Çünki yaxşı bilirdi ki, Heydər Əliyev yüksək vəzifədə ola-ola, həm də SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü ola-ola o, Dağlıq Qarabağ problemini ermənilərin sifarişi və istəklərinə uyğun həll edə bilməyəcək.

Ümumiyyətlə, Heydər Əliyevin SSRİ-nin yüksək vəzifələrindən birində işləməsi M.Qorbaçova onsuz da sərf etmirdi.

Əvvəla, M.Qorbaçov Heydər Əliyevin yanında çox cılız görünürdü, digər tərəfdən M.Qorbaçovun iqtisadi, siyasi, idarəçilik təcrübəsi, bilik, bacarığı Heydər Əliyevdən çox aşağı idi. Belə bir hadisə olmuşdu: M.Qorbaçovun regionlarda yerli əhali ilə görüşlərinin birində bir iştirakçı fəhlə onu maraqlandıran sualı M.Qorbaçova deyil, həmin görüşdə iştirak edən Heydər Əliyevə vermişdi və M.Qorbaçov çox pis vəziyyətə düşmüşdü. Bu məlumatı mənə həmin görüşdə iştirak edən SSRİ kimya sənayesi nazirinin müavini demişdi, çünki mən o vaxt həmin nazirliyin işçisi idim və həmin nazir müavini mənim işlədiyim tikinti sahəsinin kuratoru idi. Hətta Moskvada həmin nazir müavini üçün təşkil etdiyim ziyafətdə o, şəxsən ayaq üstə qalxıb Heydər Əliyevin şərəfinə sağlıq da demişdi. SSRİ nazirliklərində işləyən yüksək vəzifəlilərin əksəriyyəti Heydər Əliyevin şəxsiyyətinə böyük hörmətlə yanaşırdılar. Necə ki rus xalqının əksər hissəsinin ona böyük hörməti, rəğbəti vardı və bu gün də var. Onun ədalətli, prinsipial, işgüzar olmasına, korrupsiyaya qarşı apardığı mübarizəyə və insanlara göstərdiyi qayğıya görə.

Təsadüfi deyildir ki, Boris Yeltsinin prezident seçkisində seçki bülletenlərinin bəzilərində Rusiya seçiciləri B.Yeltsinin adının üstündən xətt çəkərək, onun yerinə Heydər Əliyevin adını yazmışdılar.

M.Qorbaçovun Heydər Əliyevi tutduğu vəzifədən istefa verməyə vadar etməsinin çox səbəbləri olub, o cümlədən çirkin səviyyədə qısqanclıq.

Prezident İlham Əliyev haqlı olaraq deyirdi ki, bugünkü gənclər hər şeyi, o cümlədən keçmişi də yaxşı bilməlidirlər.

Prezident İlham Əliyevi dünyanın digər dövlət başçılarından fərqləndirən məsələlərdən biri və ən əsası odur ki, o, dövlətlərarası münasibətlərdə, danışıqlarda, imzaladığı sənədlərdə, verdiyi vədlərin icrasında tan səmimi və şəffafdır. Cənab Prezident 17 illik prezidentlik fəaliyyəti dövründə həmişə belə olub. Öz xalqından heç nəyi heç vaxt gizlətməyib. 20 aprel 2021-ci il tarixdə Hacıqabul rayonuna səfəri zamanı AzTV-yə verdiyi müsahibədə bunu bir daha göstərdi.

Yaşadığım və işlədiyim dövrdə gördüklərimin, rastlaşdıqlarımın nəticəsi olaraq hesab edirəm ki, mövcud mənəvi dəyərlərin ən yüksək zirvəsində səmimiyyət dayanır, özü də hər bir sahədə, hər mənada. Bu cəhət ölkə Prezidenti cənab İlham Əliyevdə nəinki var, hətta ən yüksək səviyyədədir. Ona görə də o, həmişə qalibdir!

Ona görə o, bu gün dünya ölkələri və beynəlxalq təşkilatların rəhbərləri arasında çox böyük hörmətə malikdir. Onun səmimiliyi və verdiyi sözə əməl etməsi barədə yüzlərlə fakt sadalamaq olar. Elə götürək 44 günlük Vətən müharibəsini. 17 il deyirdi ki, ermənilərin işğal altında saxladıqları torpaqları sülh yolu ilə azad etmək mümkün olmasa, istənilən yolla azad edəcəyik. Deyirdi ki, əgər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini öz üzərinə götürən, beynəlxalq təşkilat olan ATƏT-in Minsk qrupu bu problemi həll etməsə, özümüz həll edəcəyik və həll etdi, özü də necə həll etdi. Bütün dünya hərb tarixinə və təcrübəsinə nümunə verdi, hansı ki bu gün müasir dünyanın hərbi ekspertləri bu təcrübəni öyrənirlər. Nəinki öyrənirlər, hətta təəccüb edirlər ki, bu, necə baş verib? 44 gündə 30 ildə qurulmuş istehkamlar necə yarılıb keçilib və ya necə dağıdılıb? Şuşanın alınmaz qalası ağır hərbi texnika, silah-sursat istifadə olunmadan necə alınıb?

Bax, verdiyi vədə əməl etmək və analoqu olmayan nümunə göstərmək budur! Hələ indi də hamıya, elə özümüzə də yuxu kimi gəlir ki, bu, necə oldu?

Bunu onun özündən başqa yaxşı bilən yoxdur, necə ki özü deyib, vaxtı, zamanı gəldikcə bu sirləri açıqlayacaq. Azərbaycan xalqı uzun illər, tarix boyu bu qəhrəmanlıqdan yazacaq və danışacaq. 44 günlük müharibə barədə onun özündən başqa yaxşı heç kim nə yaza bilər, nə də danışa bilər. 44 günlük müharibə, onun gedişatı, icrası, idarəçiliyi və icraçıları barədə yazmaq, həm də danışmaq çox böyük məsuliyyət tələb edir. Gərək elə yazıb, elə danışasan ki, onun mahiyyətinə xələl gətirməyəsən. Bunun üçün onun mahiyyətini gərək tam dərk edəsən. Bizim bilmədiyimiz hələ çox məqamlar var.

İndi bir sualın cavabını vermək istəyirəm. Bu qədər qətiyyət, bacarıq, sözünə və verdiyi vədə sadiqlik, uzaqgörənlik, risk etməyi bacarmaq, qabaqcadan hər məqamı proqnozlaşdırmaq, icraçılıq və nəhayət, tam səmimilik cənab Prezident İlham Əliyevdə haradandır?

Bu sualın yeganə bir cavabı var: əlbəttə, Ulu Öndər Heydər Əliyevdən! Bu, ondan genetik keçmədir. Bax, bu məqamı heç vaxt yaddan çıxarmaq olmaz! Ancaq cənab Prezidentin özünün də canında olub və genetika da öz işini görüb.

Cənab Prezident tarixi qələbədən dərhal sonra çox böyük işlərə, layihələrə start verib. Hələ bizim görəcəyimiz və sevindirici çox işlər qabaqdadır. Cənab Prezidentin xarakter və xasiyyətlərində olan çoxsaylı məqamlardan biri də gördüyü və yaxşı nəticə əldə etdiyi işlərlə kifayətlənməməsidir. "Yeni görülən işlər dünya təcrübəsində ən yaxşısı olmalıdır" prinsipi var. Dünya yeniliklər axtarışındadır. İslahatları islahat xatirinə aparmır. Apardığı islahatların hamısı yeni və yüksək nəticələrə, insanların yaşayış tərzinin yaxşılaşmasına, ölkənin təkmil inkişafına hesablanıb. Ona görə də ölkəmiz beynəlxalq təşkilatların ayrı-ayrı göstəricilər üzrə illik hesabatlarında hər il irəliləyişə nail olur və dünya miqyasında layiqli yer tutur. Necə ki Ulu Öndər Heydər Əlyev 1970-ci illərdə ölkəmizə rəhbərlik etdiyi dövrdə ölkəmizi ittifaq məkanında ən geridə qalmış ölkədən ən qabaqcıl ölkəyə yüksəltmişdi, indi də cənab İlham Əliyev Azərbaycanı dünya ölkələri arasında ən qabaqcıl ölkələr səviyyəsinə çatdırıb.

Bütün bu nailiyyətlərin canlı şahidi olaraq hesab edirik ki, xalqımızın xoş gələcəyi, daha yüksək həyat tərzi hələ qabaqdadır. Ölkəmizdə müasir dünyanın tələblərinə uyğun, xüsusən humanitar sahədə, təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində, şəhid ailələri, əlillər, kimsəsizlərə xidmət istiqamətində cənab Prezidentin rəhbərliyi altında həyata keçirilən işlərdə ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın əməyi, zəhməti və rolu danılmaz faktdır.

Əsrlər keçəcək, Ulu Öndər Heydər Əliyev xalqın yaddaşında həmişəlik yaşayacaq. Xalqımız, millətimiz onu tarixi günlərdə yox, hər gün yada salacaq, çünki xalqımızın hər bir xoş gününün səbəbkarı o və onun gördüyü işlərin nəticəsidir.

Prezident İlham Əliyev də tarixə düşdü, 30 illik Qarabağ torpağının həsrətinə 44 gündə son qoydu!

Hətta Ulu Öndərdən də irəli getdi: ölkəmizi müasirləşdirdi, inkişaf etmiş ölkəyə çevirdi.

Beynəlxalq təşkilatların, bəzi hegemon dövlətlərin 30 ildə həll edə bilmədikləri və ya həll etmək istəmədikləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə 44 gündə son qoydu. Nəinki son qoydu, hətta dünya hərb tarixində görünməmiş nümunə nümayiş etdirdi. Bütün bunlar qanunauyğun haldır, çünki xalqımızın belə bir deyimi var: "Ustaddan öyrənən yaxşı şagird nadir hallarda ustaddan güclü olur və daha irəli gedir".

Ölkəmizin və xalqımızın xoş gələcəyi uğrunda Prezident İlham Əliyevə və ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya daha yüksək zirvələr fəth etməkdə uğurlar diləyirəm.

Şuşasız Qarabağ olmaz, Qarabağsız Azərbaycan!

Şuşa Qarabağdır!

Qarabağ Azərbaycandır!

Yaşasın Azərbaycan, onun qüdrətli xalqı, rəhbəri və ordusu!

***Əli HƏSƏNOV,***
***Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü***

1923 **Azərbaycanın özü qədər əbədi** 2021



# Şərəfli tariximizin yaradıcısı

*Əvvəli 1-ci səh.*

O dövrdə SSRİ-də müttəfiq respublikaların heç birində Dövlət Təhlükəsizlik komitələrinin sədrləri yerli xalqların nümayəndələri deyildilər. Yeganə respublika Azərbaycan idi ki, Heydər Əliyevin timsalında yerli xalqın nümayəndəsi DTK-nın sədri vəzifəsinə təyin olunmuşdu. Ulu Öndərin dövlətimiz və xalqımız qarşısında tarixi xidmətləri də məhz həmin dövrdən başlayır. Məhz Heydər Əliyevin sayəsində Dağlıq Qarabağda erməni separatizminin baş qaldırmasına imkan verilməmişdi.

1969-cu ildə Azərbaycana rəhbərliyə başlaması ilə Heydər Əliyev cəmiyyət həyatının bütün sahələrində dəyişikliklərə, yeniliklərə yol açdı. Mən 1968-ci ildə orta məktəbi fərqlənmə ilə bitirmişdim. Amma ali məktəbə qəbulda imtahanların birindən kəsildim. Sonradan məlum oldu ki, əslində ən azı "4" qiymətinə cavab vermişəm. Deməli, qiymətləndirmə düzgün aparılmayıb. 1969-cu ildə Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra cəmiyyətdə mövcud olan belə neqativlərə, nöqsanlara son qoyuldu. Daha dəqiq ifadə etsək, Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə cəmiyyətdə ədalət də zəfər çaldı. Bundan sonra mən də ali məktəbə qəbul olundum.

Həmin illərdə Azərbaycan ittifaq miqyasında inkişafına görə çox geri qalırdı, müttəfiq respublikalar arasında 13-14-cü yerləri tuturdu. Lakin Ulu Öndərin təşəbbüsləri və tələbkarlığı ilə həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyatda vüsətli dəyişikliklər baş verdi. Respublikamızda müasir maşınqayırma, kimya, neft kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül sənaye inkişaf etdi, yeyinti, emal müəssisələri inşa olundu. O cümlədən bir sıra strateji əhəmiyyətli müəssisələr yaradıldı.

Milli kadrların yetişməsi istiqamətində də mühüm uğurlar əldə olundu. Həmin illərdə respublikamızda ali təhsil müəssisələrinin inkişafı sahəsində mühüm qərarların qəbulu ilə yanaşı, Ulu Öndərin təşəbbüsü ilə hər il 2500 nəfər azərbaycanlı gənc oxumaq üçün sovet ittifaqının ən nüfuzlu ali məktəblərinə göndərildilər. Bakıda C.Naxçıvanski adına hərbi məktəbin yaradılması isə azərbaycanlı zabitlərin yetişməsi üçün atılan mühüm addım idi.

Azərbaycan ötən əsrin 70-80-ci illərində Heydər Əliyevə görə tanınmağa başladı. Keçmiş ittifaqın harasına getsəydin, hər kəs Heydər Əliyevin gördüyü işlərdən danışardı. Heydər Əliyev xalqımızın nüfuzunu yüksəltmişdi. Odur ki, bizə yüksək ehtiramla yanaşırdılar. Sov.İKP MK-nın Baş katibi L.Brejnev ittifaq respublikaları arasında yalnız Azərbaycanda dörd dəfə səfərdə olmuşdu. Bu, ilk növbədə Heydər Əliyevə olan yüksək münasibətin göstəricisi idi. O cümlədən Azərbaycan öz inkişafına görə 14 dəfə keçici qırmızı bayraq almışdı.

Belə bir uğurlu fəaliyyətin nəticəsi idi ki, Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Ulu Öndər bu vəzifədə vacib və çətin sahələrə nəzarət etsə də, respublikamıza da diqqət və qayğısını əsirgəmirdi. Nə qədər Heydər Əliyev rəhbərlikdə təmsil olunurdusa, ermənilər Azərbaycana qarşı heç bir ərazi iddiası ilə çıxış edə bilmirdilər. Yalnız Heydər Əliyevin ittifaq rəhbərliyindən istefasından sonra Dağlıq Qarabağda ermənilər Azərbaycana qarşı yenidən ərazi iddiası ilə çıxış etdilər. M.Qorbaçovun müşaviri Aqanbekyan Parisdə mətbuata müsahibəsində separatizmə rəvac verdi.

1988-ci ilin fevralında iki gənc azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. Təəssüf ki, həmin vaxt Azərbaycan rəhbərliyi olduqca qətiyyətsiz və cəsarətsiz mövqe göstərdi. Bu da Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının güclənməsinə gətirib çıxardı, daha sonra 20 Yanvar faciəsi baş verdi. Həmin ağır günlərdə də Heydər Əliyev heç nədən qorxmadan, böyük cəsarətlə haqq səsini ucaltdı. Cənab İlham Əliyevlə birlikdə Moskvada Azərbaycan nümayəndəliyinə gələrək sovet rəhbərliyinə, şəxsən M.Qorbaçova cinayətkar hərəkətlərinə görə etirazını bildirdi.

Heydər Əliyevin əzmkarlığı, vətənpərvərliyi Azərbaycan rəhbərliyinin qısqanclığı ilə müşayiət olundu. Onu təqiblərə məruz qoyur, Azərbaycana qayıdışını əngəlləməyə çalışırdılar. Bütün bunların nəticəsi olaraq Heydər Əliyev 1990-cı ilin yayında Naxçıvana qayıtdı. Naxçıvana qayıdışı ilə Heydər Əliyev bu bölgəni və bütün Azərbaycanı gözləyən real təhlükədən xilas etdi. 1990-cı ildə Azərbaycan Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilən Heydər Əliyev bütün fəaliyyətini Azərbaycanın istiqlal mücadiləsinə və Naxçıvanın müdafiəsinə həsr etdi. O dövrdə Heydər Əliyevin Türkiyə və İranla yaratdığı münasibətlər blokada vəziyyətində yaşayan Naxçıvanın sosial-iqtisadi durumuna müsbət təsir etdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Naxçıvanda üçrəngli bayrağımız dövlət bayrağı kimi təsbit olundu.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi hər bir soydaşımızı sevindirdi. Lakin müstəqilliyimizin bərpasından sonra baş verən hakimiyyət çəkişmələri, hərc-mərclik dərin siyasi-iqtisadi problemlərə yol açdı. Bir tərəfdən torpaqlarımız işğal olunur, digər tərəfdən isə vətəndaş qarşıdurması güclənirdi. Belə bir vaxtda Azərbaycan xalqı Heydər Əliyevi təkidlə siyasi rəhbərliyə dəvət etdi. Elə o dövrün hakimiyyət nümayəndələri də vəziyyətdən çıxış yolunu Heydər Əliyevin siyasi hakimiyyətə gəlişində görürdülər. Xalqının ağır vəziyyətini nəzərə alıb Bakıya gələn Heydər Əliyev öz xilaskarlıq missiyasını layiqincə yerinə yetirdi, ölkədə qardaş qırğınının qarşısını aldı. Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də Ali Sovetin Sədri seçilməsi Ulu Öndərə olan böyük inamın bariz təsdiqi idi. İnsanlar yalnız bundan sonra rahat oldular, çünki inanırdılar ki, Heydər Əliyev ölkəni düşdüyü böhranlı vəziyyətdən mütləq xilas edəcək. Belə də oldu. Heydər Əliyevin Prezident seçilməsindən sonra Azərbaycan sabitliyə, inkişafa doğru istiqamət götürdü. Ümummilli Lider qısa vaxt içərisində ölkədə sabitliyi və əmin-amanlığı bərpa etdi, Azərbaycanın tarixində yeni dövrün - faktiki müstəqilliyin, demokratiya və inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Bir məqamı da qeyd etmək yerinə düşərdi. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəyə rəhbərliyə başlayanda Azərbaycanın dövlət büdcəsi tamamilə boş idi. Xəzinədarlıqda qalan cəmi 6 milyon dollar vəsait isə taxıl almaq üçün Taxıl Məhsulları Dövlət Şirkətinə köçürülmüşdü. Amma nə taxıl gəlirdi, nə də pul geri qayıdırdı. AXC-Müsavat iqtidarı dövlət büdcəsini belə talayırdı.

Bütün bu çətinliklərə baxmayaraq Heydər Əliyev Azərbaycanın inkişafı üçün tarixi uğurlara nail oldu, "Əsrin müqaviləsi" imzalandı, mütərəqqi torpaq islahatları həyata keçirildi. Uğurlu dövlət quruculuğu həyata keçirildi, Azərbaycanın demokratik inkişafı təmin olundu.

1993-cü ildən başlanan Heydər Əliyev siyasəti bu gün də Azərbaycana möhtəşəm uğurlar gətirməkdə davam edir. Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ötən 18 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə gedilən inkişaf yolu 30 illik müstəqillik tariximizin böyük uğurlarından biridir. Ötən 18 ildə iqtisadiyyatımız 3 dəfə artıb, vətəndaşların sosial rifahı yüksəlib. Bu illərdə inşası başa çatdırılan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" Azərbaycanın dünyada nüfuzunu artıran möhtəşəm infrastruktur qurğuları olaraq ölkəmizin inkişafına, xalqın sosial rifahının daha da yüksəldilməsinə xidmət edir.

1993-cü ildə xalqımız Heydər Əliyevə necə inanırdısa, bu gün də İlham Əliyevə o cür böyük etimad göstərir və hər bir məsələdə onun ətrafında sıx birləşir. Çünki Przident İlham Əliyevin də yürütdüyü siyasət qətiyyətlidir, cəsarətlidir. Biz bunu ötən ilin Vətən müharibəsində də gördük. Prezident İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu, yürütdüyü qətiyyətli siyasət torpaqlarımızın işğaldan azad edilməsini təmin etdi. Ən böyük arzumuz o idi ki, bu taleyüklü problemin həllini gələcək nəsillərə ötürməyək. Çox şükürlər olsun ki, bunun həllini gördük və torpaqlarımızın azad edilməsinə görə Prezident İlham Əliyevə sonsuz minnətdarıq.

*İndi Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Çünki bu Qələbə ilə Prezident, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin vəsiyyətini, xalqımızın arzusunu yerinə yetirdi. Möhtərəm İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da böyük uğurlara imza atacaq və Heydər Əliyev ideyaları dövlətimizin gündən-günə yüksəlişinə xidmət edəcək.*

**Eldar QULİYEV,**
**Azərbaycan Ağsaqqallar Şurasının sədri,**
**Milli Məclisin deputatı**

# Azərbaycanın inkişaf strategiyasının müəllifi

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunmasında və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülmüşdür. Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı tarixi fəaliyyətini, misilsiz xidmətlərini anlamaq üçün onun siyasi fəaliyyətinin müxtəlif dövrlərinə nəzər salmaq məqsədəmüvafiqdir.

Keçmiş SSRİ-nin tərkibində olan Azərbaycan 1969-cu ilədək ciddi tənəzzül meyilləri ilə qarşı-qarşıya idi. Bu tənəzzülün əsasında ayrı-ayrı sahələrdə idarəetmənin düzgün təşkil edilməməsi, o cümlədən mövcud potensialdan səmərəli istifadə edilməməsi kimi səbəblər dururdu. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən strateji amil oldu. Məhz 14 iyul 1969-cu il tarixdən, Ulu Öndərin ilk dəfə siyasi hakimiyyətə gəldiyi gündən Azərbaycan dövlətinin həqiqi inkişafı başlandı. Qısa müddətdə Azərbaycan ittifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı, maşınqayırma, metallurgiya və digər sahələrdə də əhəmiyyətli irəliləyişlər qeydə alındı. Həyata keçirilən institusional islahatlar sayəsində kənd təsərrüfatı, təhsil və səhiyyə sektorlarında, eləcə də neft sənayesində inkişaf tempi əldə edildi. Həmçinin milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində respublikaya rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatlar və məqsədyönlü işlər sayəsində Azərbaycan sürətlə inkişafa nail oldu.

1978-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ittifaq respublikaları arasında ilk olaraq məhz Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bundan başqa, "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Siyasi-ideoloji müstəvidə görülən bütün işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyətə malik addımlar oldu.

1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması isə peşəkar milli hərbçilərimizin yetişməsində mühüm amil oldu. Heydər Əliyevin bu uzaqgörən qərarı gələcəyə hesablanmışdı və müstəqil Azərbaycanın ordu quruçulugunda həmin lisey mühüm ciddi faktor oldu. Yeri gəlmişkən, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu həmin liseyin yetirmələridir.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Ümummilli Lider Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və SSRİ-nin rəhbərlərindən biri oldu. Ümummilli Liderimiz bu dövrdə də Azərbaycan xalqının mənafeyindən irəli gələn əhəmiyyətli addımlar atdı, respublikamız üçün misilsiz xidmətlər göstərdi. Ulu Öndər Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verdi.

Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəmizə rəhbərlik etdiyi dönəm respublikamızın tərəqqi dövrü kimi yadda qaldı, inkişaf göstəriciləri ilə tarixə daxil oldu. Bu dönəmdə həm sosial-iqtisadi tərəqqinin, həm də milli həmrəyliyin təmin olunmasına xidmət edən məqsədyönlü işlər görüldü, Azərbaycan SSRİ miqyasında sürətlə inkişaf edən respublikaya çevrildi.

Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edərkən onun fəaliyyətinin Naxçıvan dövrünə də nəzər salmaq lazımdır. Çünki həmin dövrün prosesləri və reallıqları Azərbaycanın siyasi tarixinin mühüm səhifələrindən birini təşkil edir. Bəllidir ki, 1990-cı ildə Azərbaycan mürəkkəb situasiya qarşısında olduğu zaman muxtar respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun acınacaqlı hal alması, mərkəzi hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. 1991-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin sədri seçilməsindən sonra muxtar respublikada sabitlik təmin edildi, sosial və iqtisadi durum yaxşılaşdırıldı. Muxtar respublikanın ərazisinin düşmənin işğalı altına düşməsinin qarşısı alındı. Bundan başqa, milli dövlətçilik ənənələrinin bərpası istiqamətində ardıcıl və məqsədyönlü işlər görüldü. Muxtar respublikada dövlət rəmzləri bərpa edildi, millləşdirmə siyasəti davam etdirildi. 17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "sovet" və "sosialist" sözləri çıxarıldı, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və sovet ordusu Naxçıvan MR ərazisindən çıxarıldı. "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi barədə qərarlar qəbul edildi. Ulu Öndər Naxçıvanda çalışarkən o zaman hakimiyyətdə olan AXC-Müsavat cütlüyü Heydər Əliyevi devirməyə cəhd etsə də, insanların ona olan sevgi və inamı belə cəhdlərin qarşısını qətiyyətlə aldı.

1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Yeni Azərbaycan Partiyasının yaradılması və milli inkişafa xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verməsi Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindəndir. Yeni Azərbaycan Partiyası təşkilatlanaraq öz fəaliyyətini davam etdirdi və qısa zaman kəsiyində xalqın etimadını qazanmaga nail oldu. 1993-cü ildə xalqın dəstəyi ilə Ulu Öndər hakimiyyətə gəldi. YAP hakim partiyaya cevrildi.

Bu proseslər kontekstində daha bir məqama nəzər salmaq vacibdir. Belə ki, 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin aradan qaldırılmasına nail olundu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Beləliklə, Ümummilli Lider Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı. Ulu Öndər illər sonra o günləri belə xatırlayırdı: " Eşidəndə ki mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm".

Onu da qeyd etmək lazmdır ki, Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Ən əsası, uğurlu dövlət quruculuğu prosesinin əsası qoyuldu. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusi əhəmiyyətə malikdir.

Dövlət quruculuğu prosesi fonunda müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları təmin edildi. Bununla yanaşı, məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar da xüsusi vurğulanmalıdır. Digər tərəfdən, ölkəmizdə milli həmrəyliyi yarada biləcək ideologiya yalnız 1993-cü ildən sonra müəyyənləşdirildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən mühüm faktor oldu. Bir sözlə, Ulu Öndər Heydər Əliyev Azərbaycanı sözün əsl mənasında müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Praqmatik xarici siyasət nəticəsində Azərbaycan nüfuzlu dövlətə çevrildi, ölkəmizin dostlarının və tərəfdaşlarının sayı artdı.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini, ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin formalaşmasını da təmin etdi. Ulu Öndərin həyata keçirdiyi praqmatik xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın etibarlı strateji tərəfdaşa çevrilməsi təşkil edirdi. İlk növbədə 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin və dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində imzalanmış "Əsrin müqaviləsi"ndən başlanan enerji siyasəti Azərbaycanın regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatına müstəsna töhfələr bəxş etməsini şərtləndirməklə yanaşı, ölkəmizin gücünü və nüfuzunu artıran faktor kimi çıxış etdi. Bundan sonra milli maraqlarımıza müvafiq enerji layihələri gerçəkləşdirildi və bütün bunlar Azərbaycanın etibarlı strateji tərəfdaş kimi ikitərəfli və çoxtərəfli xarici əlaqələrinin səmərəlilik səviyyəsini artırdı. Ölkəmiz miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli strateji layihələrin mərkəzi oyunçusuna çevrildi. Eyni zamanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu xarici siyasət sayəsində Azərbaycan qısa zaman kəsiyində regionun güclü və nüfuzlu aktoruna çevrildi, qlobal miqyasda milli dövlətlərin etibarlı strateji tərəfdaşı kimi qəbul edildi. Bütün bu nailiyyətlər torpaqlarımızın beşdəbirinin işğal altında və bir milyondan çox vətəndaşımızın qaçqın və məcburi köçkün olduğu bir şəraitdə qazanıldı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional xarici siyasət strategiyasının mühüm prioritetlərindən birini də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edirdi. Məhz Ümummilli Lider Heydər Əliyevin əhəmiyyətli səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı. Münaqişənin ATƏT çərçivəsində həll edilməsi üçün təşkil edilən Minsk qrupunda, həmçinin qurumun bir sıra zirvə toplantılarında məsələnin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdıran Ulu Öndər Heydər Əliyev dünya dövlətlərini münaqişəyə yanaşmada diqqətli olmağa və məsələnin tezliklə beynəlxalq hüquq normalarına müvafiq surətdə həll edilməsi işində yaxından iştiraka dəvət etdi. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik, çoxvektorlu və rasional xarici siyasət kursu ölkəmizin dostlarının və tərəfdaşlarının sayını artırdı, Azərbaycan nüfuzlu dövlətə çevrildi. Milli mənafelərin təmininə hesablanmış bu məqsədyönlü siyasət coğrafi ölçüləri baxımından kiçik Azərbaycanın dünyanın siyasi xəritəsində güclü dövlətlərlə müqayisəsinə şərait yaratdı.

Əminliklə söyləmək olar ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və dinamik inkişafa nail olub. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Dövlət başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunur. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyinə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib.

Hazırda Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır. Təbii ki, bu inkişafın və sabitliyin əsasında uğurla reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların davamlı olaraq həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin təmini və davamlı olması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Digər tərəfdən, çoxşaxəli, tarazlaşdırılmış, milli maraqlara əsaslanan xarici siyasət kursuna malik olan Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara müvafiq surətdə reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb.

Ən mühüm məqam isə budur ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin 17 il ərzində bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar onun rəhbərliyi ilə müzəffər ordumuzun yaratdıgı və yazdıgı Qələbə salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən müzəffər Sərkərdə oldu. Bu həm də cənab Prezidentin ATA vəsiyyətini yerinə yetirməsi demək idi. Artıq Ulu Öndərin ruhu şaddır ki, Vətən torpaqlarımız erməni işğalından azad olunub.

Eyni zamanda xüsusi vurğulamaq lazımdır ki, ölkəmizdə milli həmrəylik, vətəndaş birliyi möhkəm əsaslarla təmin olunub. Həmçinin Azərbaycanda siyasi münasibətlərin inkişafı, iqtidar-müxalifət dialoqunun sağlam əsaslarla davam etməsi də möhtəşəm Zəfərin qazanılmasında mühüm amil oldu. Belə ki, Vətən müharibəsində bütün vətəndaşlarımız və siyasi partiyalar Ali Baş Komandanımızın və ordumuzun ətrafında sıx birləşmişdi. Hazırda da bu birlik mövcuddur və gələcək inkişafımızda müstəsna rol oynayacaqdır. Bu fakt da cəmiyyətimizin ən böyük uğurlarından biridir.

*Hazırda ölkəmizin qarşısında mühüm vəzifələr durur. Qarşıda dayanan əsas vəzifə isə işğaldan azad edilmiş ərazilərin bərpası və insanların öz doğma yurdlarına qayıtmasıdır. Şübhə yoxdur ki, Azərbaycan dövləti möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu mərhələni də uğurla həyata keçirəcək və müstəqil ölkəmiz Heydər Əliyev ideyaları əsasında daha da inkişaf edərək yeni-yeni zəfərlər qazanacaq.*

**Sevinc HÜSEYNOVA,**
**Milli Məclisin deputatı,**
**Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının sədri**

1923 *Azərbaycanın özü qədər əbədi* 2021



# Müstəqil dövlətçiliyin banisi

Heydər Əliyevin adı Azərbaycan tarixinə görkəmli dövlət xadimi, xilaskar, müdrik siyasətçi və qüdrətli sərkərdə kimi həkk olunub. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan xalqı həm sovet, həm də müstəqillik dövründə müasir tarixinin böyük nailiyyətlərinə imza atıb.

Anadan olmasının 98-ci ildönümü ərəfəsində xalqımız Ulu Öndəri ehtiramla yad edir. Milli Məclisin deputatları da Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətləri ilə bağlı fikirlərini qəzetimizlə bölüşdülər.

## Heydər Əliyevin humanizm ideyaları fəaliyyətimizin prioritetidir

**Novruzəli ASLANOV,**
*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti,*
*Milli Məclisin deputatı:*

- Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın əbədiyaşar lideri Heydər Əliyevin 34 illik siyasi fəaliyyətinin təməlində xalqımızın yüksək mənəvi keyfiyyətləri dayanmışdır. İnsanlara xeyirxahlıq etməyi, yaxşılıq göstərməyi, ədalət və mərhəmət kimi dəyərlərə önəm verməsi ilə fərqlənən Ulu Öndər real həyatda bunu təcəssüm etdirən addımlar atmışdır. Anadan olmasının 98-ci ildönümü ərəfəsində hər birimiz bir daha Heydər Əliyevin əziz xatirəsinin qarşısında baş əyirik.

98-ci ildönümündə hər birimiz Heydər Əliyev barədə danışmağa, söz deməyə ehtiyac duyuruq. Fikirlərimə Ulu Öndərin siyasi fəaliyyətində və dövlət quruculuğu təlimində əsas götürdüyü mənəvi keyfiyyətlər, humanizm prinsipləri barədə söz açmaqla başlamağım təsadüfi deyil. Çünki rəhbərlik etdiyim Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) hər bir üzvü, sayı on minlərlə ölçülən könüllüləri öz missiyalarını yerinə yetirərkən ilk növbədə məhz xeyirxahlıq, insanpərvərlik və vətənpərvərlik kimi yüksək mənəvi keyfiyyətlərə söykənirlər. Biz öz işimizdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin layiqincə davam etdirdiyi, Birinci vitse-prezident Mehriban Əliyevanın ən gözəl nümunələrlə zənginləşdirdiyi humanizm prinsiplərini rəhbər tuturuq.

Bəli, Ulu Öndərin əbədiyaşar xatirəsinin, həmişəyaşar ideyalarının işığında humanizm prinsiplərinin cəmiyyətimizə gətirdiyi faydalar daha aydın və əhəmiyyətli görünür. AzQAC-ın ictimai təşkilat kimi inkişafında və öz fəaliyyətini uğurla həyata keçirə bilməsində Heydər Əliyevin cəmiyyətimizdə xeyirxahlıq və humanizm ənənələrini daha da möhkəmləndirməsi böyük rol oynamışdır.

Müstəqilliyimizin bərpasının ilk illərində AzQAC öz fəaliyyətini həyata keçirsə də, lazımi hüquqi bazanın olmaması, ölkədəki gərgin vəziyyət təşkilatın mövcud humanitar problemlərin həllində iştirakında çətinliklər yaradırdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra AzQAC inkişaf dövrünə qədəm qoydu və qurumun fəaliyyətində yeni mərhələ başlandı. Təsadüfi deyil ki, Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından qısa müddət sonra, 1994-cü ildə AzQAC milli qurum kimi dövlət tərəfindən tanındı. Sonrakı illərdə də Heydər Əliyev təşkilatımızın fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi üçün diqqət və qayğısını əsirgəmədi. Heydər Əliyevin 12 mart 2003-cü il tarixdə AzQAC-ın XX qurultayına təbrik məktubu isə Ulu Öndərin bu qurumun fəaliyyətinə verdiyi yüksək tarixi qiymət idi. "Qızıl Aypara Cəmiyyəti bu gün öz qüvvələrini səfərbər edərək, müstəqil Azərbaycan Respublikası qarşısında duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Ermənistanın respublikamıza qarşı yeritdiyi işğalçılıq siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllində, əsir və girovların azad edilməsi və reabilitasiyasında Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir", - deyə Ulu Öndər bildirmişdi.

2003-cı ildən Heydər Əliyev siyasi yolunu layiqincə və inamla davam etdirən Prezident İlham Əliyev də həmişə AzQAC-ın fəaliyyətini yüksək qiymətləndirmişdir. Dövlət başçısının diqqət və qayğısının nəticəsi olaraq təşkilatımız bir çox ölkələrdəki analoji qurumlarla müqayisədə inkişaf etmiş, yüksək səviyyədə təchiz olunmuşdur. Xüsusilə qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin respublikamıza ilk dəfə rəhbərliyə başlayandan qısa müddət sonra imzaladığı sərəncamlardan biri AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı idi. 2004-cü ilin yanvar ayında imzalanan sərəncamla yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarına tövsiyə edilirdi ki, AzQAC-a yerli təşkilatlarının sosial, tibbi-sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə kömək etsinlər.

2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qanunun qəbulu da Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü nəticəsində reallaşdı. Bu qanun təşkilatın statusunun, hüquqlarının və fəaliyyət istiqamətlərinin, dövlət və yerli özünüidarə orqanları ilə qarşılıqlı münasibətlərinin hüquqi əsaslarının müəyyən edilməsi baxımından mühüm addım oldu. Prezident İlham Əliyevin 2008-ci il aprelin 7-də imzaladığı sərəncamla isə hər il martın 10-u Azərbaycanda Qızıl Aypara Günü kimi qeyd olunur. Cəmiyyətin yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, üzvlərimizin orden və medallarla təltifi fəaliyyətimizə verilən ali dəyər olmaqla bizləri humanizm və xeyriyyəçilik kimi missiyamızı daha inamla həyata keçirməyə yüksək stimul verir.

Ulu Öndər Heydər Əliyevin anadan olduğu tarix - may ayının 10-u Azərbaycanda həm də başqa bir əlamətdar hadisənin - məramında xeyriyyəçilik və humanizm dəyərləri dayanan Heydər Əliyev Fondunun yarandığı gündür. Heydər Əliyev Fondunun yaranması və bu quruma birinci xanım Mehriban Əliyevanın uğurlu rəhbərliyi Azərbaycanda xeyriyyəçilik institutunun daha da inkişafına böyük təkan vermişdir. Heydər Əliyev Fondunun xətti və Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların, o cümlədən uşaqların, yaşlı vətəndaşların dəstəklənməsinə yönəlmiş çoxsaylı proqramların, müxtəlif sosial layihələrin təməlində də məhz xeyirxahlıq və humanizm kimi yüksək mənəvi dəyərlər dayanır. Bütövlükdə, Mehriban Əliyevanın, o cümlədən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsləri ilə həyata keçirilən proqramlar və layihələr ən gözəl xeyriyyəçilik və humanizm nümunələridir.

Onu da qeyd edim ki, mayın 8-i dünyada Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü kimi qeyd olunur. Biz Şuşa şəhərinin həmin tarixdə işğal edilməsi səbəbindən indiyədək Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Gününü qeyd edə bilmirdik. Qarabağın döyünən ürəyi, tacı, qədim Azərbaycan yurdu Şuşanın işğal altında olması hər birimizin sağalmaz mənəvi yarası idi. Amma indi vəziyyət dəyişib, ötən ilin 44 günlük Vətən müharibəsində tarixi Qələbəyə imza atan Azərbaycan Ordusu Şuşanı da işğaldan azad edib. Şuşanı azad etməklə Prezident, Ali Baş Komandan İlham Əliyev mənəvi yaramızı sağaltdı, qürurumuzu özümüzə qaytardı, millətimizi başıuca etdi.

Beləliklə, biz son 30 ildə və həm də müstəqilliyimiz dövründə ilk dəfədir ki, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Gününü ürək dolusu ilə qarşılayırıq. Bu, sıralarında 350 minə qədər üzvü, 30 minədək könüllünü birləşdirən AzQAC-ın fəaliyyətinə böyük stimul verir.

AzQAC bundan sonra da Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu humanizm ideyalarından ilham alacaq və ən yüksək milli-mənəvi dəyərlərimizə söykənərək Azərbaycan dövlətinə və xalqına layiqincə xidmət edəcək.

## Heydər Əliyev ideyaları Azərbaycanın inkişaf yoluna həmişə işıq salacaq

**Könül NURULLAYEVA,**
*Milli Məclisin deputatı:*

- Tarixdə liderlərə həmişə ehtiyac duyulub. Çox tarixi dərinliklərə getmədən deyə bilərik ki, ötən əsrin sonlarına yaxın Azərbaycanın daxil olduğu coğrafiyada baş verən siyasi dəyişikliklər, yeni dövlətlərin yaranması tarixdə liderlərin rolunu bir daha qabarıq şəkildə göstərdi. Respublikamız da bu proseslərdə kənar deyildi. Əgər müstəqilliyimizin bərpasının ilk illərində dövlətimiz məhz səriştəsiz rəhbərlərin yartımaz idarəçiliyi ucbatından dərin problemlərlə üzləşmişdisə, 1993-cü ilin ortalarından müsbətə doğru baş verən dəyişikliklər Ulu Öndər Heydər Əliyevin timsalında hakimiyyət sükanı arxasında əsl siyasi liderin olmasından xəbər verirdi.

Bəli, bütün varlığı ilə vətəninə və xalqına bağlı olan Heydər Əliyev əsl lider, görkəmli dövlət xadimi, müdrik və uzaqgörən siyasətçi idi. Məhz bu kimi yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olmasının nəticəsi idi ki, Heydər Əliyev respublikamıza rəhbərliyinin bütün dövrlərində Azərbaycanı yenidən qurub, dirçəldib, inkişaf etdirib, dünyada tanıtdırıb. Azərbaycanın müasir tarixinə nəzər salarkən aydın görünür ki, ölkəmizin və xalqımızın ən çətin anlarında Heydər Əliyev üzərinə düşən böyük missiyanı uğurla yerinə yetirib, hər zaman ona bəslənilən ümidləri layiqincə doğruldub.

Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızı keçmiş ittifaqın inkişaf etmiş respublikaları sırasına çıxaran, şöhrətini yüksəldən Heydər Əliyev 1993-cü ildə siyasi rəhbərliyə yenidən gəlişi ilə müstəqilliyimizi qorudu, onu başının üstünü almış təhlükələrdən xilas etdi, dövlətimizi yenidən qurdu. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi tariximizə yüksəliş dövrü kimi yazıldı. Bu dövrdə ictimai-siyasi sabitlik təmin olundu, iqtisadi inkişafa geniş meydan açıldı, ölkəyə xarici sərmayələr cəlb edildi, dövlət idarəçiliyi mexanizmi yenidən yaradıldı, nizami ordu quruldu, geniş miqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirildi. Həmçinin dövlətimiz dünya birliyində layiqli yerini tutdu, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək böyük beynəlxalq nüfuz qazandı. Ona görə bu gün hər birimiz çox düzgün olaraq müasir Azərbaycan dövlətini Heydər Əliyevin "şah əsəri" adlandırırıq.

Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsində bir daha Ulu Öndəri anmaqla, məzarını ziyarət etməklə, müxtəli tədbirlər keçirməklə əziz xatirəsinə öz ehtiramımızı bildiririk. Aradan ötən illər bizə Heydər Əliyev fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə daha dərindən dərk etmək imkanı verir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanı daha güclü etmək, xalqımızın daha gözəl günlərini görmək istəyirdi. 2003-cü il oktyabr ayının 1-də Heydər Əliyev xalqımıza müraciətində böyük uzaqgörənliklə demişdir: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Hazırda respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin ən güclü və şərəfli dövrünü yaşayır. Azərbaycanın əldə etdiyi bütün nailiyyətlər, keçdiyi inkişaf yolu Ulu Öndərin nə qədər haqlı olduğunu göstərir. İlham Əliyev Azərbaycanı gücləndirərək elə bir səviyyəyə çatdırdı ki, ordumuz Ermənistanın işğal siyasətinə son qoydu, torpaqlarımızı azad etdi. Bununla həm də Ulu Öndərin arzularını həyata keçirdi, vəsiyyətini yerinə yetirdi. Ona görə Ulu Öndərin ruhu rahatdır...

Azərbaycanın qürur doğuran nailiyyətlərinin, xalqımızın bütün uğurlarının kökündə Heydər Əliyev yolunun və irsinin davam etdirilməsi dayanır. Ona görə də Ulu Öndər öz ideyaları ilə hər zaman yaşayacaq, yüksək ehtiramla anılacaq. Heydər Əliyevin misilsiz fəaliyyəti, bizlərə və gələcək nəsillərə ərmağan etdiyi zəngin irsi qiymətli bir xəzinə kimi uğurlu gələcəyə gedən yollarımızda əbədi məşəl kimi daim şölələnəcək. İllər keçdikcə nəsillər birbirini əvəz edəcək, gələcək nəsillər tariximizin bu şanlı səhifələrini vərəqlədikcə onun müəllifini həmişə xatırlayacaq və minnətdarlıqla yad edəcəklər.

## Müasir Azərbaycanın qurucusu

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Böyük şəxsiyyətlərin, müdrik rəhbərlərin dövlətlərin taleyindəki rolu barədə tarixdən çox misallar gətirmək olar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev kimi dahilər isə öz mübarizələri ilə dövlətin qürur doğuran tarixinin möhkəm təməlini yaratmaqla bərabər, həm də inkişaf salnaməsinin müəllifinə çevrilirlər.

Dövlətimiz möhtərəm Prezident İlham Əliyevin liderliyi ilə bir-birinin ardınca möhtəşəm uğurlara imza atmaqdadır. 2003-cü ildən bu yana gedilən dövlətçilik yolunun hər bir mərhələsi tariximizə işıq salan hadisələrlə əlamətdardır. Bu uğurların hər birini qeyd etdikcə biz həm də Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün, uzaqgörən siyasi irsinin şahidi oluruq. Ona görə Azərbaycan dövləti və xalqı hər zaman Heydər Əliyev ideyalarına tapınacaq, Ulu Öndərin müəyyən etdiyi inkişaf yoluna sadiq qalacaq. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan hər bir tarix də bizim üçün tarix boyu müqəddəs olacaq. Bu günlərdə Ulu Öndərin anadan olmasının 98-ci ildönümü ölkəmizin hər yerində ehtiram və məhəbbətlə anılır.

Keçdiyi şərəfli ömür yolunun 34 ilini dövlətə və xalqa həsr edən Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər birmənalı olaraq böyük quruculuq illəri, Azərbaycanın hərtərəfli və sürətli tərəqqi mərhələsi kimi səciyyələndirilir. Ötən əsrin 70-ci illərində Azərbaycanın keçmiş sovet ittifaqının geridə qalmış aqrar respublikasından inkişaf etmiş sənaye respublikasına çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Sovet ideologiyasının hakim olduğu o illərdə xalqımızın milli dəyərlərinin itməməsi, ana dilimizin Konstitusiyada təsbit olunması Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Heydər Əliyevin o illərdə gördüyü bütün işlər - Azərbaycanda yaradılan istehsal müəssisələri, açılan ali məktəblər, gənclərin təhsil almaq üçün keçmiş ittifaqın ən nüfuzlu məktəblərinə göndərilməsi dövlətimizin inkişafında, xalqımızın təhsil səviyyəsinin yüksəlməsində müstəsna rol oynamışdır. Və ən mühümü odur ki, Ulu Öndərin sayəsində sovet illərində yaranan möhkəm iqtisadi və intellektual potensial Heydər Əliyevin siyasi müdrikliyinin və uzaqgörənliyinin nəticəsi olaraq müstəqillik illərində də xalqımıza xidmət etmişdir.

Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında tarixi xidmətinin ən mühüm mərhələsi isə müstəqilliyimizin ilk illərində uğurla həyata keçirdiyi, lider qətiyyəti ilə başa çatdırdığı xilaskarlıq missiyasıdır. Xalqın səsinə səs verən Heydər Əliyevin 1993-cü ildə siyasi rəhbərliyə gəlişi Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu. Bu baxımdan vətənimizin parçalanmaqdan xilası, müstəqil dövlətçiliyimizin yaşadılması Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında ən böyük tarixi xidmətidir. Ona görə də müasir tariximizə Heydər Əliyevin adı çox düzgün olaraq müasir və müstəqil Azərbaycan dövlətinin memarı kimi həkk olunub.

Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 ildə xalqımızın intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrildi. Bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqımızın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi və sosial-iqtisadi yüksəlişə nail olması kimi misilsiz tarixi prosesi əhatələyir. Bu dövrdə Azərbaycan dünyada tanındı, beynəlxalq birliyin fəal üzvü kimi yerini möhkəmləndirdi, nüfuz sahibinə çevrildi.

Ötən 18 ildə Azərbaycan dövlətinin qazandığı bütün uğurların təməlində Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun uğurla həyata keçirilməsi dayanır. Prezident İlham Əliyev bu siyasəti inamla davam etdirərək Azərbaycanı Cənubi Qafqaz regionunun sürətlə inkişaf edən və qüdrətli dövlətinə çevirib. 2003-cü ildən başlayaraq görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini möhkəmləndirməsi bu həqiqətləri təsdiq edir. Ümummilli Liderin müəyyən etdiyi siyasi xəttin, inkişaf strategiyasının Prezident İlham Əliyevin qətiyyəti, siyasi və liderlik keyfiyyətləri ilə həyata vəsiqə alması Azərbaycanın bütün sahələr üzrə möhtəşəm nailiyyətlər qazanmasını təmin edir.

Azərbaycanın Qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi dövlətimizin Heydər Əliyevin müəyyən etdiyi yolla inkişafının təcəssümü oldu. Artıq işğaldan azad edilmiş torpaqlarımızda böyük quruculuq işləri başlayıb və tezliklə doğma yurdlarından köçkün düşmüş bütün vətəndaşlarımız evlərinə qayıdacaqlar. Bu Qələbə, torpaqlarımızın azad edilməsi həm də onu təsdiqlədi ki, Heydər Əliyev siyasətinin davamı, Ulu Öndərin ideyalarının həyata vəsiqə alması Azərbaycanın yüksəlişi və qüdrətlənməsi deməkdir.

## Azərbaycanın xilaskarı

**Məşhur MƏMMƏDOV,**
*Milli Məclisin deputatı:*

- Bu ilin payızında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30-cu ili tamam olacaq. İstər müstəqilliyimizə gedən yol, istərsə də ondan sonrakı dövrdə baş verən bütün siyasi-ictimai proseslər hər birimizin yadındadır. Əgər müstəqilliyimizə gedən yolda Heydər Əliyevin liderliyi ilə xalqımızın azadlıq mücadiləsiniin şanlı səhifələri yazılırdısa, müstəqilliyimizin bərpasından sonrakı dövrdə müasir dövlətçilik tariximizin ən ağır mərhələsi başlamışdı.

Bəli, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyimizin bərpasına sevinmək yerinə "olum ya ölüm" dilemması qarşısında qalmışdıq. Keçmiş sovet imperiyası dağılar-dağılmaz Ermənistanın silahlı təcavüzünə məruz qalmış respublikamızın daxilində qeyri-sabitlik, hərc-mərclik, qanunsuzluq o həddə gəlib çatmışdı ki, gələcəyimiz qeyri-müəyyən idi. Bütün xalq cəmiyyət həyatının hər bir sahəsini başına götürmüş böhranların yaratdığı ağır fəsadlardan əzab çəkirdi. Bu vəziyyət vətənini sevən hər bir azərbaycanlının ürəyini ağrıdırdı. Düşmənlərimiz isə güman edirdilər ki, Azərbaycan üzləşdiyi çətinliklər məngənəsində boğulacaq, müstəqil dövlət kimi ayaq üstdə duruş gətirə bilməyəcək.

"Pis günün ömrü çox olmaz" deyib atalar. Çətinliklərə, məhrumiyyətlərə, cəmiyyət həyatının bütün sferalarını bürümüş böhrana dözən Azərbaycan xalqının müdrik qərarı və seçimi 1993-cü ilin ortalarından başlayaraq vəziyyəti dəyişdi. Xalqımızın sınanmış oğlu, görkəmli dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi hər birimizin ümidini cücərtdi, sabahımıza inam yaratdı. Xalq yalnız Heydər Əliyevə inanırdı və əmin idi ki, respublikamızı təlatümlü burulğandan yalnız bu böyük siyasətçi çıxara bilər. Əgər həmin məqamda Heydər Əliyev yetişməsəydi, bəlkə də Azərbaycan adlı müstəqil dövlət dünyanın siyasi xəritəsindən silinə bilərdi. Bu baxımdan Heydər Əliyevin xalqın istək və tələbi ilə hakimiyyətə gəlişi dövlətimizin taleyini və tarixin gərdişini müsbətə doğru dəyişən, bütövlükdə müstəqillik tariximizin ən böyük siyasi hadisəsi oldu. Heydər Əliyev məhz həmin çətin məqamda çiyinlərini olduqca ağır və məsuliyyətli yükün altına verdi, öz siyasi dühası, müdrikliyi ilə Azərbaycanın müstəqilliyini qorudu, dövlətçiliyimizi məhv olmaqdan xilas etdi.

Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsində bir daha müstəqilliyimizin ilk illərində baş verənləri xatırlamaqla Ulu Öndəri anırıq. İllər ötdükcə, Azərbaycan qüdrətləndikcə, inkişaf etdikcə Heydər Əliyev dühasının əzəmətini daha aydın görürük.

Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə müasir və müstəqil Azərbaycan dövlətçiliyinin möhkəm və sarsılmaz təməlləri yaradıldı. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, cəmiyyətimizin bütün təbəqələri Heydər Əliyevin müəllifi olduğu müasir dövlətçilik ideallarının və azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşdi. Sonrakı dövrlərdə də dövlətçiliyimizə qəsd edilməsinə cəhdlərin şahidi olduq. Lakin Ulu Öndər elə bir bünövrə yaratmışdı ki, heç bir qüvvə onu sarsıda və ya zəiflədə bilməzdi.

Ulu Öndərin müəllifi olduğu yeni neft strategiyası xalqımızın rifahı, iqtisadiyyatmızın inkişafı ilə yanaşı, müstəqilliyimizin möhkəmlənməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına xidmət etdi. Heydər Əliyevin sayəsində Azərbaycanda tənəzzül dayandı, böhran həddində olan iqtisadiyyatımızda, sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı. Hüquqi dövlət quruculuğu həyata keçirildi. Postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı. Beləliklə, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı bu gün uğurları ilə qurur duyduğumuz Azərbaycan dövlətinin inkişafı ilə nəticələndi. Özünün dediyi kimi, ömrünün qalan hissəsini xalqına bağışlayan Heydər Əliyevin adı tariximizə müasir Azərbaycan dövlətinin banisi kimi həkk olundu.

Heydər Əliyev Azərbaycan üçün elə bir inkişaf strategiyası müəyyən etdi ki, hər zaman dövlətimizin yüksəlişinə və tərəqqisinə xidmət edəcək. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən sonra respublikamızın keçdiyi yol bunu təsdiq edən tarixi reallıqdır. Bu 18 ildə cənab İlham Əliyev Azərbaycanın inkişafını Ulu Öndərin görmək istədiyi səviyyəyə yüksəldib.

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində hazırda Azərbaycan müasir tarixinin ən qüdrətli dövrünü yaşayır. Ötən ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi də göstərdi ki, Azərbaycan hətta ən taleyüklü problemini belə həll etməyə qadir olan bir dövlətdir.

Hələ 2003-cü ildə xalqa müraciət edən Ulu Öndər Heydər Əliyev İlham Əliyevə inamını ifadə etmişdi. Bu gün bütün uğurlar, o cümlədən 44 günlük Vətən müharibəsində qazanılan Böyük Qələbə Heydər Əliyevin nə qədər uzaqgörən siyasətçi olduğunu təsdiq edir.

Hazırda Azərbaycan öz inkişafının yeni mərhələsini yaşayır. İkinci Qarabağ müharibəsindəki Qələbə də bu inkişafın dinamikliyi baxımından yeni reallıqlar yaradıb. Əminik ki, xalqımız möhtərəm İlham Əliyevin rəhbərliyi və Heydər Əliyev yolu ilə bundan sonra da tarixi nailiyyətlərə imza atacaq və Azərbaycanın inkişafının ən möhtəşəm salnaməsi yazılacaq.

1923 **Azərbaycanın özü qədər əbədi** 2021

# Tanrının min ildə bir dəfə yaratdığı tarixi şəxsiyyət



Tarixi qələbəmizdən, torpaqlarımızın azadlığından sonra artıq həyatımızdakı bir çox anlar bizim üçün iki qismə ayrılır: Qələbədən əvvəl və Qələbədən sonra. Mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Qələbəmizdən sonrakı ilk doğum günü olacaq. Bu böyük şəxsiyyətin, dövlət adamının dünyaya gəlişi ilə milli dövlətçilik tariximizdə özünə əlamətdar yer tutan 10 may günü yaddaşımıza bahar çiçəklərinin ətri ilə hopub.

Bu il isə Heydər Əliyevin doğum günündə açan çiçəklərin ətrinə azad yurdlarımızdakı gül-çiçəyin, Şuşamızın nadir incisi Xarıbülbülün də ətri qarışacaq. Bu cənnət rayihəsi Ulu Öndərimizin səmadan Azərbaycanın bu xoşbəxt günlərinə baxan məmnun ruhunu şad edəcək.

Böyük Tanrının yaratdığı vəhdət üzərində qərar tutan dünyamızda vaxt, zaman insana qarşı dayanır. Bütün ömrümüz bu "mücərrəd rəqib"lə mübarizədə keçir, ya biz vaxtı yenirik, ya da o bizi. Anın gözlənilməz zərbələrindən çox arzularımız əlçatmazlığa çəkilir, çox istəklərimizə doğru sona qədər irəliləyə bilmirik. Vaxt qarşısında acizlik həqiqəti bizimlə əbədi yol yoldaşı olur.

Amma doğrudanmı vaxt üzərində zəfərimiz mümkün deyil?! Bəs zəka və cəsarətlərinin qüdrəti ilə zamanı öz istəklərinə uyğun ram edərək vaxtı tarixə çevirmiş şəxsiyyətlər?!

Və elə bu anda istisnalar başlayır...

...Əbədiyyətə qovuşmuş böyük dühalar barədə söhbət açarkən adətən onların bu fani dünyamızda yalnız cismən bizdən ayrı olduqlarını yazırlar. Əslində isə onlar elə cismən də bizimlə birgədirlər. O insanlar fərd olaraq hər birimizin davranış mədəniyyətimizdə, qabiliyyətlərimizdə, adətənənələrimizdə yaşayırlar. Çünki biz bu dəyərləri, qabiliyyətləri bacardığımız qədər onlardan, məhz onlardan əxz etmişik. Göz önündəki ən xoş reallıqlarda onların ürəyi döyünür. Çünki bu reallıqlar həmin şəxsiyyətlərin zəkasından, qurucu əməllərindən doğulub. Maddi aləmdə ən gözəl olan nə varsa, o, həmin dühaların cisminin bir parçasıdır. Bizi əhatə etmiş zamanda yaşayan Heydər Əliyev kimi tarixi şəxsiyyəti zamanın müəllifi adlandırsaq, bu, fəlsəfi qanunauyğunluqlara zidd olmayacaq...

44 günlük Vətən müharibəsindəki Zəfərdən, düşmənin törətdiyi beynəlxalq cinayətin cavabını layiqincə aldığı qələbəmizdən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əziz Şuşaya səfəri ilə bağlı videogörüntülərini izləyəndə inanıram ki, Heydər Əliyevi Prezidentimizlə yanaşı, xəyali olaraq bütün Azərbaycan gördü.

Hər birimizə elə gəldi ki, bu qələbənin təməlində zəkası, dühası, hünəri ilə xarüqələr yaradan Heydər Əliyev 44 gün sərasər müzəffər Ordumuzu, onun bütün həmlələrini, Ali Baş Komandanımızın dünyanı mat qoyan hərbi qüdrətini izləmək üçün zamanın özünə qalib gələrək, mümkün olmayan sərhədləri keçib müasir dünyamıza qovuşmuş, sonra isə azad Şuşamızda arzusuna yetən müqəddəs ruhu ilə möhtəşəm əbədi heykələ çevrilmişdi.

Tarixi hadisələrin ciddi təhlili zamanı görürük ki, ən mümkünsüz ideyalar məhz şəxsiyyətlərdə təcəssüm olur. Bəzi hallarda isə şəxsiyyətlər ideyaların rəmzinə - nişanına çevrilir. Heydər Əliyev adında təcəssüm olunan ideyalar isə müstəqil demokratik Azərbaycan dövləti və inkişafa doğru hər gün bir qədəm də irəliləyən sivil bir xalqdır. O, bütün ömrünü bu ideyaların gerçəkləşməsinə həsr etmişdi...

Filosof Heraklit deyirdi ki, eyni çaya iki dəfə düşmək mümkün deyil. Bu, əslində tarix və şəxsiyyət münasibətlərində də belədir. Heydər Əliyevi tarix yetişdirmişdir. Bu böyük insanı yetişdirən tarix bir daha təkrarlanmayacaq. Zamanın şərtləri isə çox dəyişkəndir. Kim isə Heydər Əliyev şəxsiyyətinə bənzəmək iddiasına düşə bilər. Amma vaxt yolun başındaca bu iddialar üzərindən bir xətt çəkir. Heydər Əliyev ilə eyni dövrdə yaşayanlara, onu öz gözləri ilə görənlərə, ondan nələrisə öyrənənlərə Tanrı tərəfindən bu imkanla birgə fəxarət payı da verilib. Yaşımızın ixtiyar çağlarında övladlarımız məhz Heydər Əliyevlə eyni illəri yaşadığımız, eyni anları bölüşdüyümüz üçün bizə qibtə edəcəklər.

Dünya şöhrətli rəssam Salvador Dalinin vaxtilə böyük rus çarı I Pyotr haqqında səsləndirdiyi fikirlər bu gün Heydər Əliyevin şəxsiyyəti barədə düşüncələrdə tam yerinə düşür. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev bəşər sivilizasiyasının indiyə qədər tanıdığı ən böyük rəssamlardan biri və bəlkə də birincisi idi. Heydər Əliyev öz arzularında, təxəyyülündə qurub yaratdığı Azərbaycanı olduğu kimi, Vətənimiz boyda füsunkar bir tablo tək, əlvan boyalarla bu müqəddəs torpaq üzərinə köçürməyi bacarmışdır: Əl-ayağa dolaşanların cılız maneələrinə, bütün şər-şəbədələrə, çəkişmələrə baxmayaraq...

Müstəqil Azərbaycan dövləti, möhkəm özülə söykənən dövlətçiliyimiz, dünyaya açılan qapılar, millətimizi uğurlu gələcəyə doğru aparan aydın, nurlu yol - bizə bax bunlar qalır. Bu reallıqların hər birində Ulu Öndər Heydər Əliyevin imzası var. Və bu reallıqlar Heydər Əliyevin ruhunu xalqın ruhuna qovuşdurub - o, xalq üçün yaratdığı dəyərlərdə, ondan həyat dərsi, millətə, dövlətə sevgi nümunəsi, siyasi mədəniyyət, ədəb qaydaları əxz etmiş milyonların xatirəsində yaşayır və yaşayacaqdır... Bizlər hər addımda bu fenomen şəxsiyyətin nəcib əməllərinin gerçək nəticələri ilə qarşılaşır və Heydər Əliyevin öz xalqına, dövlətinə böyük sevgisinin şahidi oluruq.

Hələ sağlığında Heydər Əliyevin siyasi təcrübəsini mənimsəməyə və ondan istifadə etməyə maraq böyük idi. Bu da təsadüfi deyildi. Siyasətçilər bilirlər ki, dahilərin rəhbərliyi ilə millətlər tarixin təkərini döndərirlər. Bütün dünya gördü ki, ən problemli Azərbaycan ən qısa vaxtda etibarlı siyasi sabitliyə və görünməmiş iqtisadi tərəqqiyə nail oldu. Bunun səbəbi Heydər Əliyevin uzaqgörən, zamanın özünü ram edən şəxsiyyətində idi. Onun bütün ömrü millətin gələcəyini qurmağa yönəlmişdi.

Heydər Əliyev bir zirvədir - ona doğru yalnız can atmaq olar. Əgər cəhdlərində davamlı olsan, bu zirvəyə doğru gedən yolda ən böyük nailiyyətlərin sahibinə çevrilə bilərsən. Heydər Əliyevi öyrəndikcə onun şəxsiyyətinin qərar tutduğu mənəvi zirvə göz önündə daha da ucalır. Heydər Əliyev adının əhatə etdiyi mənəvi areal hüdudsuzdur. Bu adın ifadə etdiyi şəxsiyyət amilinin nəhəngliyini, miqyasını müəyyənləşdirmək üçün zaman lazımdır. İllər ötdükcə bu miqyas böyüyür və hüdudları genişləndirir.

Ölkəyə rəhbərlik missiyasını üzərinə götürdüyü ilk günlərdən Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin, iqtisadiyyatının, səhiyyəsinin inkişafı üçün Heydər Əliyev misilsiz fəaliyyəti ilə son dərəcə əhəmiyyətli nəticələri ortaya qoydu. Bu işləri onaqədərki heç bir rəhbərlə müqayisə edilməsi mümkün olmayan bir enerji, yüksək peşəkarlıq və uzaqgörənliklə həyata keçirdi.

Heydər Əliyev adı məğlubiyyət sözünü tarixin heç bir əyyamında yaxına buraxmayıb. Ona qarşı antitəbliğat kampaniyaları təşkil ediblər, fürsət düşdükcə, dəstədəstə, qrup-qrup üzərinə hücum çəkiblər, məqamdan yararlanıb hüquqlarını pozmağa, ona ləkə vurmağa çalışıblar. Amma Heydər Əliyevi məğlub edə bilməyiblər, bunu tarixin heç bir dönəmində, heç kim bacarmayıb. Böyük Tanrı kiməsə Heydər Əliyevi məğlub qiyafədə görmək fürsəti verməyib. Heydər Əliyev məğlubedilməz şəxsiyyət idi! O, dünyaya sanki qələbələr üçün gəlmişdi.

...Heydər Əliyev şəxsiyyətindən söhbət gedərkən bura Azərbaycanı da əlavə etmək lazım gəlir. Çünki Heydər Əliyev şəxsiyyəti çoxdan Azərbaycanla bütövləşmiş, Heydər Əliyevin ruhu Azərbaycana, Azərbaycanın ruhu Heydər Əliyevə keçmişdir. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir, həyatımdır" - deyirdi Ümummilli Liderimiz! Və bu deyim yalnız onun dilində reallıqla tam üst-üstə düşürdü. Yalnız onun belə deməyə haqqı çatırdı. Çünki Azərbaycan həqiqətən də Heydər Əliyevin ürəyi, nəfəsi, həyatı idi...

Onun Azərbaycanın milli-mənəvi dəyərlərinə bu qədər vurğunluğunu, mübhəmliklərini də görünür, elə bu bağlılıqda axtarmaq lazımdır. Qloballaşan dünyada gündən-günə güclənən sivilizasiyalararası müharibələr milli-mənəvi dəyərlər məsələsini çağdaş zamanın ən aktual məsələlərindən birinə çevirməkdədir. Problemi aktuallaşdıran başlıca amil budur ki, total əxlaqın və çoxtərəfli inteqrasiyanın diktələri bir çox hallarda əsrlərin mirasına - milli-mənəvi dəyərlərə qarşı yönəlir və belə bir təhlükə Azərbaycanın da başı üzərində dolaşa bilərdi. Lakin Heydər Əliyevin öz Vətəninə, xalqına bağlılığı bu təhlükə önündə də əzəmətli siperə çevrilmiş oldu. Ümummilli Liderin milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərindəndir.

Çağdaş nəzəriyyələr bu cür meyilləri adətən mühafizəkarlıq nümunəsi kimi nəzərdən keçirir. Amma Heydər Əliyevin böyüklüyü ondadır ki, milli ənənələrimizə bu qədər sadiqlik onun timsalında konservatizm meyili kimi görünmür. Çünki milli dəyərlərə sadiqlik Heydər Əliyevin demokratizminin inkarına yönəlməyib. O, öz düşüncələrində çox böyük ustalıqla milli və liberal dəyərlərin dialoqunu qura bilib.

Öz müsahibələrinin birində Heydər Əliyevin hələ keçmiş SSRİ rəhbərliyində təmsil olunarkən onun taleyindəki müsbət rolundan söhbət açan məşhur rus dissident yazıçısı, Nobel mükafatı laureatı Aleksandr Soljenitsının məlum etirafını xatırlayıram. Bu, ümumilikdə Heydər Əliyev demokratizminin etirafıdır. Bəli, Heydər Əliyev zəmanəsinin ən böyük demokratı idi. O, demokratiya anlayışının özünə də bir millilik gətirmişdi. Heydər Əliyevin demokratiya barədə aşağıda təqdim olunan fikirləri dünyanın ən dahi filosoflarının demokratiyaya dair baxışlar sisteminə aid edilə bilər: *"Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir".*

Bu, son qərinələrin "isti", "soyuq" müharibələrində əsl məzmununu itirərək dünya nəhənglərinin əlində gizli müstəmləkəçilik siyasəti alətinə çevrilmiş demokratiyanın öz məzmununa qaytarılması üçün bütün dünyaya ünvanlanmış bir çağırışdır. Bu, gizli işğal siyasətini indi demokratiya niqabı arxasında həyata keçirməyə başlayanlara ünvanlanmış bir tənədir...

Kənar mədəniyyətlərlə təmas anlarında yabançı həyat tərzlərindən məhz nələri əxz etməli, nələri götürüb, nələri kənara qoymalı? Dünyanın ən böyük ideoloqları əsrlərlə bu suala cavab axtarmışlar, amma birmənalı cavab yenə də ortada deyil. Heydər Əliyev isə qüdrətli bir strateq kimi bu sualı real addımlarla cavablandırmış oldu. Azərbaycanın qapıları ən ali bəşəri dəyərlərin üzünə məhz onun əlləri ilə açıldı. Lakin bu qapıdan həyatımıza daxil olan yeniliklər min illərcə tariximizlə yol gələn, bizi etnoslar içərisində tanıdan dəyərlərlə mübarizəyə girişə bilmədi və yad mədəniyyət elementləri neçə illər sonra da milli ənənələr üzərində hakim mövqeyə sahib ola bilməyəcək. Çünki seçim əvvəldən dürüst aparılıb...

Heydər Əliyevin bu sahədə müəyyən etdiyi prinsiplərə hansı səmtdən yanaşırsan yanaş, fərq etməz, bu prinsiplərdə bütün cəhətlər üzrə dəqiq uzlaşmalar görəcəksən. Heydər Əliyevin irəli sürdüyü prinsiplər mahiyyət etibarilə Azərbaycan millətinin mənafelərini əsas götürür. Fəqət, eyni zamanda bu prinsiplər hansısa millətin mənafelərinə qarşı da yönəlməyib.

Ulu Öndərin irəli sürdüyü prinsiplər dünya xalqları sırasında azərbaycanlıların layiqli yerini müəyyənləşdirir. Lakin məlum prinsiplər bu sırada qeyri millətlərin yerini də inkar etmir. Təsadüfi deyil ki, Azərbaycanda qonaq olan əcnəbilər bu Şərq ölkəsində müxtəlif dünyagörüşlərin, dini inancların, siyası əqidələrin, fərqli mədəniyyətlərin bu dərəcədə normal, sivil dialoquna heyranlıqlarını gizlədə bilmirlər. Bu dialoq, ilk növbədə, böyük öndərimizin düşüncələrində qurulmuşdur. Keçmişin qiymətli əmanətlərini çağdaş təsəvvürlərin işığında təqdim etməyə, yaxud çağdaş təsəvvür və dünyagörüşlərini tarixin ərmağanları fonunda nəzərdən keçirməyə istiqamətlənmiş Heydər Əliyev ideyaları bu gün onun ləyaqətli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Heydər Əliyev bütün şərəfli və zəngin ömrü boyu Azərbaycanın milli-mənəvi dəyərlərinin böyük himayədarı oldu. Nə xoş ki Ümummilli Liderimizin bu sahədə qoyduğu ənənələr müqəddəs bir miras kimi yenə də yaşadılır, qorunur. Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizə rəhbərliyinin ilk günündən bəyan etdi ki, Heydər Əliyev yoluna sadiq qalacaq, bu yolu layiqincə davam etdirəcək. Azərbaycan Prezidentinin fəaliyyəti bu bəyanata sadiqliyin bariz ifadəsidir və bu, milli-mənəvi dəyərlərə münasibətdə daha aydın cizgilərlə görünür. Prezident İlham Əliyev Azərbaycan ədəbiyyatına, elminə, təhsilinə göstərdiyi diqqət və qayğı ilə əyani şəkildə sübuta yetirdi ki, o, bu sahədə də Heydər Əliyev məktəbinin prinsiplərinə sadiqdir.

Özümüzdən də xəbərsiz yaradılışımızdan bizimlə birgə ali bir duyğu doğulub, köksümüzün altında göyərib boy göstərir. Həyatın əlavələrinə həmahəng olan, gün keçdikcə daha da əlvanlaşan, daha da müqəddəsləşən, hiss və düşüncələrimizə hakim kəsilən o duyğu ən dar məqamlarda da ən yaxın köməkçimizə çevrilir. Həyatdan əlimizi üzəndə o duyğu əlimizdən tutur, inamımızı, istinadgahımızı itirəndə o duyğu bizim üçün inama, istinadgaha çevrilir. Və nə vaxtsa o duyğunu Sevgi adlandırırıq. Mental yaddaşımız Leyli və Məcnun, Əsli və Kərəm, Yusif və Züleyxa, Tahir və Zöhrə, İlham və Fərizə misalında ilahi sevginin mükəmməl nümunələrini xatırlayır. Heydər Əliyev öz ömürgün yoldaşı, mərhum akademik Zərifə xanıma olan sonsuz sevgisi və bu sevginin etirafı ilə mənəviyyat tariximizdə bütöv nəsillərə örnək ola biləcək bir məhəbbət rəvayəti də yaratdı.

Bu gün Prezident İlham Əliyevi Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Ölkə rəhbəri bu dəyərləri göz bəbəyi kimi qoruyacağına, itkisiz şəkildə gələcək nəsillərimizə ötürəcəyinə bütün azərbaycanlılar qarşısında, ən böyük Azərbaycanlı Heydər Əliyevin ruhu qarşısında and içib. Azərbaycan Prezidenti öz andına sadiqdir. Necə ki bütün ömrünü öz xalqına qurban edən Ümummilli Liderimiz bu andına sona qədər sadiq qaldı. Bu andın fövqündə 30 ildən bəri yaraları qövr edən bir xalqın ülvi arzusu - Qarabağı işğaldan azad etmək, doğma torpaqlarına dönmək, o torpaqlarda uyuyan doğmaların ruhunu şad etmək kimi qarşısıalınmaz bir istəyə qovuşmaqda möhtəşəm bir dönməzlik var idi. Vaxtilə əlçatmaz, müqəddəs bir arzu dövlətimizin israrla həyata keçirdiyi müdrik siyasətin şərəfli nəticəsinə, böyük zəfərə, qələbəyə çevrildi. Bu nəticə igid oğullarımızın şücaəti, rəşadəti, canlarından keçdikləri Vətən torpağına, qanları ilə suladıqları Qarabağa sönməz məhəbbətin təzahürü idi. Bu məhəbbət igid övladlarımızın beşikləri başında fədakar Azərbaycan analarının illərlə dediyi laylalardan, Azərbaycan məktəbinin vətənpərvərlik tərbiyəsindən qidalanmışdı. Ulu Öndər "Azərbaycanın milli-mənəvi dəyərləri ona görə qüdrətlidir ki, o, torpaq uğrunda canlarından keçən gənclər ordusu yetişdirmişdir" deyirdi.

Öz torpaqlarına qovuşandan sonra dünya düzənində böyük hörmətə yetişən Azərbaycan möhtəşəm qələbə ilə beynəlxalq birliyə daha sürətlə inteqrasiya istiqamətində böyük imkanlar qazanır. Müstəqil dövlətimiz bu gün bütün dünyada aparılan mədəniyyətlərarası dialoqların təşkilaçısıdır. Azərbaycan malik olduğumuz zəngin mədəniyyətlə bu dialoq prosesinin əsas iştirakçılarından birinə çevrilmək imkanına malikdir. Heydər Əliyevin milli-mənəvi dəyərlər sistemində diqqəti cəlb edən ən böyük töhfəsi nadir tərbiyəsi və təcrübəsi ilə ərsəyə gələn, fəaliyyətləri ilə millətin ürəyindən tikan çıxardan, ləyaqətləri, nurlu əməlləri, siyasətləri ilə dünyanın diqqətini çəkən, hərtərəfli yetkinlik və mütərəqqi meyilləri ilə düşmənin gözünə ox olub batan, dühası, bacarığı ilə çox mətləblərə uğur qazandıran, dövlətə hərtərəfli xidmət missiyası göstərən İnsanların, - İlham Əliyevin, Mehriban xanım Əliyevanın, onların nəcib, vətənpərvər, istedadlı övladlarının varlığı və nurlu əməlləri xalqımıza Heydər Əliyevdən miras qalmış mənəvi xəzinədir. Bu insanların əməllərinin adı bəşəriyyətə, insanlığa xidmətdir.

Sinəsində fərəhlə ən dəyərli və ali Vətən mükafatı "Heydər Əliyev" ordeni gəzdirən xanım Mehriban Əliyeva böyük xalq məhəbbətinin, beynəlxalq rəğbətin layiqli daşıyıcısıdır.

...Ola bilər ki, zaman hansısa şəxsə nə vaxtsa ona edilmiş yaxşılığı unutdursun. Ola bilər ki, şəxs ona edilmiş yaxşılığı layiqincə qiymətləndirmək imkanlarından uzaq olsun. Lakin xalqın və tarixin yaddaşı çox möhkəmdir. Hər hansı sapıntı onu öz qənaətindən döndərə bilməz.

*Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlərin miqyası o qədər böyükdür ki, bunu sözlə yalnız belə ifadə etmək olar: bütöv xalqa və tarixə yaxşılıq. İnsan üçün bu yaxşılığın müqabilində yaddaşlarda daimi minnətdarlıq duyğuları ilə yaşamaqdan gözəl nə ola bilər?!*

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru, professor,***
***YAP Veteranlar Şurasının üzvü***

# Yüz gənc hüquqşünas prokurorluq orqanlarında qulluğa qəbul edilib

Müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş əməkdaşların mayın 6-da Baş Prokurorluqda təntənəli andiçmə mərasimi keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirələrini ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar.



Sonra Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər.

Mərasimdə əvvəlcə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib, qazilərimizə şəfa dilənib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev diqqətə çatdırıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli prokurorluq orqanlarının ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təsisat kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirilərək həyata keçirdiyi hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olub.

Baş prokuror vurğulayıb ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə prokurorluğun fəaliyyətinə xüsusi maddə həsr edilərək, onun yeri məhkəmə hakimiyyəti sistemində müəyyən edilməklə statusu, təşkili əsasları və fəaliyyət prinsipləri, səlahiyyətləri və vəzifələri təsbit edilib. Daha sonra - 1999-cu ildə "Prokurorluq haqqında" Azərbaycan Respublikasının qanununun qəbul olunması ilə prokurorluq sovet dövrünün məqsəd, vəzifə və funksiyalarından azad edilib, onun fəaliyyətinin demokratik prinsip, forma və metodları müəyyənləşdirilib, sistemi və təşkili, kadr təminatı və işçilərin sosial müdafiəsi müasir beynəlxalq standartlara uyğun tənzimlənib.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin 2001-ci il 19 iyun tarixli fərmanı ilə təsdiqlənmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbul olunmuş gənc hüquqşünasların Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun əhəmiyyətli hissəsini təşkil etməsi, onların tutduqları vəzifələrdə səmərəli fəaliyyəti, həmin gənclərin bir çoxunun rəhbər və yuxarı təsnifatlar üzrə vəzifələrə irəli çəkilməsi ölkə həyatının bütün sahələrində gənclərin daha mühüm vəzifələrə təyin edilməsi barədə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişlərinin icrasının nəticələridir.

Xüsusi vurğulanıb ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilmiş siyasət nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının yeni mərhələsinə qədəm qoyub. Qırx dörd günlük haqq savaşında qazanılan möhtəşəm Qələbə dövlət başçısının yenilməz qətiyyətini, Ordumuzun qüdrətini və xalqımızın milli birliyini bir daha bütün dünyaya nümayiş etdirib.

Baş prokuror bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda gəncliyin inkişaf yoluna işıq salmaqla gənclərin dövlət idarəçiliyində, bir sözlə, ictimai həyatın bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin edib. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən mütəmadi tədbirlər gənclərin təhsil, ailə, məişət, məşğulluq məsələlərinin həllində mühüm rol oynayaraq gəncliyin uğurlu gələcəyinə hesablanıb.

Dövlət başçısının rəhbərliyi ilə görülən işlərin, milli mənafeyimizin ən yüksək səviyyədə qorunmaqla dönməz sabitliyə və təhlükəsizliyə, davamlı inkişafa, etibarlı sosial rifaha, tərəqqiyə və firavan gələcəyə yönəlmiş fəaliyyətinin xalqımız tərəfindən daim dəstəkləndiyini nəzərə çatdıran Baş prokuror prokurorluq əməkdaşlarının həyata keçirilən siyasi kursa, dövlətə və dövlətçiliyə daim sadiq olduqlarını qeyd edib.

Qeyd olunub ki, prokurorluq orqanlarına qulluğa qəbulla bağlı 2021-ci ildə keçirilmiş 22-ci müsabiqədə namizədlərin yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə, xarici dil biliklərinə, sağlam mənəviyyata, məntiqi düşünmə qabiliyyətinə və prokurorluqda işləmək üçün zəruri olan digər keyfiyyətlərə malik olmaları, o cümlədən prokurorluqda qulluq keçmək arzuları, prokurorluq orqanlarında mövcud olan vakant ştat vahidləri nəzərə alınmaqla 100 gənc hüquqşünas qulluğa qəbul edilib.

Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyinatı barədə Baş Prokurorluq üzrə əmr elan edilib. İşə qəbul olunanlar təntənəli surətdə and içib. Baş prokuror Kamran Əliyev onlara xidməti vəsiqələri təqdim edib.

Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Suat Qəhrəmanova, Aqil Əşrəfov və Vətən müharibəsi iştirakçisi İlkin Şıxməmmədov çıxış edərək gənc mütəxəssislərə göstərilən dövlət qayğısına görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildirib və bu yüksək etimadı doğruldacaqlarına söz veriblər.

Baş prokuror Kamran Əliyev mərasimə yekun vuraraq qulluğa qəbul olunan gənc prokurorluq əməkdaşlarını təbrik edib, onların prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarına əminliyini bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# Ramazan bayramı günlərində əlavə məhdudiyyətlər tətbiq olunmayacaq

Ölkəmizə gətirilən və tətbiq olunan COVID-19 əleyhinə bütün vaksinlər təhlükəsiz və effektivdir. Azərbaycanda iki dozanı almış vətəndaşlar arasında yoluxma sayları çox azdır. Yoluxanlar da xəstəliyin ağır formasından tam qorunurlar.




AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirilən brifinqində səhiyyə nazirinin birinci müavini Teymur Musayev deyib. "Vaksinasiya olunmaq heç də digər qorunma vasitələrindən imtina etmək mənası daşımır. Hazırda maska taxılması, məsafə saxlanılması və digər gigiyenik prosedurlara əməl olunması məcburi və mütləqdir" deyə T.Musayev bildirib.

O, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, qarşıdan gələn Ramazan bayramı günlərində yalnız ictimai nəqliyyatın fəaliyyətinin dayandırılacağını, əlavə məhdudiyyətlərin tətbiq olunmayacağını da diqqətə çatdırıb.

# Mayın 10-dan Azərbaycanda 18 yaşına çatmış vətəndaşların vaksinasiyası başlanır

Vaksinlər müxtəlif cür hazırlanır. Azərbaycanda koronavirusa qarşı ilk tətbiq olunan Çinin "Sinovac" şirkətinin vaksinidir. Bu, inaktivləşdirilmiş vaksindir. Artıq ölkəmizə "Vaxzevria" və "Sputnik V" vaksinləri də gətirilib və onların da tətbiqinə başlanılır. Ölkəmizdə tətbiq olunan bütün vaksinlər təhlükəsizdir və səmərəlidir.

İndiyədək 600 min nəfərə yaxın vətəndaş ikinci dozanı qəbul edib. İki doza vurulanlar arasında yoluxma sayı çox aşağı səviyyədədir. Yoluxanlar isə xəstəliyi ağır formada keçirməkdən tam qorunurlar.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində səhiyyə nazirinin birinci müavini Teymur Musayev deyib.

"Bu məlumatlar mayın 10-dan etibarən Azərbaycanın bütün ərazisində 18 yaşına çatmış vətəndaşların vaksinasiya kampaniyasında iştirak etməsinə əsas verir. Bu, böyük bir imkandır və bu imkan peyvəndlərin kifayət qədər olmasına əsaslanır. Digər bir məsələ ondan ibarətdir ki, könüllülük prinsipi qorunaraq və eyni zamanda, vətəndaşlıq məsuliyyəti hiss edərək dünyanın qabaqcıl ölkələrində olduğu kimi, bu prosesə kütləvi surətdə qoşulmaqla qısa müddətdə normal həyata qayıtmaq imkanı var. Bu imkanı əldən vermək olmaz və Səhiyyə Nazirliyinin rəsmisi kimi, 18 yaşı tamam olan hər bir vətəndaşı həmin kampaniyaya qoşulmağa çağırıram. Nəinki öz sağlamlığı və həyatı, həm də doğmalarının, əzizlərinin həyatını düşünərək bu mühüm kampaniyaya qoşulmaqla ölkəmizin, cəmiyyətimizin normal həyata dönüşünü təmin etmək olar" deyə T.Musayev bildirib.

# Azərbaycanda koronavirusa ən çox yoluxma halı 30-59 yaş arasında müşahidə olunur

İstər pandemiyanın başlanğıc mərhələsində, istərsə də hazırda yeni yoluxmaların və ümumi yoluxmaların yaş qrupunda bölgüsü, demək olar ki, dəyişməyib və eyni faizlərlə davam edir. Ən çox yoluxma hallarını sosial aktiv yaş qruplarında - yaşı 30-59 arası olan vətəndaşlarda görürük. Ölkəmizdə qadınlar arasında daha çox yoluxma müşahidə olunur.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirilən brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib.

TƏBİB-in departament müdirinin sözlərinə görə, yoluxma hallarının ölkə üzrə bölgüsünə əsasən, yeni yoluxma hallarının 54 faizi Bakıda qeydə alınır: Növbəti yerdə isə Abşeron rayonu dayanır. Digər bölgələrimizdə xüsusi diqqət cəlb edən dəyişiklik yoxdur. Vəziyyət stabil olaraq qiymətləndirilə bilər.

Paytaxtın rayonlarına gəlincə, yoluxmaların yüksəkliyi Binəqədi və Xətai rayonlarında qeydə alınır".

Y.Qarayeva qeyd edib ki, Azərbaycanda koronavirusla bağlı epidemioloji vəziyyət nəzarət altındadır və müsbət dinamika mövcuddur: "Sərt karantin rejiminə getmədən, sosial həyatda bəzi aktivlikləri saxlayaraq yeni yoluxmaların sayında mərhələli şəkildə enmə müşahidə olunur. Bu da çox yaxşı bir nəticədir. Hazırda ölkəmizdə epidemioloji vəziyyət stabildir. Biz buna düzgün aparılan karantin siyasəti və vətəndaşlar tərəfindən doğru yanaşma, fiziki məsafənin saxlanılması, maskadan daha çox və düzgün istifadə edilməsi nəticəsində nail olmuşuq. Çalışmalıyıq ki, bu nailiyyətlər itməsin".

# Azərbaycanda koronavirusa 844 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 2057 nəfər müalicə olunaraq sağalıb, 844 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 18 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 324 min 685 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 301 min 6 nəfər müalicə olunaraq sağalıb, 4635 nəfər vəfat edib. Aktiv xəstə sayı 19044 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 300 min 581 test aparılıb. Dünənki test sayı isə 10717-dir.

## Azərbaycanda birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyona yaxınlaşıb

Mayın 6-da Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 27 min 777 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 4290, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 23487 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının sayı 1 milyon 593 min 883-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 992 min 252, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 601 min 631 nəfərdir.

# Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rusiyanın xarici işlər nazirinə müraciət ünvanlayıb

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rəyasət Heyəti Rusiya Federasiyasının xarici işlər naziri Sergey Viktoroviç Lavrova müraciət ünvanlayıb. AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir:

"Hörmətli Sergey Viktoroviç Lavrov.

Faşizm üzərində tarixi Qələbənin 76-cı ildönümü ərəfəsində biz - Böyük Vətən müharibəsi veteranları sizə müraciət edərək Hitler nasizminin erməni əlaltılarının qəhrəmanlar kimi qələmə verilməsi cəhdlərinin bizi narahat etdiyini bildirmişdik. Həmin müraciətdə nasist canilərin həm Ermənistanın özündə, həm də faşistlərin qətlə yetirdikləri milyonlarla insanın xatirəsinə ehtiram bəsləyən Rusiyanın informasiya-mədəniyyət məkanında həyasızcasına təriflənməsindən söhbət gedirdi.

Biz ürək ağrısı ilə sizin diqqətinizi ona cəlb etmişdik ki, Ermənistan bədnam generallar Dro və Njde kimi məşhur olan erməni SS cəza legionunun başçıları Drastamat Kanayan və Qaregin Ter-Arutyunyanın təmizə çıxarılması üçün Rusiyanın resurslarından istifadə edir. Nasist rejimin əlaltısı, Hitlerin və Gimmlerin dostu olmuş Njde məşhur KİV-də qəhrəmanlara bərabər tutulur.

Bundan əlavə, Moskvada "Qaregin Njde ilə söhbətlər və ya Njdenin 125 illiyinə abidə" adlı kitabın təqdimatı keçirilib. Paradoks ondan ibarətdir ki, bu tədbirin təşkilatçılarının fikrincə, "Njdenin ideyaları bu gün həmişəkindən daha aktualdır və müasir cəmiyyətdə fəal təbliğ olunmalıdır". Bir daha xatırlatmaq yerinə düşər ki, 1948-ci ildə Njde hərbi cani kimi 25 il həbs cəzasına məhkum edilib və 1957-ci ildə Vladimir mərkəzi həbsxanasında ölüb. Ona bəraət verilməyib. Məhkəmə əvvəl çıxarılmış hökmü qüvvədə saxlayıb.

Buna baxmayaraq, Rusiyanın erməni diasporu hər il Vladimirdə, knyaz Vladimir qəbiristanlığında Njdenin qəbrinin ziyarət olunmasını, bu faşist cəlladın xatirəsinin ehtiramla yad olunmasını təşkil edir. Adıçəkilən qəbiristanlıqda bu faşist əlaltısına xatirə kompleksi tikilməsi barədə məsələ də qaldırılır.

Sizə böyük təşəkkürümüzü bildirərək vurğulamaq istəyirik ki, bizim keçənilki müraciətimizi diqqətsiz qoymadınız və bizə verilən cavabdan göründüyü kimi, yerli ermənilərin nümayəndələri ilə müəyyən iş aparılıb. Görünür, məhz bu işin nəticəsində keçən il bu nasist caninin xatirəsinin Rusiyada əbədiləşdirilməsi cəhdinin qarşısı alınıb.

Bununla belə, Ermənistanın özündə faşist Almaniyası üzərində Qələbənin 71-ci ildönümünün bayram edilməsindən iki həftə sonra Yerevanın mərkəzində Qaregin Njdenin abidəsinin təntənəli açılış mərasimi keçirilib. Faşist caninin xatirəsinin əbədiləşdirilməsi mərasimində hələ bir il bundan əvvəl Moskvada faşizm üzərində qələbə paradında sizinlə yanaşı dayanmış Ermənistan prezidenti Serj Sarkisyan şəxsən iştirak edib.

Hörmətli Sergey Viktoroviç Lavrov.

Siz Böyük Vətən müharibəsinin yekunlarının yenidən yazılmasının və təhrif edilməsinin yolverilməz olduğunu dəfələrlə vurğulamısınız. Məhz Rusiya Federasiyasının təşəbbüsü ilə BMT Baş Məclisi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsinə, neonasizmə və irqçiliyin müasir formalarının yayılmasına, irqi ayrı-seçkiliyə, ksenofobiyaya və onunla bağlı dözülməzliyə qarşı mübarizə" adlı 70/139 nömrəli Qətnamə qəbul edib.

Həmin sənədin 4-cü bəndində deyilir ki, BMT Baş Məclisi nasizm hərəkatının, neonasizmin və "Vaffen SS" təşkilatının keçmiş üzvlərinin hər hansı formada məşhurlaşdırılması, o cümlədən abidələr və memoriallar ucaldılması, nasist keçmişin, nasizm hərəkatının və neonasizmin üzə çıxarılması məqsədilə kütləvi nümayişlər keçirilməsi, eyni zamanda, antihitler koalisiyasına qarşı mübarizə aparmış və nasizm hərəkatı ilə əməkdaşlıq etmiş belə şəxslərin milli azadlıq hərəkatlarının iştirakçıları elan edilməsi və ya elan etmək cəhdləri vasitəsilə məşhurlaşdırılmasına görə dərin narahatlığını bildirib.

Bu qətnaməyə qoşulmuş və özünü Rusiyanın strateji müttəfiqi kimi qələmə verən Ermənistanda isə Sovet əsgərlərinin və dinc sakinlərin, o cümlədən erməni xalqının özünün nümayəndələrinin də qətlə yetirilməsinə bais olmuş faşizm rejiminə sadiq şəxslərə genişmiqyaslı pərəstiş yaradılır.

Bizi təəccübləndirən odur ki, başqa ölkələrdə bu cür hadisələrə həmişə münasibət bildirən Rusiyanın özündə buna hər hansı reaksiya yoxdur. Nasist canilər Dro və Njdenin şərəfinə xatirə sikkələri kəsilən, filmlər çəkilən Ermənistanın bu cür davranışına xüsusi haqq verilməsinin səbəbi bizə aydın deyil. Yerevanda bir meydana və metronun bir stansiyasına Qaregin Njdenin adı verilib. Orada Drastamat Kananyanın adını daşıyan küçə də var. İndi hökumət binaları kompleksi və Ermənistanın hakim partiyasının qərargahı ilə yanaşı Njdenin abidəsi də ucalır.

Onu da nəzərinizə çatdırırıq ki, faşist Njdenin daha bir heykəli vaxtilə Ermənistanın işğalına məruz qalan, hazırda isə Rusiya sülhməramlılarının məsuliyyəti zonasında olan Xocavənd rayonunda ucalır ki, bu heykəlin də sökülməsi vacibdir. Azərbaycan ərazisində belə bir heykəlin mövcudluğu, sadəcə, dövlətimizin və xalqımızın deyil, bütövlükdə ümumbəşəri insani və əxlaqi dəyərlər baxımından yolverilməzdir və əsla qəbul edilə bilməz.

Sovet xalqının igidliyinin nurlu xatirəsi Azərbaycanda bu gün də böyük ehtiramla yad edilir, 9 May günü əvvəlki kimi yenə də ən mötəbər dövlət bayramlarından biri olaraq qalır.

Biz, faşizm ilə müharibənin bütün ağrı-acısını görmüş, döyüşlərdə yoldaşlarını itirmiş insanlar nasist canilərin ətrafında qəhrəmanlar oreolu yaradılmasını ürək ağrısı ilə müşahidə edirik. Biz Ermənistanın vaxtilə ümumi vətənimiz uğrunda həlak olmuş insanların xatirəsinə və bütün sülhsevər bəşəriyyətə açıq-aşkar hörmətsizlik olan hərəkətlərinə görə hiddətlənirik.

Əminik ki, biz Böyük Vətən müharibəsi qurbanlarının nurlu xatirəsinə sadiq qalaraq Ermənistan tərəfindən təbliğ edilən faşizm ideologiyası timsalında ümumi şərə qarşı mübarizədə öz səylərimizi yenidən birləşdirməliyik.

Azərbaycanın Böyük Vətən müharibəsinin bütün veteranları adından hörmətlə və düzgün başa düşüləcəyimiz ümidi ilə:

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti".

# Azərbaycan ombudsmanı Ermənistan ombudsmanının regionda sülhə zərbə vuran fəaliyyəti haqqında Mişel Başele və Dunya Miyatoviçə məktub ünvanlayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan ombudsmanının regionda sülh quruculuğuna zərbə olan fəaliyyəti haqqında BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Mişel Başele və Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviçə məktub ünvanlayıb. AZƏRTAC məktubu təqdim edir:

"Ermənistan ilə Azərbaycan arasında mövcud olmuş münaqişənin başa çatmasına baxmayaraq, Ermənistan hərbi-siyasi hakimiyyətinin təsiri və təzyiqi ilə azərbaycanlılara qarşı aqressiya və dözümsüzlüyü təbliğ edən bəyanat və ifadələrin kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə davamlı olaraq təbliğ olunur. Regionda insan hüquq və azadlıqlarını ciddi təhdid edən bu vəziyyət ölkə ombudsmanı olaraq məni dərindən narahat edir.

Sizin də bildiyiniz kimi, BMT tərəfindən qəbul edilmiş universal prinsiplər olan "Paris Prinsipləri" Milli İnsan Hüquqları İnstitutlarını müstəqil və qərəzsiz fəaliyyət göstərməyə çağırır. Ölkədə fəaliyyət göstərən Milli İnsan Hüquqları İnstitutu olaraq təsisatımız Paris Prinsiplərinin tələblərinə uyğun olaraq, müstəqil şəkildə və hər hansı bir ayrı-seçkiliyə yol vermədən insan hüquq və azadlıqlarını müdafiə etməkdədir.

Biz münaqişə dövründə bir çox faktaraşdırıcı missiyalar həyata keçirmiş, Ermənistan ordusu tərəfindən hərbi hücumlara məruz qalan mülki yaşayış yerlərində araşdırmalar aparmış, beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarının tələblərinin pozulması faktlarına dair xüsusi hesabatlar hazırlayaraq aidiyyəti beynəlxalq insan hüquqları qurumlarına ünvanlamışıq.

Eyni zamanda, BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında hər hansı bir ayrı-seçkiliyə yol vermədən erməni hərbi əsirlərlə rəftar və onların saxlanma şəraiti monitorinq olunmuşdur.

Başçəkmə zamanı hərbi əsirlər ombudsman tərəfindən fərdi qaydada qəbul olunmuş, onlara hüquqları və müraciət mexanizmləri ilə bağlı öz dillərində qanunvericilik aktları təqdim edilməklə hüquqları izah olunmuş, Milli Preventiv Qrupun həkim üzvünün iştirakı ilə müayinə olunmuşlar.

Biz çox istərdik ki, Ermənistan ombudsmanı da iki millət arasında nifrət hissini artıran bəyanatlar vermək yerinə Ermənistan hərbi-siyasi hakimiyyətinin azərbaycanlılara qarşı aqressiya və dözümsüzlüyü təbliğ edən çıxış və bəyanatlarını araşdırsın, sülhün bərqərar olmasına öz töhfəsini vermiş olsun.

Lakin təəssüf hissi ilə qeyd etməliyəm ki, istər münaqişə dövründə, istərsə də münaqişədən sonra Ermənistan ombudsmanın bu istiqamətdə heç bir fəaliyyətinə rast gəlməmişik, əksinə, siyasi məqsədlərə xidmət edən fəaliyyətin şahidi olmuşuq.

Müasir dövrdə postmüharibə dövründə gələcəkdə iki xalq arasında yaranacaq əməkdaşlıq və regionda sabit sülh şəraiti barəsində müzakirələr aparılması gözlənildiyi halda Ermənistan parlamentinin üzvləri və müxtəlif qurum rəhbərləri Azərbaycana və onun vətəndaşlarına qarşı etnik cəhətdən dözümsüzlüyü ifadə edən müxtəlif bəyanatlar səsləndirirlər.

Müharibə dövründə Azərbaycanın Mingəçevir elektrik stansiyasının vurulması ilə bağlı çağırışlar edən deputat Naira Zohrabyan, o cümlədən Azərbaycan Milli Məclisinin deputatı Tural Gəncəliyevi "Twitter" sosial şəbəkəsində təhdid edən Lilit Gyozalyan həmin nifrət siyasətinin davamçılarındandır.

Belə ki, daim azərbaycanlılara qarşı irqi çıxışlar edən Robert Koçaryan 16 yanvar 2003-cü il tarixində Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında çıxışı zamanı azərbaycanlıların və ermənilərin "etnik və genetik baxımdan uyğunsuz olmaları" kimi irqçi fikirlər söyləmiş və Qarabağdakı erməni əhalisinin Azərbaycan dövləti daxilində yaşamasının mümkün olmadığını açıqlamışdı. Bu hadisədən sonra - yanvarın 30-da Strasburqda Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynovun sualına cavab verən R.Koçaryan demişdi: "Bəli, mən, əslən Dağlıq Qarabağdanam. Bəli, mən döyüş əməliyyatlarında iştirak etdiyim və bu gün nail olduğumuz nəticələr üçün fəxr edirəm".

Birinci Qarabağ müharibəsi dövründə şəxsən iştirak etmiş və erməni gənclərlə görüşlərində daim fəxr hissi ilə bu hadisələrdən danışan Ermənistanın sabiq prezidenti Serj Sarkisyan "Xocalıdan qabaq azərbaycanlılar elə fikirləşirdilər ki, onlarla zarafat edirik. Onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməz. Biz bu stereotipi qıra bildik" və "Biz öz missiyamızı yerinə yetirdik. Qarabağı düşmənlərdən azad etdik. İndi isə növbə sizindir" kimi münaqişəni alovlandıran nitqlərdən istifadə edərək gələcək nəsillərə öz nifrət siyasətini təlqin edib.

İnformasiya texnologiyalarının imkanlarından istifadə etməklə qatı şəkildə anti-Azərbaycan siyasətinin aparılması, azərbaycanlılara qarşı nifrət nitqi, Ermənistan cəmiyyətində azərbaycanofobiyanın yaradılması düşmənçiliyin yenidən təşəkkül tapmasına, yeni cinayətlərin törədilməsinə zəmin yaradan amillərdəndir.

Təəssüf hissilə qeyd edilməlidir ki, bu kimi siyasət ancaq iki ölkədə deyil, həm də bütün regionda insan hüquqlarına, sülhün və təhlükəsizliyin təmininə təhlükə yaradır.

Beynəlxalq müstəvidə tanınan tarixi torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycan münaqişə səhifəsini birdəfəlik qapatmağa və Ermənistanı bölgədə sülhü və təhlükəsizliyi bərqərar etmək üçün regional əməkdaşlığa qoşulmağa çağırır.

Təəssüf ki, Ermənistanın hərbi-siyasi hakimiyyəti bu əməkdaşlıq çağırışlarına reaksiya verməyərək beynəlxalq miqyasda Azərbaycana qarşı nifrət hissini gücləndirən təbliğat aparmaqda israrlıdır.

Mən insan hüquqları üzrə komissar olaraq, sizə müraciət edərək xahiş edirəm ki, Ermənistan ombudsmanına, fəal vətəndaş cəmiyyəti institutlarına milli ədavəti qızışdıran, iki millət arasında nifrət hissini artıran bəyanatlara artıq son qoymaq, əksinə, insan hüquqlarının etibarlı şəkildə müdafiəsinə xidmət edən, sülh şəraitində birgə yaşayışın yenidən bərpa edilməsinə yönələn fəaliyyət göstərmələri üçün çağırış edəsiniz. Sözsüz ki, bu, ancaq Azərbaycan və Ermənistanda deyil, bütün regionda sülh və sabitliyin bərqərar olması, heç bir ayrı-seçkiliyə yol vermədən, bütün insanların hüquqlarının etibarlı müdafiəsi üçün vacib şərtdir".

# Ən nəhəng layihə də uğur qazanır - onu İlham Əliyev dəstəkləyirsə!

## Azərbaycanın və Türkmənistanın birgə işlədikləri "Dostluq" yatağı hər iki ölkəyə xeyir-bərəkət gətirəcək

Əvvəli 1-ci səh.

Həm Azərbaycanın, həm də Türkmənistanın milli iqtisadiyyatının dinamik inkişafına, yeni iş yerlərinin yaradılmasına, insanların həyat səviyyəsinin yüksəldilməsinə yeni təkan verilir.

Prezident İlham Əliyev Azərbaycanın və Türkmənistanın ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlandığını vurğulayaraq belə demişdir: "Bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək... Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq".

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov da enerji sahəsindəki əməkdaşlığı yüksək dəyərləndirir: "Bu gün Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər ardıcıl və dinamik inkişaf edir. Biz beynəlxalq arenada ümumi sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin tərəfdarları kimi uğurla əməkdaşlıq edirik. Bizim ölkələr qlobal gündəliyin prinsipial əhəmiyyətli mövzusu olan enerji təhlükəsizliyi, beynəlxalq enerji axınlarının konfiqurasiyası barədə təsəvvürlər və bütövlükdə dünya energetikasının arxitekturası haqqında eyni fikirdədirlər".

Hər iki ölkənin həyatında əlamətdar olan bu tarixi hadisə, qeyd edildiyi kimi, dostluğun və əməkdaşlığın daha da möhkəmləndirilməsinə istiqamətlənib. Başqa sözlə, imzalanan sənəd strateji istiqamətdə - enerji sahəsində Türkmənistan-Azərbaycan tərəfdaşlığının getdikcə genişlənməsinə xidmət edir ki, bunun üçün də zəruri olan bütün şərtlər mövcuddur. Yəni həm siyasi iradə, həm yüksəksəviyyəli texniki və texnoloji təchizat, peşəkar kadrlar və neft-qaz sahəsində zəngin iş təcrübəsi var. Xəzərdə birgə uğurlu fəaliyyətin əsas rəhni isə Azərbaycan və türkmən xalqlarının çoxəsrlik möhkəm qardaşlıq telləridir.

İki ölkə digər sahələrdə də əməkdaşlığı və tərəfdaşlığı davam etdirirlər. Tərəfdaşlığın mühüm bir sahəsi nəqliyyat sferasıdır. Belə ki, Türkmənistan və Azərbaycan bu gün əfqanıstanlı, gürcüstanlı və türkiyəli tərəfdaşları ilə birlikdə Asiya ilə Avropa arasında ən mühüm kontinental magistrala çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli fəaliyyəti üzərində ardıcıl iş aparırlar. Azərbaycan və Türkmənistan həm də Xəzər dənizi-Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarları sırasındadırlar.

Nəqliyyat sahəsində əməkdaşlıq həm bu iki ölkə, həm də onların qonşuları üçün böyük perspektivlər açır. Prezident İlham Əliyevin dediyi kimi: "Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq".

Nəqliyyat sferası da enerji sferası kimi ölkələri birləşdirir. Azərbaycan və Türkmənistan Xəzər regionunda möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraiti yaradılmasında xüsusi səylər göstərir və töhfələr verirlər.

İki ölkə arasında bütün səviyyələrdə, ilk növbədə prezidentlər səviyyəsində sıx siyasi qarşılıqlı fəaliyyət olmasaydı, bütün bunlar mümkün olmazdı. Odur ki, Prezident İlham Əliyevin bunu vurğulaması təsadüfi deyil: "Səy göstərmişik ki, ölkələrimizin müvafiq strukturları məhz prezidentlərin onlara göstərdiyi kimi - əməkdaşlıq, dostluq, qarşılıqlı dəstək və qarşılıqlı maraqların düzgün başa düşülməsi ruhunda işləsinlər". Ona görə də "Dostluq" çox uğurlar gətirəcək və Prezident İlham Əliyev buna tam inanır.

Prezident Qurbanqulu Berdiməhəmmədov də əmindir ki, "Dostluq" yatağında Türkmənistanın və Azərbaycanın birgə işi uğurlu və səmərəli olacaq. Çünki bu işi İlham Əliyev dəstəkləyir!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bizə qələbə sevinci yaşadan şəhid və qazilərə Naftalanda xüsusi diqqət göstərilir









44 günlük Vətən müharibəsində qazandığımız qələbə xalqımızın 30 illik yurd həsrətinə son qoydu. Bu tarixi qələbə isə şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına əldə edildi. Buna görə indi hər bir Azərbaycan vətəndaşı bizə qələbə sevinci yaşadan şəhidlərimizə və qazilərimizə borcludur.



Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, eləcə də Vətən müharibəsi iştirakçılarına dövlət tərəfindən davamlı olaraq xüsusi diqqət və qayğıkeşlik göstərilir. Onların mövcud problemlərinin həll edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranların sosial ehtiyacları dövlət tərəfindən qarşılanır, eləcə də Vətən uğrunda canından keçmiş şəhidlər, bu yolda sağlamlığını itirmiş qazilər mənzil və avtomobillərlə təmin edilirlər.

Dövlətin bu sahədə həyata keçirdiyi sosial siyasət Naftalanda da icra ounur. Şəhər icra hakimiyyəti tarixi qələbənin qazanılmasında əməyi olan hər kəsi diqqət mərkəzində saxlayaraq onlara xüsusi qayğıkeşlik göstərir. ŞİH-in başçısı Vüqar Novruzov deyir ki, həmin dövrdə icra hakimiyyətinin binası hərbi qərargahı xatırladırdı: "Kollektiv 24 saat iş başında idi. Bütün kabinetlərdə yataqlar qoyulmuşdu. Heç kim evə getmək istəmirdi. Cəbhəyə getmək üçün yazılan könüllülərin də sayı-hesabı yox idi. Bütün bunların bir səbəbi də Naftalanın döyüş bölgəsinə yaxın ərazidə yerləşməsi idi. Biz inanırdıq ki, qalib gələcəyik. Belə də oldu. Müzəffər Ordumuz Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı yağı düşməndən azad etdi. İndi xalqımız azad nəfəs alır. Ölkə başçısının işğaldan azad olunmuş bölgələrə tez-tez səfər etməsi və bu ərazilərdə həyata keçiriləcək yenidənqurma işlərinə start verilməsi hər bir naftalanlıda da ruh yüksəkliyi yaradıb".

Qeyd edək ki, 44 günlük müharibə dövründə Naftalan 3 hərbi, 5 nəfər mülki şəhid verdi. Şəhərdə şəhid ailələrinin, eləcə də qazilərimizin sosial problemlərinin həll edilməsi, həmçinin şəhid adlarının əbədiləşdirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. İlk növbədə bu kateqoriyadan olan insanların məşğulluğunun təmin edilməsi diqqət mərkəzindədir. Məsələn, şəhid Fərid Adıgözəlovun atası İlqar Adıgözəlov və anası Rahilə Adıgözəlova "DOST" mərkəzində işlə təmin edilmişlər. Şəhidin həyat yoldaşı Fidan Adıgözəlova isə ixtisasına uyğun körpələr evi-uşaq bağçasında tərbiyəçi işləyir. Bundan başqa, qazi Qiyas Tağıyevin həyat yoldaşı Lalə Tağıyeva da korpələr evi-uşaq bağçasında işə düzəldilmişdir.

Məlum olduğu kimi, Vətən müharibəsi dövründə ermənilər Azərbaycanın müxtəlif ərazilərində mülki əhalini də mərmi atəşinə tutmuşdu. Atılan həmin mərmilərdən biri Naftalanda Qurbanovlar ailəsinin yaşadığı evə düşərək onu tamamilə dağıtmışdır. Ailənin 5 üzvü isə həlak olmuşdur. İndi həmin evin yerləşdiyi küçə Qurbanovlar adlanır. Söz düşmüşkən, şəhidlər Bəhruz Quliyevin, Fərid Adıgözəlovun və Elyəddin Cəfərovun adlarının da əbədiləşdirilməsi üçün şəhərin 3 küçəsinə onların adları verilmişdir. Hazırda şəhid Bəhruz Quliyevin adına bulaq kompleksi inşa olunur və kompleks yaxın günlərdə istifadəyə veriləcək. Bundan başqa, şəhidin ailəsinin mənzilə olan ehtiyacı nəzərə alınaraq növbəyə götürülmüdür.

Ümumiyyətlə, Naftalanda şəhid ailələrinin və qazilərin müraciətlərinə həssaslıqla yanaşılır. İndiyədək bu kateqoriyadan olan insanlarla 15-dən artıq görüş keçirilmişdir. Həmin görüşlərdə qaldırılan məsələlərin hamısı həll olunmuşdur. O cümlədən şəhid Bəhruz Quliyevin ata evinin yerləşdiyi küçə və şəhid Bəxtiyar Aslanovun anasının yaşadığı ev təmir edilmişdir.

Şəhid Fərid Adıgözəlovun atası İlqar kişi və anası Rahilə xanım deyirlər ki, oğlanları 28 yaşında idi. Bir qız övladı təzəcə olmuşdu. Adını Gülsurə qoymuşdu. Övladını çox sevirdi. Ancaq ondan doymadı. Valideynlər oğlanlarının Vətən uğrunda şəhid olmasından qürur duyduqlarını söylədilər: "Var olsun dövlətimizi, bizi həmişə diqqətdə saxlayır. Fəridin həyat yoldaşı Fidanı isə işlə təmin ediblər".

Öyrəndik ki, Fərid Adıgözəlov Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub. Ölkə başçısının sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunması uğrunda" medalları ilə təltif edilib.

Vətən müharibəsi qazisi İlkin Tağıyevin döyüşlərdə aldığı güllə yarası hələ tam sağalmayıb. O, 2011-ci ildə orta məktəbi bitirəndən bir il sonra həqiqi hərbi xidmətə gedib. Xidməti başa vurduqdan sonra hərbdə qalmaq arzusu ilə rabitəçi ixtisasına yiyələnib. Aprel döyüşlərində də iştirak edən İlkin "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülüb. Vətən müharibəsi başlayan gündən cəbhədə olan qazimiz Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 5-də Suqovuşanda yaralanıb. Ağır yaralandığı üçün bir neçə dəfə əməliyyat olunub. İndi özünü yaxşı hiss edir. Deyir, sağ olsun şəhər rəhbərliyini. Həm müalicəmdə, həm də dərmanların alınmasında problemi olmayıb. Ümumiyyətlə, Naftalanda yaralı qazilərin sağlamlığının bərpa edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Hazırda şəhərdə fəaliyyət göstərən bəzi sağlamlıq mərkəzləri şəhid ailələrinin və qazilərin ixtiyarına verilib.

Onlardan biri də "Möcüzəli Naftalan"sağlamlıq və istirahət mərkəzidir. Mərkəzin direktoru Qoca Əmiraslanovdan aldığımız məlumata görə, hazırda burada müalicə olunanların hamısı şəhid ailələri və qazilərdir. Onlar Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin göndərişi ilə gəliblər. Mərkəzdə onlar müxtəlif tibbi xidmətlə yanaşı, naftalan vannaları qəbul edir, fizioterapiya müalicələri alırlar.

Əslən Xankəndidən olan ikinci qrup əlil olan hərbçi İlham Hətəmov mərkəzin işindən razıdır. Şəhid Binnət Həsənovun həyat yoldaşı Kubra Həsənova isə 4 ildir ki, burada müalicə olunur. İndi özünü çox yaxşı hiss edir.

Belə tibb müəssisələrindən biri də Naftalan Reabilitasiya Mərkəzidir. 25 çarpayılıq mərkəzdə 80-dən çox müharibə iştirakçısına yardım götərilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhid baba və nəvənin xatirəsinə abidə-bulaq kompleksi inşa olunub

Abşeron rayonunun Qobu qəsəbəsində şəhid baba və nəvənin xatirəsini əbədiləşdirmək məqsədilə abidə-bulaq kompleksi inşa olunub.




Kompleksin açılışında bildirilib ki, Birinci Qarabağ müharibəsində baba Gülverdi Hüseynov, İkinci Qarabağ savaşında isə onun nəvəsi Gülverdi Qasımov şəhidlik zirvələrinə yüksəliblər. Tədbirdə iştirak edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova qeyd edib ki, onların qəhrəmanlıqları sayəsində torpaqlarımız düşməndən azad olunub. Ölkədə şəhid ailələrinə və ümumilikdə müharibə iştirakçılarına dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışan İ.Gülməmmədova onların qarşılaşa biləcəyi bütün problemlərin həlli istiqamətində ciddi tədbirlərin həyata keçirildiyini deyib.



Sonra qəsəbə ağsaqqallarından Məhəbbət Qasımov, xeyriyyəçi Ağasəlim Məmmədov, nəvə Gülverdinin təhsil aldığı Qobu 2 nömrəli tam orta məktəbin direktoru Səkinə Abbasova çıxış edərək xatirələrindən, şəhidlərin döyüş yollarından danışıblar.

Sonda şəhidlərimizin ruhuna dualar oxunub

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Kolumbiyada etirazlar zamanı 846 nəfər yaralanıb



Ötən ayın 28-dən başlayaraq Kolumbiyanın bir sıra şəhərlərində hökumət əleyhinə etirazlar keçirilir. İnsanlar ölkədə vergi islahatının əleyhinə çıxırlar. RBK telekanalının xəbərinə görə, ölkənin ən iri şəhərlərində - Boqota, Medelyin, Kali və Pereyrada bir həftədir nümayişlər davam edir.

Kolumbiyanın milli müdafiə naziri Diyeqo Molano bildirib ki, hökumət əleyhinə etirazlar zamanı 846 nəfər yaralanıb.

Nazirin dediyinə görə, etirazçıların hərəkətləri nəticəsində bir polis kapitanı qətlə yetirilib, hüquq mühafizə orqanlarının 540 əməkdaşı və 306 mülki şəxs yaralanıb, onlarla obyekt və binaya ziyan vurulub.

BBC telekanalının verdiyi xəbərə görə, etirazlar zamanı azı 19 nəfər həlak olub.

## Olimpiada iştirakçılarına "BioNTech" və "Pfizer" peyvəndləri vurulacaq

ABŞ-ın "Pfizer" şirkəti və onun Almaniyadakı tərəfdaşı "BioNTech" Tokioda keçiriləcək Yay Olimpiya Oyunları iştirakçılarının vaksinasiyası üçün öz peyvəndlərini təqdim etmək barədə Beynəlxalq Olimpiya Komitəsi ilə saziş imzalayıb. Bu barədə "BioNTech" şirkətinin saytında məlumat verilib.




Bildirilir ki,"Pfizer" və "BioNTech" kompaniyaları 2021-ci il iyulun 23-də Tokio şəhərində başlanması planlaşdırılan Olimpiya və Paralimpiya oyunlarında iştirak edəcək idmançıların və nümayəndə heyətlərinin COVID-19 əleyhinə vaksinasiyasını peyvəndlə təmin etmək üçün Beynəlxalq Olimpiya Komitəsi ilə memorandum imzalayıb".

## ABŞ-da neft ehtiyatları azalır

Amerika Birləşmiş Ştatlarında xam neft ehtiyatları azalır. Bu barədə ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EIA) hesabatında məlumat verilir.

Bildirilir ki, ötən hesabat həftəsində ölkədəki neft ehtiyatları 8 milyon barel (1,6 faiz) azalaraq 485,1 milyon barel olub. Bazar proqnozları ehtiyatların 2,2 milyon barel artacağı istiqamətində idi. Əvvəlki həftə neft ehtiyatları 100 min barel artmışdı.

ABŞ-ın strateji neft ehtiyatları da 1 milyon barel azalaraq 633,4 milyon barel olub. Benzin ehtiyatları isə hesabat həftəsində 700 min barel (0,1 faiz) artaraq 235,8 milyon barel təşkil edib. Bazar proqnozları da ehtiyatların artacağı istiqamətində idi. Benzin ehtiyatları əvvəlki həftə 100 min barel çoxalmışdı.

# Paşinyan ona qarşı çıxan generalları sıradan çıxarmağa başladı

Əvvəli 1-ci səh.

Ter-Petrosyan bu barədə özünün "ilur.am" saytında dərc etdirdiyi məqaləsində yazıb ki, o, hələ martın 25-də "Ermənistan və Dağlıq Qarabağın keçmiş prezidentlərinin" onun təşəbbüsü ilə keçirilən görüşündə Koçaryana və Sarkisyana bu barədə rəsmən müraciət edib. Amma Robert Koçaryan təklifdən dərhal imtina edib. O deyib ki, bu təşəbbüsə qoşulsa, özünün yaratdığı "Ermənistanın xilası" hərəkatına xəyanət etmiş olar. Serj Sarkisyana gəlincə isə o, Ter-Petrosyanın sözlərinə görə bu barədə öz rəyini bildirməyib. Bununla belə Serj Sarkisyanın ofisindən Ter-Petrosyanın belə bir məqaləni görüşün başqa iştirakçılarını xəbərdar etmədən dərc olunmasına təəccübləndiklərini bildiriblər.

Levon Ter-Petrosyanın təşəbbüsünə N.Paşinyan da münasibət bildirib. Parlamentdə keçirilən hökumət saatında öz komanda üzvlərinin suallarına cavab verən Paşinyan keçmiş prezidentin təklifini "bandokratik inqilab" adlandırıb: "Özünün müxalif siyasi fəaliyyəti zamanı Levon Ter-Petrosyan, ifadəli demək mümkündürsə, iki dəfə hakimiyyət dəyişikliyi və ya inqilab etməyə cəhd göstərib. Birincisi 2008-ci ilin xalq və ya demokratik inqilabı idi və bizə məlum və bəlkə də naməlum səbəblərdən alınmayıb. İkincisi isə burjua-demokratik inqilabı idi və onun da taleyi hamıya məlumdur. Görünür, cənab Ter-Petrosyan bir də cəhd göstərmək və bu dəfə "bandokratik inqilab" etmək fikrinə düşüb. Bunu izah etmək üçün bir-iki başqa ifadə də var, amma onları vəzifəmə görə səsləndirə bilmirəm".

Paşinyan deyib ki, bütün bu müddət ərzində Ter-Petrosyanın bacardığı yeganə iş Koçaryan və Sarkisyanı hakimiyyətə gətirmək olub. İndi isə görünən budur ki, seçkilər ərəfəsində müxalifət birləşə bilmir. Bu da Paşinyan və komandasının qələbə şanslarının artmasına xidmət edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

◆ Jurnalist araşdırması

# Mənəviyyata qarşı teleterror

*"Biz nə istəyiriksə, nə hazırlayırıqsa, tamaşaçı da ona baxmalıdır" iddiası ilə fəaliyyət göstərən telekanallara "Dayan!" deyən yoxdur!*

*Əvvəli 1-ci səh.*

Axı milyonlarla manat aşkar, ondan daha çox isə gizli (yəni rəsmiləşməyən) reklam gəlirləri əldə edən TV-lər özlərinin inkişafı üçün tədbirlər görmürlər. Əlbəttə, vəziyyətdən çıxış yolu olaraq xarici kanallara baxa bilərik. Amma bu halda, övladlarımızın milli ruhda yetişməsində telekanallar normal rol oynaya bilirlərmi? Onlar Azərbaycan xalqına, xüsusilə gənclərə yaxşı nə aşılaya bilərlər?

Yaxşı nələrinsə öyrədilməsi üçün telekanalların insanların şəxsi həyatından əyləncə düzəldərək onları ictimailəşdirmək əvəzinə bu tip ailə problemlərinin qarşısının alınması üçün daha məntiqli proqramlar hazırlaması, ucuz şou verilişləri daha səviyyəli proqramlarla əvəz etməsi, ciddi mövzuya həsr olunmuş diskussiyalar aparması doğru olmazmı?

## Televiziyaların intellektual səviyyəsi də aşağıdır

Teletənqidçi, filologiya elmləri doktoru, Əməkdar jurnalist Qulu Məhərrəmli deyir ki, bəzi kanallarda keyfiyyətcə aşağı olan müəyyən proqramlar bağlanılıb. Amma təəssüf ki, hələ də Azərbaycan televiziyasında şou proqramlar lazımi səviyyədə hazırlanmır: "Xüsusən insan talelərinin şouya çevrilməsi, ailə-məişət məsələlərinin qabardılması, insanların neqativ əməllərinin sanki nümunəvi əməl kimi təqdim edilməsi meyilləri var. Televiziyalar pul qazanmaqla yanaşı, ictimai əxlaqı da yaddan çıxarmalı deyillər. Çünki Azərbaycan telekanallarının ən ciddi yaralarından biri şou proqramların aşağı səviyyəli, bəsit olmasıdır ki, onlar da cəmiyyətə çox mənfi mesajlar verir. Məsələn, intihar hallarının, azyaşlılarla bağlı cinayətlərin, ailədaxili problemlərin az qala bir dəyər kimi təqdim olunması biabırçılıqdır. Televiziyalar bundan çəkinməlidir".

Teletənqidçi hesab edir ki, hazırda televiziyanın qarşısında duran ən əsas məsələ intellektual səviyyənin qaldırılmasıdır. Televiziyalar bunun üçün bəzi Avropa layihələrini çəkinmədən tətbiq etməli, maraqlı sorğu proqramları hazırlamalı, xüsusilə dövlət büdcəsindən maliyyələşən televiziyalar auditoriyanı öz ardınca aparmalıdırlar.

Qulu Məhərrəmli cox ciddi məsələlərdən biri kimi gənc aparıcıların peşəkarlıq səviyyəsinin aşağı olduğunu söyləyir: "Bəzən görürsən ki, aparıcı gözəl görünüşlüdür, yaxşı kostyum geyinib. Amma sual verəndə məlum olur ki, bu adam lazım olan hazırlıq səviyyəsi keçmədən efirə çıxıb, o, verilişin öhdəsindən gələ, sualları qoya bilmir. Mən bunu xəbər proqramlarında gedən reportyor işinə də aid edirəm".

Müsahibimiz fikirləşir ki, Azərbaycan televiziyasının digər ən ciddi problemlərindən biri cəmiyyətdəki intellektual ziyalı təbəqəsinin görünməməsidir: "Televiziyalar müəyyən mənada vitrindir. O vitrinə ən yaxşı məhsullar qoyulmalıdır. Amma bu, bizim televiziyalarda görünmür".

## Jurnalist, yoxsa aktyor verilişi?

Media eksperti Zeynal Məmmədli hesab edir ki, Azərbaycanda əyləncə verilişləri ilə yanaşı, xəbər proqramlarının, jurnalist verilişlərinin də səviyyəsi çox aşağıdır.

Onun sözlərinə görə, Azərbaycan televiziyalarında qəribə bir tendensiya müşahidə edilir, hibrid, yəni qarışıq verilişlər hazırlanır: "Bilmirsən ki, bu, jurnalist, yoxsa aktyor verilişidir. Xəbərdən əyləncə şousunadək olan bütün elementlər bir-birinə qatılır və bəsit bir veriliş yaranır. Televiziyada aydınlatma, xəbər, maarifçi jurnalistikasına verilən tələblər başqa, əyləncə verilişlərinə qoyulan tələblər fərqlidir. Reportyorun hadisə barədə xəbər verməsi başqa məsələ, onun mahiyyətini açıqlaması bir başqa, bununla bağlı əyləncəli nəsə vermək isə tamam başqa məsələdir. Amma bizdə bunların hamısı bir-birinə qatılır. Hələ səhər proqramlarına, xəbərlərə baxın... Burada naşılıq qaynaşır".

Mütəxəssisin qənaətincə, ciddi mövzular elə biçimdə təqdim edilə bilər ki, o, bayağı proqramlardan qat-qat üstün və baxımlı olar: "Doğru zaman, doğru mövzu, doğru adam, doğru sual tapılarsa və bunların hamısı üst-üstə düşərsə, jurnalist üzərinə düşən missiyanın öhdəsindən gələ bilər. Amma jurnalistin özü də peşəkar olmalıdır. O, məsələnin aydınlaşdırılması üçün doğru adamı tapa bilirmi?"

## Diskussiyalarda aparıcılar qonaqlar üçün mühazirə oxuyur

Elə Qulu Məhərrəmli də telekanalların ən böyük problemlərindən birinin xəbər proqramlarının keyfiyyətcə çox aşağı olmasını sayır. O, xəbər proqramlarında şou elementlərinin verilməsini çox yanlış hesab edir: "Biz xəbər proqramına baxanda ölkədə nələrin baş verdiyini görürükmü? Xəbər bizdə bununla bağlı təsəvvür yaradır, ya yox? Təəssüf ki, buna həmişə müsbət cavab vermək olmur. Halbuki "Teleradio yayımı haqqında" qanunda bununla bağlı tələblər var, amma təəssüf ki, bu, televiziyalarda gözlənilmir. Televiziyalar bir çox hallarda internet kanallarına uduzurlar".

Qulu Məhərrəmli deyir ki, Azərbaycan televiziyasında ciddi problemlərin qaldırıldığı səviyyəli tok-şouların azlığı bugünün əsas problemlərindəndir: "Bizdə millətin problemləri ilə bağlı səmimi dialoqlar aparılmır. Diskussiyalarda iştirak edən adamların hamısı elə bil ki, müəyyən qəlibə salınıb. Onların baxışı da, intonasiyası da eyni olur. Əlbəttə, bu, belə olmalı deyil. Ən ciddi problemləri xüsusi təbliğat çaları vermədən, danışanları yönəltmədən həll etmək olar. Bəzən diskussiyalarda aparıcılar dəvət olunan qonaqlar üçün mühazirə oxuyurlar ki, bu, belədir, o, belədir. Məlum olan şeyləri də elə pafosla deyirlər ki, adam buna heyrət edir - doğrudanmı diskussiyaya gələnlər belə bəsit şeyləri bilmirlər?!"

Qulu Məhərrəmli hesab edir ki, televiziyalarda diskussiya proqramlarının sayı artırılmalıdır. Lakin özəl televiziyalar diskussiya proqramlarından qaçırlar.

## Dövlət siyasətinin xalqa çatdırılması üsulu dəyişdirilməlidir

Milli Məclisin deputatı Fazil Mustafanın fikrincə, televiziyalar təsadüfi adamların ekrandan cəmiyyətə siyasi, iqtisadi, məişət və mədəni sahə üzrə hansısa mesajlar verməsi meylindən uzaqlaşmalıdır. Çünki televiziya efirindən səslənən fikirlər çox vaxt dövlətin fikri kimi anlaşılmağa başlanılır.

Bu da dövlətə münasibətdə mənfi baxışların formalaşdırılmasına rəvac verə bilər: "Televiziyalarda tanınmış düşüncə adamlarının proqram aparması debatların keyfiyyətinin yüksəlməsinə imkan verə bilər. Bir çox hallarda aparıcı özü müstəqil sual verə bilmir, sualları yalnız əlinə verilmiş vərəqdən oxuyur. Bununla jurnalistika inkişaf edə bilməz. Peşəkar isə mövzuya fərqli formada yanaşa bilir və problemin üzə çıxarılması üçün danışıqlardan yeni sual çıxara, ortaya yeni yanaşma qoya bilir".

Tamaşaçılar üçün televiziyalarda ən darıxdırıcı proqramların siyasi verilişlər olması da sirr deyil. Kanalda siyasi verilişlərin yayımlandığını görən tamaşaçıların bir çoxu avtomatik olaraq onu dəyişirlər. Niyə? Bu, özü elə sual doğurmurmu?

## Siyasi verilişlərdən tamaşaçı niyə qaçır?

Fazil Mustafa bu fikirdədir ki, televiziyaların baxımlılığının artırılması üçün əsasən siyasi verilişlərin, dövlət siyasətinin xalqa çatdırılması üsulu, formatı dəyişdirilməlidir. Ənənəvi üsulla dövlət siyasətinin xalqa çatdırılması artıq keçərli deyil: "Tamaşaçı bu cür danışığı monoton üslub kimi qəbul edir. Bu üslub təsiredici gücə də sahib olmur. Kanalların siyasi verilişlərdə rəsmi üsluba üstünlük verməsi ona baxımlılığı xeyli azaldır. Belə üslubda çatdırılan məsələ effekt vermir. Bizim televiziyalarda daha çox hər şeyin doğru-düzgün olmasının təsdiqlənməsindən söhbət gedir. Bu yanaşmanı dəyişmək lazımdır".

Deputatın qənaətincə, televiziyalarda dövlət siyasətinin təsdiqindən daha çox onun müzakirə mühitində izah edilməsinə ehtiyac var. Çünki izah nəticəsində insanlar dövlət siyasətinin düzgünlüyünə daha çox inanırlar.

Fazil Mustafa düşünür ki, siyasi verilişlərin baxımlılığını artırmaq üçün onlara hansısa səviyyəli şou elementlərinin əlavə edilməsi də mümkün ola bilər.

Deputat siyasi debatlarda fərqli mövqelərin müzakirəsinin genişləndirilməsinə də ehtiyac duyur: "İnsanların cəmiyyətin problemlərinin televiziya vasitəsilə dilə gətirildiyini görməsi onların televiziyaya marağını artıracaq. Bununla yanaşı, canlı yayım formatını genişləndirmək lazımdır. Canlı yayımın inandırıcılığı daha çox olur. Bu, daha çox siyasi ideoloji xarakterli verilişlərdə önəm daşıyır".

Televiziya sahəsi üzrə çox geniş islahatların aparılmasını zəruri sayan Fazil Mustafa bildirir ki, televiziyaların maddi-texniki baza standartları müəyyən olunmalıdır. Bu baxımdan müəyyən standartlara cavab verməyən televiziyalarla bağlı müəyyən addımların atılması vacibdir. Televiziyaların gəlirlərinin artırılması üçün reklam bazarını genişləndirməyə imkan yaratmaq lazımdır.

Fazil Mustafa hesab edir ki, televiziyalarda hazırda sayı olduqca az olan elmi, sənədli verilişlərin sayı artırılmalıdır: "Hamı asan varianta qaçır. Müğənni dedi-qodusu, yaxud komediyalara oxşar layihələrin cəmiyyətə sırınması baş verir. Bu da izləyici auditoriyasını bayağılaşmağa məhkum edir".

## Xarici telebazara çıxarılası bir teleməhsul yoxdur

Bəzən hansısa kanalda reytinq toplaya bilməyən veriliş tam heyəti, eyni məzmunu, hətta eyni ekspertləri ilə başqa bir kanalda yayımlanmağa başlayır. Əgər bir veriliş tamaşaçı rəğbəti qazana və cəmiyyətə düzgün fikirlər ötürə bilmirsə, niyə onun digər kanalda da yayımlanmasına imkan verilir?

Bu fikirlə tam razı olan Qulu Məhərrəmli bildirir ki, belə məsələlərə görə tamaçıların arasında hətta televiziyaların hamısını bir adamın idarə etdiyini düşünənlər də var: "Çünki mövzu, ona yanaşma tərzi, verilişin iştirakçıları belə eyni olur. Bəzən bir televiziyada bağlanan veriliş başqa birində açılır. Yaxud vaxtilə qapanmış bir televiziyada olan layihə arxivdən çıxarılıb hansısa televiziyada tətbiq edilir.

Belə hesab edilir ki, şou proqramını ancaq bu adam aparmalıdır. Başqa aparıcı yetişdirmək olmazmı?! Əlbəttə ki, bu məsələlərin hamısı xeyli sual doğurur. Bu tendensiyaya yol vermək olmaz. Məsələlərin həlli ilə ciddi, peşəkar səviyyədə məşğul olmaq lazımdır ki, həm televiziyalarımızın baxımlığını artıraq, həm də insanlara estetik zövq verə bilək. Amma təəssüf ki, hələ bəlli standartlar əsasında hazırlanan, xarici telebazara çıxara biləcəyimiz bir teleməhsul görmürəm".

## Hədəfdə gənclərdir

Qulu Məhərrəmli isə digər mühüm problem kimi telekanalların gənclərə aşıladığı mənfi tendensiyaları göstərir. O, qeyd edir ki, Azərbaycan düşüncəsi üçün xarakterik olmayan mövzuların idbar şəkildə seriallarda təqdim olunması gənclərimizin mənəviyyatına çox ciddi zərbə vurur və gənclərin düşüncəsini zədələyir: "Belə seriallara adətən internetə çıxış imkanı olmayan şəxslər baxaraq oradakı aktyorları yamsılamağa çalışırlar. Bu cür seriallar təkcə gənclərin dilinə deyil, onların düşüncəsinə də təsir edir. Ona görə televiziyalarımızda gənclər üçün canlı, dinamik, diskussiya xarakterli problemlər qoyulmalı və ona uyğun müzakirələr aparılmalıdır".

Teletənqidçi hesab edir ki, bu hallara qarşı çox barışmaz olmaq lazımdır. Onların aradan qaldırılması isə çox ciddi islahat tələb edir.

## Tamaşaçı həqiqətənmi səviyyəsiz veriliş istəyir?

Bu gün efir vaxtlarını şit zarafatları, eybəcərləşdirilmiş ləhcələri ilə bəzəyən teleseriallarla, verilişlərlə dolduran kanallar onlara tutulan iradlara "Tamaşaçılar məhz bunu tələb edirlər" deyərək cavab verirlər. Tamaşaçı həqiqətənmi bunu istəyir? Bəlkə bayağı verilişləri tamaşaçı tələbi formalaşdırmır, əksinə, kanallar bayağı verilişlər təklif etməklə ümumi tamaşaçı auditoriyasının zövqünü korlamaqda israr edirlər?

Zeynal Məmmədli televiziya auditoriyasının bayağı verilişlər tələb etməsi fikrinin bu işin peşəkarı olmayanlar tərəfindən bəhanə kimi söylənildiyi qənaətindədir: "Televiziyalarda ciddi mövzuların verilməsi problemini yumşaltmaq üçün deyirlər ki, bu mövzulara baxılmır. Bəhanə edilir ki, auditoriya bunu istəyir, ona görə də əyləncəli verilişləri çox verməyə məcburuq. Televiziyalara sual verilməlidir: Sənin missiyan nədir, kütləni daha da kütləşdirməkdirmi? Televiziya menecerlərinin çoxu deyir ki, yaxşı verilişlərin, serialların olması üçün yaxşı maliyyəmiz olmalıdır. Amma bunların hamısı əsl mənada bəhanədir. Əgər problem maliyyədirsə, onda menecerlər məsələ qaldırsınlar ki, reklamdan gələn gəlirlər aşağı olduğu üçün o vəsaitlə keyfiyyətli məhsul hazırlaya bilmirik. Kiçik Estoniyada 200 milyon avroluq media-reklam bazarı var. Bəs Azərbaycanda media-reklam bazarı nə qədərdir? Bunu heç büdcədən maliyyələşən televiziyalar da deməyəcək, gizlədəcək. Halbuki bu rəqəmləri açıqlamaq onların borcudur. Reklam bazarı açıqlanarsa, biz pulla keyfiyyəti müqayisə edə bilərik".

## Tamaşaçı tələbatı araşdırılmır

Mütəxəssislərin rəylərindən məlum olur ki, səviyyəsiz verilişlərin hazırlanma zərurətini tamaşacı tələbatının olması ilə əsaslandıranlar əslində auditoriyanın onlardan nə istədiklərini belə bilmirlər.

Bu gün televiziyanın ən əsas problemlərindən biri proqramların auditoriya marağının müəyyənləşdirilmədən hazırlanmasıdır. Belə demək olar ki, televiziyalarda proqramlar "tamaşaçı nə istəyir, onu hazırlayaq" prinsipi ilə deyil, "biz nə istəyiriksə, tamaşaçı da ona baxsın" prinsipi ilə hazırlanır.

Zeynal Məmmədli də təsdiqləyir ki, Azərbaycanda tamaşaçıların daha çox hansı proqramlara ehtiyacının olduğu araşdırılmır. Amma dövlət büdcəsindən maliyyələşən televiziyalar belə araşdırmaların aparılmasını sifariş verməlidirlər: "Biz bunu görmürük. Auditoriyanın öyrənilməməsi ən əsas problemlərdəndir. Sosioloji sorğular insanlara öz fikrini bildirmək mədəniyyəti verir. Bizim də ciddi sosioloji sorğulara, mütəxəssis baxışına böyük ehtiyacımız var. Televiziyalar peşəkarcasına iş qurmaq istəyirsə, nəticələri nəzərə alaraq bunu etməlidirlər".

## Azərbaycan telekanalları nəyi də bilməsə, "vaxt öldürmə"ni ustalıqla bacarır

Zeynal Məmmədli qeyd edir ki, televiziyalar maraqlı, faydalı bir proqram verərsə, o, bəlli bir zamanda mütləq öz ünvanını tapacaq. Ekspert bu fikirdədir ki, televiziyada yeni konsepsiyanın uğur gətirib-gətirməyəcəyini 6 ay ərzində müəyyən etmək olur: "Amma mən bu konsepsiyanın qurulması üçün auditoriyanın öyrənilməsi cəhdlərini görmürəm. Əksinə, bütün televiziyalar başdan-başa hibrid proqramlara keçir, əyləndirmə onlar üçün birinci yerdə olur. Buna da əyləndirmə deyil, "vaxt öldürmə" deyərdim. Azərbaycan telekanalları ovundurma, əyləndirmə missiyasını "vaxt öldürmə" ilə əvəz edir və nəyi də bacarmasa, bunu çox ustalıqla bacarır. Amma kimin vaxtını öldürür?! Vaxt öldürəndə də auditoriyanın tərkibi dəyişir və auditoriya itirilir".

Zeynal Məmmədli hesab edir ki, pandemiya dövrü televiziyaya baxanların sayını kəskin artırmalı idi. Pandemiya televiziyaların auditoriyasının öyrənilməsi üçün əla fürsət yaratsa da, bu fürsət havaya uçuruldu, heç nə öyrənilmədi.

## Dövlətin maliyyələşdirdiyi telekanallar dövlətin vəsaitini havaya sovurmalı deyillər

Qulu Məhərrəmli də həmkarı ilə eyni mövqedədir. O da deyir ki, televiziyalarda əvvəllər ictimai rəyin öyrənilməsi ilə məşğul olan sosial araşdırma və sorğu qruplarının fəaliyyəti bərpa olunmalıdır: "Televiziya ictimai rəyi öyrənməlidir, xüsusilə dövlətin maliyyələşdirdiyi televiziyalar dövlətin vəsaitini havaya sovurmalı deyillər. Qəzetlər də televiziyalardan çox az yazırlar. Bu da ictimai nəzarətin olmamasının nəticəsidir. Qəzetlərin televiziyaların fəaliyyətinə təsir göstərə bilməsi üçün ayrıca icmal səhifələri, yaxud rubrikaları olmalıdır. Onlar ictimai rəyi əsas götürən qərəzsiz təhlillər yazmalıdırlar. Bizdə televiziya tənqidi də axsayır. Çünki indi heç kim tənqid yazmaq istəmir. Buna baxmayaraq, ölkədə televiziya tənqidini inkişaf etdirməliyik ki, bunun bir effektini görək".

## Vətənpərvərlik, Qarabağ mövzusu telekanallardan uzaq düşüb

"Sizin kanalları haçan açırıqsa, orada həmişə müğənniləri, aktyorları görürük, deyib, gülüb, oynayırlar, Qarabağla bağlı verilişlər demək olar ki, verilmir".

Bir necə il əvvəl İranda olarkən orada yaşayan, Azərbaycan kanallarının izləyicisi olan bir azərbaycanlının təəssüflə dediyi bu fikri xarici auditoriyanın ümumi rəyi kimi təqdim etmək nə qədər düzgündür, bilmirik. Amma bu fikrə televiziyalarımıza kənardan baxan həmin auditoriyanın fərqli rəyi olacağına da inanmırıq.

Əyləncə proqramlarının, bayağı serialların önə çəkildiyi, milli-mənəvi dəyərlərin dəyərsizləşdirilməsi hesabına ətrafına tamaşaçı toplamağa, bununla da özünü reytinq birincisi etməyə çalışan televiziya kanalı üçün vətənpərvərlik necə öndə ola bilər ki!

30 ilə yaxın torpaqları işğal altında olan Azərbaycanın televiziya kanallarında bir tamaşaçı kimi gördüyümüz həqiqətlərdən biri vətənpərvərliyin tamamilə arxa plana keçirilməsi, efirlərin hər gün reklama ehtiyacı olan "sənətçi"lərlə, mətbəx verilişləri ilə, tamaşaçısını yalnız bayağı ifadələri ilə güldürməyə çalışan seriallarla bəzədilməsi oldu.

Torpaqlarımızın işğalı demək olar ki, yalnız onların işğalı günlərində yada düşdü, Qarabağ həqiqətləri televizya ekranlarından nəinki dünyaya, heç özümüzün gənc nəslinə belə yetəri qədər, səviyyəli şəkildə təqdim edilmədi. Kanalın yalnız öz vəsaiti hesabına deyil, hətta dövlətin ayırdığı vəsait hesabına çəkilən teleseriallarda da məişət məsələlərinə yer verildi, Qarabağ mövzusu, onun ağrılarının qoyduğu izlər isə yada düşmədi.

Televiziya öz tamaşaçısını müəyyən qədər Vətən müharibəsi zamanında tapdı. Cəbhədən xoş xəbərlər gözləyən tamaşaçı televiziyaya olan inamını hələ də itirmədiyi üçün onun qarşısında əyləşərək düzgün xəbəri yalnız ondan almaq istədi. Lakin bu vəziyyət müharibədən sonra da davam etdimi?

Qulu Məhərrəmli deyir ki, müharibə vaxtında saytlara çox inam olmadığı üçün insanlar rəsmi xəbərlərə televiziyadan qulaq asırdı: "Lakin artıq müharibə bitib, televiziyalar müharibədən sonra tamaşaçılarını itirməmək üçün çox maraqlı formalar tapmalı idilər. Bu forma nədən ibarət ola bilərdi? Pafosdan uzaq, plakat tipli verilişləri kənara qoyub müharibə ilə bağlı mövzular seçmək və onları çox peşəkar, maraqlı şəkildə təqdim etmək olardı. Bunun üçün də televiziyalarda tendensiyaları duya bilən peşəkarlar, ssenaristlər olmalıdır, rejissorluq işləri gücləndirilməlidir".

Qulu Məhərrəmli hesab edir ki, Qarabağla bağlı mövzuların tamaşaçılara cazibədar formada təqdim edilməsi, vətənpərvərliyin gücləndirilməsi üçün işlərin aparılması vacibdir.

## "MTRŞ-nin araşdırmaları keyfiyyətsizdir, naşıdır və mənasız nəticələri olan monitorinqlərə xərclənən pullar heyifdir"

Milli Televiziya və Radio Şurasının vaxtaşırı açıqladığı hesabatlarda televiziyalarda ədəbi dilin işlənməsi vəziyyəti üzrə nöqsanlar açıqlanır. Əlbəttə, belə nöqsanların üzə çıxarılması təqdirəlayiqdir. Lakin bu gün televiziya sahəsindəki əsas problemlər yalnız dil nöqsanları ilə məhdudlaşırmı? Problemlərin sıralanmasında bu mövzu bəlkə də ən sonuncu yerlərdə qərarlaşa bilər.

Məsələ ondadır ki, dil nöqsanlarını aşkarlayan MTRŞ-nin ədəbi dilin işlənməsi ilə bağlı dəfələrlə etdiyi xəbərdarlıqlardan da heç nəticə çıxarılmır, televiziya rəhbərləri tərəfindən nöqsanların aradan qaldırılması üçün ciddi iş görülmür. Sanki telekanallar və radiolar MTRŞ-nin nəzarət tədbirlərindən çəkinmirlər.

Məsələyə peşəkarcasına yanaşan Zeynal Məmmədli isə MTRŞ-nin araşdırmalarını keyfiyyətsiz sayır:

- MTRŞ-nin araşdırmaları naşıdır. Çünki onlar televiziya dilinin hibridliyini anlamırlar. Televiziya dilində bədən, geyim, intonasiya, görüntü var. Elmi araşdırmalar göstərir ki, televiziyalarda informasiyanın cəmi 8 faizi sözlə alınır, yəni informasiyanın sözlə ifadə olunması çox xırda elementdir. İnformasiyanın 37 faizini intonasiya, 55 faizini görüntü ilə alırıq. Amma 8 faizin içinə yazılı sözlər, titrlər, subtitrlər də daxildir. MTRŞ bunu da çeşidləmir. Digər tərəfdən, MTRŞ monitorinqi çox subyektiv edir. "Bu söz belə yazılmalıdır, belə deyilməlidir" deyərək aparıcılardan dəqiqləşməmiş orfoepiyanı tələb edir. Ədəbi dil ifadəsi də sovet dövründən qalmadır. Onun adı bütün dünyada ortaq dil kimi təqdim edilir. Ədəbi dil canlı danışıq dilindən uzaqdır. Televiziyanın dili isə canlıdır, toplum dilidir. Televiziyalardakı monitorinqləri Dilçilik İnstitutunun mütəxəssisləri aparır. Amma Dilçilik İnstitutunun mütəxəssisləri kütləvi kommunikasiya mütəxəssisidirmi? Kütləvi kommunikasiya jurnalistika, sosiologiya predmetidir. Canlı danışıq dilində xırda yayınmalar həmişə olacaq. Amma fikir necə ifadə edilir, dəyərli fikirdirmi, bu fikir ictimai rəyi fəallaşdırmağa qadirdimi? Bu məsələləri qoyub cılız xırdalıqlara baxırlar. Mənim mənasız nəticələri olan bu monitorinqlərə xərclənən pullara heyifim gəlir. Bu məsələlərə peşəkar baxımdan yanaşılmanın tərəfdarıyam.



## Keyfiyyətli yayımçılıq tələb etmək senzuradırmı?

Yuxarıda sadalanan bir çox məsələlərə münasibət bildirmək üçün Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarova müraciət etdik.

İsmət Səttarov suallarımızı yazılı cavablandırmağa üstünlük verdi. Onun qənaətincə, şuranın əsas vəzifəsi televiziya və radio yayımı haqqında qanunvericiliyə əməl edilməsi üzərində nəzarəti həyata keçirməkdir. "Televiziya və radio yayımı haqqında" qanunun 2-ci maddəsinə əsasən Azərbaycanda teleradio yayımında yayımçıların yaradıcılıq və redaksiya fəaliyyəti peşə müstəqilliyi əsasında həyata keçirilir və teleradio yayımçıları qanunvericiliyin tələblərini pozmamaq şərti ilə proqram hazırlamaqda və yayımlamaqda sərbəstdirlər.

Bu səbəbdən teleradio yayımçılarının proqramlarında hər hansı qanun pozuntusu olmadığı halda yayımçıların yaradıcılıq və redaksiya fəaliyyətinə müdaxilə edilməsini səlahiyyətləri xaricində sayan MTRŞ-nin sədri onları tənqid edənləri də qınayır: "Bəzi media vasitələri və ya müstəqil jurnalistlər şuranı əsassız olaraq teleradio kanallarında yayımlanan bu və ya digər proqramın mövzusu ilə bağlı sərt tədbirlər həyata keçirməməkdə, hər hansı bir aparıcının, qonağın və ya ümumən proqramın efirə çıxmaması istiqamətində fəaliyyətsizlikdə günahlandırırlar. Belə fikirlərə cavab olaraq bildirmək istəyirik ki, bu cür tədbirlərin həyata keçirilməsi bütün dünyada media azadlığına məhdudiyyət və senzura kimi qəbul olunur. Azərbaycanda senzura 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə ləğv olunub. Sonrakı illərdə media sahəsi ilə bağlı qəbul edilmiş qanunvericilik aktları ilə ölkədə media azadlığı təmin olunub. Həmin fikri səsləndirən jurnalistlər anlamalıdırlar ki, belə çağırışlarla onlar senzuranıın bərpasına və media azadlığının məhdudlaşdırılmasına səs vermiş olurlar. Bu isə Azərbaycanın hazırda irəlilədiyi demokratik inkişaf yolu ilə ziddiyyət təşkil edir".

Əlbəttə ki, müsahibə canlı olsaydı, biz "İsmət müəllim, problem keyfiyyətli yayımçılıqdan, televiziyanın təməl prinsiplərinin, məramlarının pozulmasından gedir. Bu mövzunu senzura ilə əlaqələndirmənizi əslində MTRŞ-nin öz səlahiyyətlərindən qaçma bəhanəsi saymaq olarmı?" sualını verərdik...

## MTRŞ telekanalların məqsədinin gəlir əldə etmək olduğunu nəzərə alır

İsmət Səttarov yazılı cavabında vurğulayır ki, həm televiziya, həm də radio yayımı zamanı aparıcıların ədəbi dil normalarına riayət etməsi şuranın daim diqqət mərkəzində olan məsələlərdəndir. Belə ki, 2011-2019-cu illərdə MTRŞ "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" layihəsi əsasında ədəbi dil normalarına əməl edilməsi ilə bağlı mütəmadi monitorinqlər təşkil edib. Bu monitorinqlər AMEA-nın Dilçilik İnstitutunun və Bakı Dövlət Universitetinin dilçi mütəxəssisləri tərəfindən aparılıb və nəticələrlə bağlı hesabatlar dərc edilib. Son illərdə bununla bağlı, xüsusən də aparıcıların nitqində olan qüsurlu hallarla bağlı yayımçılara tövsiyə məktubları, xəbərdarlıqlar ünvanlanıb, onların iştirakı ilə bəzi hesabat xarakterli görüşlər və "dəyirmi masa"lar təşkil olunub.

İsmət Səttarov bu fikirdədir ki, məhz şuranın fəaliyyətinin nəticəsi olaraq teleradio efirimizdə bu sahədə əvvəllər mövcud olan qüsur və nöqsanların sayı azalıb.

Şura sədri pozuntuların aradan qaldırılması üçün davamlı işlərin görüldüyünü də söyləyir: "MTRŞ tərəfindən teleradio yayımçılarının davamlı monitorinqi aparılır, yayım zamanı qanunvericiliyin tələblərinin pozulması halları aşkarlanır və şuranın mövcud səlahiyyətləri çərçivəsində bu hallara zəruri hüquqi qiymət verilir, yayımçılar tərəfindən gələcəkdə belə pozuntuların aradan qaldırılması üçün məqsədyönlü işlər aparılır".

İsmət Səttarov əlavə edir ki, televiziya və radio bütün dünyada olduğu kimi, məlumatlanma, maariflənmə və əyləncə vasitəsi olmaqla yanaşı, həm də biznes qurumlarıdırlar. Buna görə də onların fəaliyyət məqsədinin gəlir əldə etmək olduğu da nəzərə alınmalıdır.

Reytinq, yəni tamaşaçı auditoriyasının rəğbətini qazanmaq və son nəticədə gəlir əldə etmək məqsədi ilə özəl yayımçılar daha çox əyləncə və şou proqramlarına üstünlük verirlər: "Dövlət ictimaiyyətin məlumatlanma və maariflənmə sahəsində olan tələblərinə cavab vermək üçün müvafiq tədbirlər həyata keçirib və keçirməkdədir. Dövlət büdcəsindən maliyyələşən və ictimai yayımçı funksiyaları daşıyan kanalların fəaliyyətini buna misal göstərmək olar. Lakin özəl televiziya və xüsusən radio kanallarının maddi durumu heç də ürəkaçan vəziyyətdə deyil. Keçən ildən isə bu ağır vəziyyətə pandemiyanın əlavə olunması durumu daha da acınacaqlı hala salıb. Misal üçün, 2019-cu ildə teleradio yayımı sahəsində ümumi reklam bazarı 31 milyon manat olub, 2020-ci ildə isə bu rəqəm bir qədər də azalıb. Bu göstərici analoji əhali sayı olan digər ölkələrlə müqayisədə ən aşağı göstəricilərdən sayılır. Təbii ki, bu tənəzzülün bir sıra səbəbləri var ki, onların aradan qaldırılması üçün şura tərəfindən bir sıra təkliflər irəli sürülüb".

## MTRŞ sədrinin ümidi yalnız yeni qanunadır

MTRŞ sədri teleradio yayımı sahəsində problemlərin yaranmasının ən mühüm səbəblərindən birinin qanunvericiliyin zamanın tələblərinə cavab vermədiyini göstərib:

"Təbii ki, teleradio yayımı sahəsində problemlər mövcuddur, cəmiyyətin bütün sahələrində olduğu kimi, bu sfera da yerində dayanmır və inkişaf edir. Tənzimləmə metodlarının da bu yöndə inkişafla ayaqlaşması zəruridir və bu sahədə şura öz səlahiyyətləri və maliyyə imkanları çərçivəsində mümkün olan addımları atır. Teleradio yayımı sahəsində mövcud problemlərin yaranmasının bir sıra səbəbləri var ki, onlardan da ən mühümü bu sahə üzrə qanunvericiliyin zamanın tələblərinə cavab verməməsidir. Bildiyiniz kimi, Azərbaycan Prezidentinin media sahəsində islahatların dərinləşdirilməsi ilə bağlı 12 yanvar 2021-ci il tarixli fərmanında yeni "Media haqqında" qanunun hazırlanması tapşırılıb. MTRŞ bu işdə fəal iştirak edir. Düşünürük ki, zamanın və ölkənin iqtisadi-siyasi, mədəni-ictimai inkişafının tələblərinə cavab verməyən "Kütləvi informasiya vasitələri haqqında" və "Televiziya və radio yayımı haqqında" qanunların əvəzinə həmin sahələrin hüquqi-iqtisadi tənzimlənməsinii həyata keçirən və informasiya-kommunikasiya texnologiyalarının son inkişaf yeniliklərini nəzərə alan ümumi "Media haqqında" qanunun qəbul olunması Azərbaycanda media sahəsinin, o cümlədən onun tərkib hissəsi olan teleradio yayımı sahəsinin gələcək inkişafına səbəb olacaq".

Televiziya milli düşüncəni inkişaf da etdirə, onu sıradan çıxarıb tamamilə yox edə də bilər. Müstəqillik dövründə telekanalların bunlardan hansının etdiyini tamaşaçı deyə bilir. Bu tamaşaçılar arasında uşaq da, gənc də, yaşlı da, fəhlə də, akademik də, müəllim də, evdar qadın da.... var.

Telekanllar bütün bu insanların televiziyasına çevrilməlidir. Ona baxan akademik orada elmi, müzakirə tələb edən verilişlər, gənclər və uşaqlar yaş dövrlərinə uyğun milli ruhlu inkişaf proqramları görməli, fəhlə dövlətin siyasətinin nə olduğunu, hansı qərarların düzgün, hansının yanlış olduğunu öz dilində başa düşməlidir.

*Onun hər bir verilişi özündə məlumatlandırma, maarifləndirmə yükünü daşımalıdır. Tamaşaçı telekanallardan artıq yeni fəaliyyət üslubu, yeni yanaşma istəyir.*

*Televiziya bunları nəzərə almayaraq auditoriyasını kütləşdirirsə, tamaşaçı qarşısında milli düşüncə, təfəkkür geriliyi baxımından mənəvi cinayət törədir. Bu cinayətin qoyduğu izləri isə yenə də televiziya özü təmizləyə bilər. Sadəcə bunun üçün səhvlərinə nəzər salmalı və özünü inkişaf üçün düzgün prioritetlər müəyyən etməlidir.*

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***



# Nizami Gəncəvi ili

880

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat!*






### *Yol çətin, aləm qaranlıq - atını bir yanə çək*

Yol çətin, aləm qaranlıq - atını bir yanə çək,
Varlığı gəl bir zaman can mülkinə, vicdanə çək.

Qov könül bağça-bağından bu qara qarğaları,
İmtahan eylə, hüma quşlarını meydanə çək.

Könlümə oldunsa məhrəm, ey gülüm, aç pərdəni,
Hikmətin şərbətini al, başına mərdanə çək.

Əhli-ruh məclislərində heç zaman olma ağır,
Saqitək, iç al şərab, hər işini səhmanə çək.

Məşğul olma zərrəcə cənnət-cəhənnəmlə, saqın,
Əz cəhənnəm başını, bir də qələm rizvanə çək.

Gərçi ruh aləminin hikmətinə çatdı əlin,
Ərşi titrət, gərdişin iplərini məstanə çək.

Get qədəmsiz o yolu, dilsiz danış hər sözünü,
Baxmadan gör, surəti-peymanəsin gəl canə çək.

Ey Nizami, bu qədər əsrar ki, sən açmısan,
Anlayan yox rəmzini, bəsdir, onu pünhanə çək.

### *Mənimtək köhnə bir dostu neçin qəmxar saxlarsan?*

Mənimtək köhnə bir dostu neçin qəmxar saxlarsan?
Var ol, əhsən deyir aləm, nə yaxşı yar saxlarsan.

Mənə xoşdur qəmim, canan, ona gəl dərman axtarma!
Sual etmə "Nədir dərdin?" əcəb bimar saxlarsan?..

Nə rəngdə sən olursan ol, səninlə mən varam daim,
Əgər təsbihə mayilsən və ya zünnar saxlarsan.

Səni mən dost sayırdım, sən məni düşmən hesab etdin.
Səninlə fəxr edirdim, sən məni naçar saxlarsan.

Əgər olsa qəmim yüngül, sənin qüssən olar asan,
Necə ki, könlümə xoşdur, məni, dildar, saxlarsan.

Səni daim Nizami öz əziz cananı bilmişdir,
Rəvamı sən onu, böylə, sitəmlə xar saxlarsan?

### *Eşq der: " At Kəbəni, gəl talibi-bütxanə ol!"*

Eşq der: " At Kəbəni, gəl talibi-bütxanə ol!"
Əmr edir canan ki: - Aşiqsən əgər, divanə ol!

Eşq zəncir istəməz, azad yaşar hər qeyddən,
Sən ki, eşqə aşinasan, hər şeyə biganə ol!

Danə ol qəm quşlarına yar kuyində, könül,
Vəsli-yarə yetməyə, şəmə dolan, pərvanə ol!

Sərvi-azadi gəzib, vurma bəzək nərgizlərə,
Hökmrana bəndə ol, gəncinəyə viranə ol!

Söylədin, sirr kasəsindən içmişəm, nuş et, nolur.
Getmə gəl yar kuyinə, getsən əgər mərdanə ol!

Zərrə idin bir zaman, dön indi də bir xurşidə,
Tor idin sən quşlara, gəl, ey gözəl, bir danə ol!

İstəsən canan yanında bir gün olsun söhbətin,
Sən də dillərdə Nizamitək çalış, əfsanə ol!

### *Öz yaman halımı açdım sənə, diqqət verəsən*

Öz yaman halımı açdım sənə, diqqət verəsən,
O qara gözlərinə azca nəsihət verəsən.

Bəlkə məndən də betər sən vurularsan özünə,
Baxmağın şölə sala, aynaya zinət verəsən.

Tutar ahım deyibən qorxudan ah çəkməmişəm,
Bəs rəvamı mənə sən bunca məşəqqət verəsən?!

Ey dağım, ey dayağım, qıyma yada arxalanım,
Umuram könlümə qüdrət və mətanət verəsən.

Sən zənəxdan quyusundan çıxar öz Yusifini,
Bir vəfa dolçası göndər ki, şəfaət verəsən.

Al qanım nafə kimi tez quruyan müşkə dönər,
Hopdurub saçlarına, qanıma cürət verəsən.

Necə üzr istəyim, ey gül ki, dilim lal olmuş,
Qorxuram əfv edəsən, bir də xəcalət verəsən.

Qul Nizamindi coşan, yoxsa dərin dəryadır,
Sarbanam, bəlkə vəfadan mənə xələt verəsən.

● Klassik irsimiz

**XII əsri Azərbaycan mədəniyyətinin qızıl dövrü adlandıran müəlliflərlə həmfikir olan Səməd Vurğun Məhsəti Gəncəvinin, Xaqani Şirvaninin, Nizami Gəncəvinin ədəbi-bədii irsinə əsaslanırdı. S.Vurğun bu şairlərin humanizmlə, yüksək bəşəri hisslərlə, idraki mühakimələrlə çulğalanmış, insan və cəmiyyət hadisələrini, mənəvi və əxlaqi problemləri özündə ehtiva edən bədii irslərinin birdən-birə yaranmadığını, uzun bir ədəbi-mədəni təşəkkül prosesinin nəticəsi kimi təzahür etdiyini söyləyirdi. Şair ortaq başlanğıc dövründə yaranan ədəbiyyatı, yazılı abidələri mədəniyyətimizin təşəkkül və inkişaf qaynağı hesab edir, XII əsr-intibah dövrü Azərbaycan ədəbiyyatını bu zəngin ədəbi-bədii təcrübənin məntiqi davamı kimi dəyərləndirirdi.**



# Səməd Vurğunun nəzəri-estetik ideallarında Nizami Gəncəvi

Nizami Gəncəvi Səməd Vurğunun təbliğ etdiyi, ədəbi irsinin həm ideya zənginliyindən, həm də poetik kamilliyindən danışdığı sənətkarlardandır. Şair Nizami yaradıcılığına yaxından bələd olandan sonra belə qənaətə gəlmişdir ki, öz türklüyünə, mənsub olduğu xalqın mənəvi dəyərlərinə, əxlaqi keyfiyyətlərinə, milli ruhuna sadiq qalan N.Gəncəvi Şərq şeirində birincidir. Belə ki, Nizami "Xəmsə"sində təkcə vətəni Azərbaycanın deyil, bütün Şərqin obrazını cizgiləmiş, bu dünyanın portretini yarada bilmişdir. O, bütün insanlığın kədərini duyan, yaşayan və bu yaşantıları sözə çevirən sənətkar olmuşdur. İnsanlığın, bəşəriyyətin faciəsini özününküləşdirə bildiyindəndir ki, Nizami irsi üçün zaman və məkan çərçivəsi yoxdur. S.Vurğun Nizamini bütün bu xüsusiyyətlərinə görə bir insan kimi öz zamanının oğlu, vətəndaşı hesab edirdisə, bir şair, düşüncə adamı kimi dünənin, bu günün, həm də sabahın mütəfəkkiri hesab edirdi. S.Vurğun bütün fəaliyyəti boyu zamanı qabaqlayan sələfinin irsinə ciddi maraq göstərmiş, istər bədii yaradıcılığında, istərsə də məqalə və məruzələrində onun poetik təfəkkürünə, ədəbi irsinin bəşəriliyinə ardıcıl olaraq öz münasibətini bildirmişdir. S.Vurğunun onun adını böyük ehtiramla xatırladığı lirik şeirləri ("Nizami", "Azərbaycan" və s.), "Fərhad və Şirin" pyesinin mövzu və motivlərini Nizami yaradıcılığından götürməsi, "Leyli və Məcnun" poemasını dilimizə tərcümə etməsi dediklərimizə sübutdur.

Səməd Vurğun "Dahi Azərbaycan şairi", "Nizami və müasir dövrümüz", "Nizami Gəncəvi", "Böyük humanist" adlı məqalə və məruzələrində, həmçinin başqa münasibətlə olan çıxışlarında Nizami ədəbi irsinə müxtəlif aspektlərdən nəzər salmış, poeziyasının poetik və məfkurəvi zənginliyini, forma və məndəricə mükəmməlliyini təhlil etmiş, onun yaradıcılığının dövrü ilə səsləşən prinsipial məqamlarını səriştəli ədəbiyyatşünas kimi işıqlandırmışdır. Biz bu məqalə və çıxışların xronoloji sıralanmasına nəzər salsaq görərik ki, S.Vurğunun Nizami irsindən bəhsi davamlı xarakter daşımışdır. O öz çıxışlarında Nizami əsərlərinin tərcümə və nəşr olunması ilə yanaşı, tədqiq edilməsinin də vacibliyini qeyd edir, nizamişünaslıq üçün "Nizami və Şərq ədəbiyyatı", "Nizami və Qərb ədəbiyyatı", "Nizami romantik görüşlərin banisi kimi", "Nizami yaradıcılığında beynəlmiləlçilik motivləri", "Nizaminin ədəbi üslubu", "Nizaminin dünyagörüşü" kimi konkret mövzular da təklif edirdi. Şair təkcə bununla kifayətlənmir, şairin çağdaşları, Şərqdə ədəbi renessans dövrü, ümumiyyətlə, Şərq ədəbiyyatı haqqında tədqiqatların aparılmasını və bununla da həm Azərbaycanda, həm də Şərqdə olan milli-mənəvi, ədəbi-estetik keyfiyyətləri tanıtmağı, təbliğ etməyi ciddi elmi əhəmiyyət kəsb edən məsələ sayırdı. S.Vurğunun klassik irsin tədqiqinə, yaxın və uzaq keçmişimizin öyrənilməsinə belə tələbkar və prinsipial münasibəti, çağdaş ədəbi prosesin inkişafında sağlam ənənələrdən istifadəni vacib sayması dünya ədəbiyyatına misilsiz incilər bəxş etmiş Azərbaycanın tarixi və mədəniyyətinə dırnaqarası baxanlara, nihilistlərə, kosmopolitlərə tutarlı cavab idi.

Bilirik ki, S.Vurğun həm də Nizaminin "Leyli və Məcnun" əsərini dilimizə tərcümə etmişdir. Yəni şair öz sələfinin ədəbi irsinin bütün poetik incəlikləri ilə, ecazkar qüdrətiylə, fikri-bədii uğurlarıyla bilavasitə tanışlıqdan sonra öz qənaət və mülahizələrini söyləmişdir.

Şair humanizm və vətənpərvərliyi Nizami yaradıcılığının təməli, iç mövzusu hesab edirdi. Onun əsərlərində Azərbaycanın təbiəti, doğma torpağın qədim şöhrəti, əzəmətli qalaları bütün gözəlliyi ilə vəsf olunmuşdur. Amma S.Vurğun Nizami vətənpərvərliyinin mahiyyətini təkcə bunda görmürdü. Mütəfəkkir şairin əsərlərində ictimai bəlaların, sosial bərabərsizliyin səbəbkarlarına, xalqı fəlakətə, işgəncəyə düçar edənlərə kəskin nifrət və kin duyulurdu. Nizami öz kəsərli bədii müddəaları ilə haqqın, ədalətin bərpasına ədəbi fərman verirdi. S.Vurğun da Nizami vətənpərvərliyinin əsil mahiyyətini bu ictimai-siyasi səciyyə daşıyan motivlərdə görürdü. S.Vurğun Nizamini demokratik ideyaların tərənnümçüsü adlandırırdı. Şair öz cəsarəti ilə Şərq ədəbiyyatına bir orijinallıq gətirmiş, xalqın sadə nümayəndələrini tərənnüm edərək əbədiləşdirmişdir. Professor Azadə Rüstəm Sənainin "Hədiqətül-Həqaiq" əsəri ilə N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərinin oxşar və fərqliliyindən bəhs edəndə yazır: "Hədiqə"də xalq kütləsinin ünvanına nahamvar, kobud ifadələr də ara-sıra eşidilməkdədir. Sənai kütlənin halına yanaraq həm də onu cahil, avam, ali mənəvi hisslərdən məhrum bir toplum kimi qəbul edir. Bu təzad Nizamidə yoxdur. Nizami olur ki, kütlənin içərisindən çıxan ayrı-ayrı naqabil fərdlərin eybəcər və çirkin hərəkətlərini ifşa etsin, ancaq toplunun bütövlükdə ləyaqəti Nizami üçün ucadan da ucadır. "Sirlər xəzinəsi" də daxil olmaqla Nizaminin bütün əsərlərində şairin abidəsini əbədiləşdirdiyi xalq nümayəndələri obrazları küll halında əməli, hissi, zehni fəaliyyətləri ilə müstəqil dünyagörüşünə və həyati baxışa malik şəxsiyyət zirvəsinə çatmış, birər xarakterlər, "muxtar" insanlardır. Bu, müsəlman Şərqi ədəbiyyatında humanizmin, şairin öz təbiri ilə deyilsə, "mərdomilik" - insaniliyin ən böyük təntənəsi idi".

Nizami insanı həmişə bəşəriyyətin ən ali varlığı hesab etmiş, onun şərəfini, ləyaqətini hər şeydən yüksək qiymətləndirmişdir. S.Vurğun məqalələrində Nizaminin insana verdiyi yüksək dəyərdən danışaraq göstərir ki, dahi şair insan zəkasını, insan idrakını hər şeyə qadir hesab edir, insanda yüksək mənəvi keyfiyyətlər görmək istəyirdi. Nizami belə düşünürdü ki, insanın kamil, yaxud cahil olmağı onun öz əlindədir. Belə olan təqdirdə, niyə o kamilləşmək, mənən zənginləşmək üçün çalışmasın? Həqiqətin, idrakın təntənəsinə dərin inam bəsləyən şair insanı xeyirxah olmağa, ləyaqətini qoruyub saxlamağa səsləyirdi. Şair göstərirdi ki, Nizami insanın təkcə zahiri tərəflərini, görünən üzünü, keçici hadisələri deyil, onun daxili aləmini, fikir dünyasını bütün ziddiyyəti ilə əks etdirə bilir.

Dahi şair elmin, zəkanın cahanda bütün pisliklərə qalib gələcəyinə inanır, dünya sirlərinin öyrənilməsində ancaq idrakın təntənəsinə ümid bəsləyirdi. Nizaminin etiqadına görə, insanın ən böyük nailiyyəti elm və onun qanunlarıdır.

S.Vurğun bədii sənətdə ənənələrin davamı məsələsindən danışanda Nizaminin dünya bədii düşüncəsinin inkişafına təsirindən söz açaraq qeyd edirdi ki, şair özündən sonra gələn nəsillərin ən yaxşı düşüncə və duyğuları üzərində əsrlərlə hökmran olmuşdur. O, Nizaminin Azərbaycan ədəbiyyatına, Şərq mədəniyyətinə və ümumiyyətlə, dünya ədəbi-estetik fikir aləminə təsirindən, nüfuzundan yazırdı: "Əgər Nizamiyə qədər müsəlman Şərqində İran ədəbiyyatı qabaqcıl idisə, Nizaminin və onun arxasınca Azərbaycan ədiblərinin bütöv bir nəslinin yaranmasından sonra İran klassik ədəbiyyatı öz birinciliyini bizim Azərbaycan ədəbiyyatına təhvil verdi. Zaqafqaziya, Dağıstan, Orta Asiya, İran, Türkiyə xalqları və başqa xalqların arasında milli dilimizin populyar olması da göstərilən xalqlar arasında Azərbaycan ədəbiyyatının geniş yayılmasına xidmət edirdi".

Məlum olduğu kimi, Nizaminin yüzlərlə davamçısı, onu özünə ustad sayan şagirdi olmuş, şairin əsərlərinə nəzirələr yazılmış, yaradıcılığının bədii motivləri əsasında çox sayda əsərlər yaranmışdır. S.Vurğun Nizaminin gürcü şairi Şota Rustaveliyə olan təsirindən söz açır, bu yaradıcılıq əlaqəsinin də tədqiqata ehtiyacı olduğunu vurğulayırdı: "Nizaminin dahi gürcü şairi Şota Rustaveliyə olan təsiri də öyrənilməyib. Rustaveli və Nizaminin tərcüməsi üzərində işləyərkən onların yaradıcılığında xeyli oxşar cəhətlər müəyyən etdim. Həm ayrı-ayrı milli ədəbiyyatların tarixini, həm də xalqımızın qarşılıqlı ədəbi əlaqələrinin öyrənilməsi üçün bununla ciddi və prinsipial məşğul olmaq lazımdır".

S.Vurğun qeyd edir ki, Nizami yaradıcılığı Azərbaycanın, Şərqin, Zaqafqaziyanın hüdudlarından çox kənara çıxır. Qədim və orta əsrlər Azərbaycanının yüksək humanizmi və mütərəqqi ideyaları ilə qidalanmış zəngin Nizami irsi Avropa xalqlarının ədəbiyyatına da əhəmiyyətli təsir göstərmişdir. Şair sələfinin Höte tərəfindən necə xarakterizə olunmasını xatırladır, bunun klassik Azərbaycan ədəbiyyatının Avropa mədəniyyətinə təsirini öyrənmək baxımından çox əhəmiyyətli fakt olduğunu vurğulayırdı.

Həqiqətən də Nizaminin Qərb və Şərq ədəbiyyatı ilə əlaqələrini, onun dünya ədəbiyyatındakı mövqeyini, təsir dairəsini araşdıran görkəmli ədəbiyyatşünas alimlərin - Əkbər Ağayevin ("Nizami və dünya ədəbiyyatı"), Əli Sultanlının ("İskəndərnamə" və Qərbi Avropa ədəbiyyatı", "Leyli və Məcnun" və Qərbi Avropa ədəbiyyatı"), Nuşabə Araslının ("Nizami və Türk ədəbiyyatı"), R.Azadənin, ("Nizami və onun poeziya sələfləri") X.Yusifovun ("Şərqdə intibah və N.Gəncəvi") bu sahədə apardıqları işlərlə tanış olduqda S.Vurğunun təklif və iradlarının nə qədər elmi əhəmiyyət daşıdığını görürük. Ə.Ağayev N.Gəncəvinin dünya ədəbiyyatına, o cümlədən Avropa ədəbiyyatına olan təsiri, şairin Höte, Heyne, Qotsi, Şiller yaradıcılığı ilə əlaqəsinin oxşar cəhətləri haqqında araşdırmalarında xüsusilə bəhs edirdi.

S.Vurğun Nizami irsinin tədqiq olunmasını nəyə görə vacib hesab edirdi? Birinci, ona görə ki, şairin əsərlərinin elmi və fəlsəfi mahiyyətinin, ideya dəyərlərinin, insanın düşüncə və fikrinə nüfuz gücünün, poetik və məfkurəvi məziyyətlərinin və onun timsalında Azərbaycan ədəbi-estetik fikrinin zəngin sütunlar üzərində formalaşmasının təbliğ olunmasını istəyirdi.

İkinci, Nizami yaradıcılığındakı humanizm və vətənpərvərlik, romantik üslubdan istifadə, konflikt və ziddiyyətlərin böyük məharətlə qurulması, yaratdığı obrazı bütün daxili mürəkkəbliyi ilə ifadə etmək bacarığı, ideal qəhrəmanın bütün tamlığı ilə təsviri kimi keyfiyyətlərdən çağdaş ədəbi prosesin, canlı ədəbi gerçəkliyin inkişaf və təkamülündə istifadəni vacib sayırdı.

XII yüzilliyin mütəfəkkiri hər cür süniliyi, insan zəkasına və şüuruna, sağlam fikir və məntiqə zidd olan hər şeyi rədd edir, istər həyat hadisələrində, istərsə də yaradıcılığında təbiiliyə üstünlük verirdi. Nizaminin qəhrəmanları əfsanəvi obrazlar, hurilər, mələklər deyil, düşünən, yaradan canlı insan surətləridir. Mahir söz ustasının yaratdığı insan xarakterləri, obrazları monumentallığı ilə diqqəti çəkir. Şair onların daxili aləmlərini bütün çalar və təzadları ilə birgə göstərir, psixoloji aləmlərini məharətlə açırdı.

Məlumdur ki, Nizami bəzi sələfləri, zəmanəsinin bir çox şairləri kimi yüksək mənsəb və yaxşı yaşayış üçün saraylara getməmiş, xalqın içində yaşamış, öz ilhamını da xalqdan almışdır. O, öz əsərlərində mənsub olduğu xalqın həyat və yaşamını, adət-ənənələrini, yüksək düşüncə və arzularını, qayğı və ehtiyaclarını canlı şəkildə təsvir etmişdir. Şair öz əsərlərində xalq ədəbiyyatı, folklor nümunələri, el incilərindən yetərincə faydalanmışdır.

S.Vurğunun qənaətinə görə, Nizami fantaziyası xalqımızın zəngin folkloru ilə - əfsanə və nağılları, rəvayət və deyimləri, xalq hikməti ilə bəzənmiş, cilalanmış və bir müdriklik kəsb etmişdir. Demək olar ki, şairin bütün poemaları Azərbaycanın, Şərqin şifahi xalq ədəbiyyatından qaynaqlanmışdır. S.Vurğun bu faktı şairin mənəvi qəhrəmanlığı kimi səciyyələndirir, xalqının milli-mənəvi sərvətinə, estetik təfəkkür tərzinə bu qədər bağlılığına görə düha sahibinə yüksək dəyər verirdi.

Bu gün də xalqın dilində aforizmlər, zərbi məsəllər şəklində işlənən xeyli incilər var ki, onların müəllifi Nizami Gəncəvidir. Bu incilər xalq ədəbiyyatının nümunələrinə o qədər qaynayıb qarışmışdır ki, bəzən bunların müəllifinin Nizami, yaxud xalq olduğunu müəyyənləşdirmək çətin olur. S.Vurğun bunu öz məqalələrində dəfələrlə qeyd etmiş, xalqla, xalq ədəbiyyatı ilə bu bağlılığı şairin yaradıcılığında mövcud olan xəlqiliyin əsası kimi qiymətləndirmişdir. Təsadüfi deyildir ki, Səməd Vurğun özü də "Ayın əfsanəsi", "Qız qayası", "Bulaq əfsanəsi", "Aslan qayası" kimi əsərlərinin mövzusunu xalq əfsanə və rəvayətlərindən götürmüşdür. S.Vurğun da öz sələfi kimi həm yazılı və həm də xalq ədəbiyyatının ən yaxşı nümunələrindən bəhrələnmiş, zəngin söz xəzinəsindən istifadə etmişdir.

Ümumiyyətlə, Nizami Gəncəvi ilə Səməd Vurğun yaradıcılığında bir ruh uyğunluğu mövcuddur. Biz bu əlaqə və bağlılıqdan Füzuli və Vurğun, Vaqif və Vurğun mövzusunda danışanda da bəhs edə bilərik. Amma bu uyarlıq Füzuli və Səməd Vurğun yaradıcılığında dərin psixologizm, Vaqif - Vurğun şeiriyyətində lirizm çalarında müşahidə olunursa, Nizami - Vurğun münasibətində dərin fəlsəfi ümumiləşdirmələr, epik forma, estetik görüşlər sistemi kontekstində meydana çıxır.

***Aygün BAĞIRLI,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent***

● Tədqiqatçı rəyləri

# Görkəmli ədəbi simalar Nizami irsi haqqında

■ **Səməd Vurğun:** "Əgər Nizamiyə qədər müsəlman Şərqində İran ədəbiyyatı qabaqcıl idisə, Nizaminin və onun arxasınca Azərbaycan ədiblərinin bütöv bir nəslinin yaranmasından sonra İran klassik ədəbiyyatı öz birinciliyini bizim Azərbaycan ədəbiyyatına təhvil verdi. Zaqafqaziya, Dağıstan, Orta Asiya, İran, Türkiyə xalqları və başqa xalqların arasında milli dilimizin populyar olması da göstərilən xalqlar arasında Azərbaycan ədəbiyyatının geniş yayılmasına xidmət edirdi".

■ **Professor Azadə Rüstəm** Sənainin "Hədiqətül-Həqaiq" əsəri ilə N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərinin oxşar və fərqliliyindən bəhs edəndə yazır: "Hədiqə"də xalq kütləsinin ünvanına nahamvar, kobud ifadələr də ara-sıra eşidilməkdədir. Sənai kütlənin halına yanaraq həm də onu cahil, avam, ali mənəvi hisslərdən məhrum bir toplum kimi qəbul edir. Bu təzad Nizamidə yoxdur. Nizami olur ki, kütlənin içərisindən çıxan ayrı-ayrı naqabil fərdlərin eybəcər və çirkin hərəkətlərini ifşa etsin, ancaq toplunun bütövlükdə ləyaqəti Nizami üçün ucadan da ucadır. "Sirlər xəzinəsi" də daxil olmaqla Nizaminin bütün əsərlərində şairin abidəsini əbədiləşdirdiyi xalq nümayəndələri obrazları küll halında əməli, hissi, zehni fəaliyyətləri ilə müstəqil dünyagörüşünə və həyati baxışa malik şəxsiyyət zirvəsinə çatmış, birər xarakterlər, "muxtar" insanlardır. Bu, müsəlman Şərqi ədəbiyyatında humanizmin, şairin öz təbiri ilə deyilsə, "mərdomilik" - insaniliyin ən böyük təntənəsi idi".

■ **Akademik A.Makovelski:** "Nizami deyir ki, idrak və onun vasitəsi ilə əldə edilən bilik insanı hər şey üzərində hökmran edir. İdrak nuru dünyanı dərk etməkdə, yaşayış təcrübəsində, ictimai fəaliyyətdə və əxlaq aləmində insanın rəhbəri, müəllimi olmalıdır".

■ **Akademik Həmid Araslı:** "Nizami Azərbaycanın tarixini yaxşı bilirdi. O, xalqının mərd, mübariz keçmişini, namuslu həyatını, şərəfli əməyini, nəcib sifətlərini, gözəl ənənələrini hərarətlə tərənnüm edirdi. Nizami xalqın bütün yüksək mənəvi zənginlikləri ilə tərbiyələnmiş və bu mənəvi zənginliklərə bağlı bir insan idi. O, bu zənginlikləri dastanlarda, nağıllarda dinləmiş, mahnılarda, laylalarda eşitmiş, tarixi kitablarda oxumuş, qocaların söhbətində, xalq sənətkarlarının məclislərində öyrənmişdi".

■ **Professor Əkbər Ağayev:** "Alman ədəbiyyatının Höte və Şiller kimi iki nəhəng yazıçısının Nizami yaradıcılığı ilə olan əlaqəsi böyük Azərbaycan şairinin dünya ədəbiyyatındakı təsirinin nə qədər geniş olduğunu bütün aydınlığı ilə sübut edir.

Nizaminin süjetlərinin dünya ədəbiyyatında və xüsusilə Qərbi Avropa ədəbiyyatında yayılması və həmin süjetlərdən istifadə edilməsi məsələsi haqqında danışarkən qeyd etmək lazımdır ki, böyük şairin əsərlərinin ayrı-ayrı süjetləri, bəzən Avropa yazıçıları tərəfindən bilavasitə istifadə olunmuş, bəzən də həmin süjetlər dolayı yollarla Avropa ədəbiyyatına gedib çıxmışdır".
